# İsanın möcüzələri
## vasitəsilə
# Allahın böyüklüyünü
# kəşf etmək

# İsanın möcüzələri vasitəsilə Allahın böyüklüyünü kəşf etmək

**Təklikdə və ya qrupda Allahın Kəlamı üzərində düşünmək üçün 32 dərs**

*Ey bütün dünya əhli, Cuşa gəlib Allaha nida edin,*
*Şərəfli ismini tərənnüm edin, Ona şərəflə həmd edin!*
*Siz Allaha belə deyin: «Əməllərin nə qədər zəhmlidir!»*
*Zəbur 66:1-3*

Bütün sitatlar MÜQƏDDƏS KİTAB-dan götürülmüşdür.
© MÜQƏDDƏS KİTAB (Əhdi-Ətiq və Əhdi-Cədid) Əhdi-Ətiq © MKŞ 2004, 2006, 2009 (təkrar yoxlanılmış) Əhdi-Cədid © MKŞ 2009 (yeni tərcümə)

Translated from the English
***Discover the Greatness of God through the Miracles of Jesus***
© 2024 Life Resources

**İsanın ardıcılları üçün Həyat Dərsləri**
bir çox dildə pulsuz yüklənə bilən digər kitablar:

- **İsa Məsihin təlimindən 50 Həyat Dərsi**
- **Qədim Müqəddəs Yazılardan Yaradılış Kitabı üzrə Dərslər**
- **Bəxtiyarlıq vədləri ilə Məsihdə böyümək**
- **Bir Bədən-Bir Ürək, nişanlı və evli cütlüklər üçün**
- **Uşaqları Allah yolunda necə böyütmək**
- **İsanın ardınca birlikdə getmək: Evlərdə yığışan məsihçilər üçün bələdçi**

**www.learnhisways.com**

## Mündəricat

Müqəddəs Kitab dərslərinin prinsipləri və rəhbərlər üçün qaydalar .....9
Möcüzə nə deməkdir? ....................................................................13
1. Toy ziyafətində baş verən möcüzə ..................................................15
2. Görmədən iman etmənin nəticəsi daha böyük imandır ...................18
3. İsanın təlimi və əməlləri Onun səlahiyyətini göstərir .....................21
4. Möcüzəli balıq ovu ........................................................................24
5. İsanın toxunuşu mərhəmət ifadə edir .............................................27
6. İsanın sözünün səlahiyyəti vardır ...................................................30
7. İsanın günahı bağışlamaq səlahiyyəti vardır ...................................33
İsa nə üçün bu qədər möcüzələr yaratdı? ...........................................35
8. İsa dini ənənə deyil, mərhəmət istəyir ............................................37
9. İsa dul qadının oğlunu dirildir ........................................................39
10. İsanın təbiət üzərində səlahiyyəti var ...........................................42
11. İsanın pis ruhlar üzərində səlahiyyəti vardır .................................45
12. İsa ümidsizlərə ümid verir (1-ci hissə) .........................................48
13. İsa ümidsizlərə ümid verir (2-ci hissə) .........................................51
14. İsanın qüdrəti və səlahiyyəti haradan gəlir? (1-ci hissə) ...............54
15. İsanın qüdrəti və səlahiyyəti haradan gəlir? (2-ci hissə) ...............57
16. Bet-Xasda hovuzunun yanında xəstə bir adamın şəfa tapması .....60
İnsanlar nə üçün İsanın möcüzələrinə müxtəlif cür reaksiya göstərdilər? ....................................................................................63
17. Möcüzəli yemək ............................................................................66
18. İsa suyun üstündə yeriyir ..............................................................69
19. İsa yadelli qadını imanına görə tərifləyir .......................................72
20. İsa kar qulaqları və pəltək dili açır ................................................75
21. Qeyri-yəhudilər üçün möcüzəli yemək; Peter üçün möcüzəli pul 78
22. Kor adamın şəfa tapması Allaha izzət gətirir .................................81
23. Kor adamın tədricən görməyə başlaması .......................................84
24. İsa oğlanı cinlərin köləliyindən azad edir .......................................86
Allah bu günlərdə də möcüzələr yaradırmı? ........................................89
25. İsanın Şənbə günü göstərdiyi iki möcüzəsi dini rəhbərləri qəzəbləndirir ..........................................................................94

26. Təşəkkür edən adam ikiqat xeyir-dua alır ....................................97
27. İsa kor gözləri açır....................................................................100
28. Dirilmə və həyat İsadır (1-ci hissə) ............................................103
29. Dirilmə və həyat İsadır (2-ci hissə) ............................................106
30. İsanın dirilməsi .........................................................................109
31. İkinci möcüzəli balıq ovu ...........................................................114
32. Cəmiyyəti təqib edən adam dönüb həvari olur............................117
Tərcüməçilər üçün qaydalar ..............................................................121

## Müqəddəs Kitab dərslərinin prinsipləri və rəhbərlər üçün qaydalar

Allahın Kəlamından, Müqəddəs Kitabdan öyrənmək böyük üstünlükdür! Biz Allahın tələb etdiyi öyrənmə tərzini anlamalıyıq. Əgər biz Allahın Kəlamı imtahandan keçmək üçün faktları öyrənən tarix fakültəsinin tələbəsi kimi öyrənsək, biz Allahın nə istədiyini nəzərdən qaçıracağıq. Onun təlimi ancaq bizim başlarımız üçün deyil, ürəklərimiz üçündür.

İsa Məsihin möcüzələri barədə olan bu dərslər sizə onun sözlərini və hərəkətlərini diqqətlə nəzərdən keçirməyə və onları tətbiq etməyə kömək etmək məqsədilə yaradılmışdır. Bunu etməyin üç vacib yolu aşağıdakılardır:

1) **HEKAYƏYƏ YAXINDAN NƏZƏR YETİRİN** – Hər bir dərsdə olan bəzi suallar həqiqətən nə baş verdiyini və nə deyildiyini görmək üçün sizdən ***müəyyən ayələrə yaxından nəzər yetirməyi*** xahiş edəcək. Həmin halda öz fikrinizi kənara qoyun və düşünün: "Əslində burada nə deyilir?"
2) **MƏNA BARƏDƏ DÜŞÜNÜN** – İsanın hər bir sözü və hərəkəti vacibdir. Bəzi suallar sizdən ***İsanın Öz sözləri və ya hərəkətləri vasitəsilə bizə nə öyrətməyə çalışdığını düşünməyinizi*** istəyəcək. Biz riayət etməmişdən əvvəl Onun nəyi nəzərdə tutduğunu anlamalıyıq.
3) **BUNU ÖZ HƏYATINIZA TƏTBİQ EDİN** – Dərsin sonluğuna yaxın "Tətbiq və dua" adlı bölməni görəcəksiniz. Burada sizi saxlayıb İsanı şərəfləndirəcək şəkildə ***Onun sözlərini həyatınızda necə tətbiq etməyiniz*** barədə düşündürən suallar görəcəksiniz. Bu suallara cavab verməyə tələsməyin. Siz Onun yoluna tabe olanda həyatınız dəyişəcək.

**QRUP RƏHBƏRLƏRI –** Hər bir qrup üzvü üçün bu dərsləri maraqlı etmək məqsədilə aşağıda bəzi qaydalar verilmişdir:

- **Dərsinizə hazırlaşmazdan əvvəl Müqəddəs Ruhun sizin müəlliminiz olması üçün dua edin.** Ondan sizə rəhbərlik etməsini və qrupla bölüşmək üçün sizə müdriklik və qavrayış verməsini xahiş edin.

- **Qrup rəhbəri kimi, qrupla görüşməzdən əvvəl, bölüşəcəyiniz Kəlam hissəsini və sualları təklikdə oxuyun.** Siz özünüz dərslə əvvəlcədən tanış olsanız, qrup üzvlərinə kömək etmək üçün daha yaxşı hazırlaşmış olacaqsınız.
- **Qrup dərsinizi dua ilə başlayın.** Allahın sizinlə olub Kəlamını anlamağa və riayət etməyə kömək edəcəyinə inanın.
- **Bu dərslərin ən vacib hissəsi Müqəddəs Kitabdan götürülən Kəlamlardır.** Bir qrup olaraq, təyin edilmiş Kəlamları ən azından bir dəfə oxuyun.
- **Cavab verməzdən əvvəl qrup üzvlərinin bəndləri diqqətlə oxuduğuna əmin olun.** Dərslər bizim İsanın nə dediyini fərz etməyimiz üçün deyil, Onun əslində nə öyrətdiyini aydınlaşdırmaq üçün hazırlanmışdır.
- **Qrupun üzvlərinin sualların hamısına bir-bir cavab verməsini təmin edin.** Bəzən hər bir nömrə altında 3-4 sual ola bilər. Bütün sualların hamısını birdən oxumayın. Növbəti nömrəyə keçməmişdən əvvəl hər bir sualı cavablandırın.
- **Bu dərslər bütün dərs boyu bir nəfərin təbliğ etməyi və ya öyrətməyi üçün deyil, qrup şəklində müzakirə etmək üçün nəzərdə tutulmuşdur.** Əgər qrup böyükdürsə, vaxt məhdudiyyəti səbəbindən hamının bir-bir suallara cavab verməyə imkanı olmaya bilər. Buna baxmayaraq, qrupda olan hər bir kəsə bir neçə sual barədə öz fikirlərini bildirməyə imkan yaradın. Müzakirədə hamının iştirak etməsini və heç kimin söz üstünlüyünü əlində saxlamamasına ruhlandırın.
- **Əgər mümkünsə, qrup üzvlərinin bir-birini görə bilməsi üçün dairəvi şəkildə oturun.** Bu sıra ilə düzülmüş stullar və qarşıda yalnız rəhbərin təlim verdiyi “sinif otağı” tərzinə nisbətən daha qeyri-rəsmi bir mühit yaradır. Dairəvi şəkildə oturmaq qrup üzvlərinə müzakirədə daha azad şəkildə iştirak etməyə yardım edəcək.
- **Mümkün olduğu qədər, çalışın ki, hər kəsdə, Müqəddəs Kitab və dərs materialının bir nüsxəsi olsun.** Qrup üzvlərini ruhlandırın ki, dərs materialını evə aparıb, yenidən, öz ailə üzvləri və ya dostları ilə keçsinlər.

*Rəbb əzəmətlidir, bol həmdə layiqdir,*
*Onun əzəməti insan ağlına sığmaz.*
*Əməllərin nəsildən-nəslə qədər mədh ediləcək,*
*Qüdrətli işlərin bəyan ediləcək.*
*Əzəmətindən, izzətindən, şərəfindən deyiləcək,*
*Xariqəli işlərini dərindən düşünəcəyəm.*
*İnsanlar zəhmli işlərinin qüdrətindən danışacaq,*
*Sənin əzəmətini elan edəcəyəm.*
*Zəbur 145:3-6*

## Möcüzə nə deməkdir?

Möcüzə fövqəltəbii bir hadisə deməkdir. Allahın müdaxiləsi olmadan möcüzə baş verməz. Əslində, biz hər gün bir növ möcüzə ilə qarşılaşırıq, lakin çox vaxt bunun möcüzə olduğu ağlımıza gəlmir. Məsələn, bu dünyanın özü bir möcüzədir. Göylər və yer yalnız ona görə mövcuddur ki, başlanğıcda Allah əmr etdi və onlar meydana gəldi. Bəşəriyyət də ancaq ona görə mövcuddur ki, Allah yerin torpağından insanı düzəltdi və ona həyat nəfəsi üfürdü. Bu anlamda bütün həyatın bir möcüzə olduğunu deyə bilərik. Güman ki, siz yeni doğulmuş bir körpəyə baxanda Allahın yaratdığı bu məxluqun gözəlliyinə və mükəmməlliyinə heyran qalmısınız. Xırdaca barmaqlarına baxıb, “Bu bir möcüzədir!” deyə nida etmisiniz.

Həqiqət odur ki, Allah ətrafımızdakı dünyanı bizi Özünə tərəf çəkmək üçün yaratmışdır. Romalılara 1:20-də deyilir ki, Allahı tanımayan, Ona ibadət etməyən insanlar üzrsüzdür, çünki Allah yaratdıqları vasitəsilə Öz mövcudluğunu və böyüklüyünü bizə göstərmişdir.

*"Dünyanın yaradılışından bəri Allahın gözə görünməyən xüsusiyyətləri, yəni əbədi qüdrəti və ilahiliyi Onun yaratdıqları vasitəsilə üzə çıxır. Buna görə də onlar üzrsüzdür".*

Allahın bizə verdiyi və bizim üçün etdiyi hər şeyin məqsədi budur ki, biz Onun əzəmətinə nəzər salaq və bütün insanlara qarşı olan xeyirxahlığını və məhəbbətini dərk edək. Bu bizi Allaha ehtiramla səcdə etməyə yönəltməlidir.

Lakin bundan əlavə, Allah tarix boyunca dəfələrlə bu dünyada qoyduğu təbii qanunlara zidd davranaraq insanların həyatına qeyri-adi şəkildə müdaxilə etmişdir. O Allahdır, hər şey üzərində hakimdir, buna görə də Öz gözəl məqsədlərini yerinə yetirmək üçün istədiyi hər şeyi edə bilər. Luka 1-ci fəsildə mələk, Məryəmə bakirə olmasına baxmayaraq hamilə qalıb Xilaskarı dünyaya gətirəcəyini bəyan etdikdə,

"Allah üçün mümkün olmayan şey yoxdur" dedi (Luka 1:37). Belə şeyləri biz adətən möcüzə sayırıq. Bu möcüzələr bizə çox vaxt şəxsi təcrübəmizdə Allahın xeyirxahlığını və böyük qüdrətini göstərir.

Biz Əhdi-Ətiq boyu çoxlu möcüzələr haqqında oxuyuruq: uşaq dünyaya gətirmək yaşları çoxdan keçmiş İbrahim və arvadı Saranın oğlunun doğulması (Yaradılış 18:10-12 və 21:1-7); insanların quru yerdən keçməsi üçün Qırmızı dənizin iki yerə ayrılması (Çıxış 14:21-22); odun göylərdən düşüb qurbanı, qurbangahın daşlarını və onun ətrafındakı xəndəkdə olan suyu udması (1 Padşahlar 18:20-39); cüzamlının dərhal sağalması (2 Padşahlar 5:1-14); üç gəncin qızmış sobaya atılması və hətta his iyi vermədən belə oradan çıxması (Daniel 3); bir adamın mələk tərəfindən ac şirlərdən qorunması (Daniel 6:16-24) və bir çox başqa əhvalatlar.

Əhdi-Cədiddə dörd Müjdə və Həvarilərin İşləri kitabı möcüzələrlə doludur. Çox sayda insanların şəfa tapması, ölülərin diriltdilməsi, yeməyin çoxalması və İsanın fövqəltəbii şəkildə suyun üzərində yeriməsi və qasırğanı sakitləşdirməsi buna misaldır. Həvarilərin İşləri kitabında həvarilərin və erkən imanlılar cəmiyyətində digər imanlıların İsanın adı ilə çoxlu qüdrətli möcüzələr həyata keçirdikləri nəql olunur.

Arzumuz budur ki, siz Dörd Müjdədən (və biri Həvarilərin İşlərindən) İsa Məsihin möcüzələrini araşdırarkən, Onu yeni bir gözlə görəsiniz. Həvari Paul ilə birlikdə dua edirik ki,

> *"Məsih iman vasitəsilə ürəklərinizdə yaşasın. Siz də məhəbbətdə kök salıb təməl qoyasınız, belə ki bütün müqəddəslərlə birlikdə Məsihin məhəbbətinin nə qədər geniş, uzun, uca və dərin olduğunu başa düşməyə, hər dərrakədən üstün olan bu məhəbbəti dərk etməyə gücünüz çatsın. Beləliklə, siz Allahın bütövlüyündə bütöv olasınız". (Efeslilərə 3:17-19)*

## 1. Toy ziyafətində baş verən möcüzə

**Giriş müzakirəsi:** Siz nə vaxtsa elə bir vəziyyətə düşmüsünüzmü ki, qonaqlarınız gələn vaxt evinizdə yemək, içki, yaxud digər vacib şeylər bitmiş olsun? Özünüzü necə hiss etmişdiniz? Nə etmişdiniz?

Yəhyanın Müjdəsi 1-ci fəsildə İsanın bu dərsdə nəzərdən keçirəcəyimiz hadisələrdən bir həftə əvvəl nə etdiyi barədə oxuya bilərsiniz. İsa, Vəftizçi Yəhya tərəfindən vəftiz edilmiş və ilk şagirdlərini çağırmışdı. Bu dərsdə İsanın göstərdiyi ilk möcüzəyə baxacağıq. Bu möcüzə şəfa, cin qovma yaxud acların yedizdirilməsi deyildi. İsanın ilk möcüzəsini öyrənəndə təəccüblənə bilərsiniz!

**Yəhya 2:1-11-i oxuyun.**

1. 1-2-ci ayələri təkrar oxuyun. İsa harada idi və yanında kim var idi?
2. 3-cü ayədə hansı problem yarandı?

   İsanın anası nə etdi?
3. 4-cü ayəyə əsasən, İsa ona necə cavab verdi?

   Sizcə O, bununla nəyi nəzərdə tuturdu?

**Qeyd:** Bəzi tərcümələrdə İsanın anasına dediyi sözlər kobud səslənir. Lakin Əhdi-Cədidin yazıldığı dildə İsanın ehtiramla cavab verdiyi anlaşılır. İsa məsələnin həll edilməsinə yardım etməkdən imtina etmədi, sadəcə olaraq vaxtının hələ çatmadığını söylədi. Ehtimal ki, Məsih olduğunu açıq şəkildə söyləməyinin hələ vaxtı çatmadığını nəzərdə tuturdu.

4. 5-ci ayədə Məryəmin xidmət edənlərə nə dediyini oxuyun. Sizcə, Məryəm İsadan nə gözləyirdi? (Unutmayın ki, bu, İsanın göstərdiyi ilk möcüzə idi, buna görə Məryəm hələ Onun heç bir fövqəltəbii işini görməmişdi.)
5. 6-8-ci ayələri oxuyun. Orada olan su küplərini təsvir edin. (Bu küplər ümumilikdə 420-630 litr arası su tuta bilərdi. Bu, çox böyük miqdardır!)

   İsa xidmətçilərə nə göstəriş verdi? (7-ci ayə)

6. Siz o xidmətçilərin biri olsaydınız, həmin su küplərini doldurarkən nə düşünərdiniz? Toyağasına "su" apararkən nə düşünərdiniz?

**Qeyd:** Məryəm, İsanın doğulması zamanı baş verən qeyri-adi hadisələrdən Onun adi bir insan olmadığını anlamışdı. Mələk ona xəbər vermişdi ki, o hələ bakirə ikən hamilə qalacaq. Bundan əlavə, nişanlısı Yusifin qeyri-adi röyaları olmuşdu və Yusifə də, çobanlara da mələklər görünmüşdülər. Şərqdən gələn padşahlar İsaya hədiyyələr gətirmişdilər. Lakin bu toydakı xidmətçilər İsanı sadəcə bir insan kimi, bəlkə də, ağalarının ailə dostu kimi tanıyırdılar. Yəqin ki, onlar o axşam qeyri-adi bir şey gözləmirdilər.

7. 9-10-cu ayələrə əsasən, sonra nə baş verdi?

   Şəraba dönmüş suyun hansı xüsusiyyəti toyağasını təəccübləndirdi? (10-cu ayə)

   Əgər siz o xidmətçilərin yerində olsaydınız, sizcə, nə düşünərdiniz?

8. İsa suyu şəraba döndərəndə o şərabın iki maraqlı xüsusiyyəti var idi: birincisi, miqdarı az deyildi, lap çox idi; ikincisi, bu, adi şərab deyil, şərabın əlası idi! Bu iki xüsusiyyətdən Allahın və Oğlunun xarakteri barədə nə öyrənirsiniz?

9. 11-ci ayəni oxuyun. Bu ayədə deyilir ki, bu möcüzə bir “əlamət” idi və İsa bu əlamət vasitəsilə Öz İzzətini göstərdi. Bu möcüzə nəyin əlaməti idi? İsa Özü barədə nəyi üzə çıxardı?

10. 1-11-ci ayələri bir daha gözdən keçirin. Göründüyü kimi, toyda olanların əksəriyyəti, o cümlədən bəy və toyağası da İsanın nə etdiyindən xəbərsiz idi. Bundan xəbəri olan insanlar kimlər idi?

11. İsanın şagirdləri möcüzəni görəndə, bu onlara necə təsir etdi? (11-ci ayə)

    Sizcə, onların yerində olsaydınız, bu möcüzə sizə necə təsir edəcəkdi?

**Tətbiq və dua:** Təsəvvür edin ki, siz İsanın toyda suyu şəraba döndərdiyini görən şagirdlərindən birisiniz. Məsihin yolunu hazırlayan Vəftizçi Yəhyanın təbliğini eşitmisiniz və Yəhyanın İsa barədə dediklərini ya şəxsən özünüz, ya da başqalarından eşitmisiniz (Yəhya

1:29-34). Vəftizçi Yəhyanın sözlərinə görə siz bu yeni müəllimin ardınca getmək qərarına gəlmisiniz, lakin Onun haqqında hələ də çox şey bilmirsiniz. Bu möcüzəni görəndən sonra ağlınızdan hansı fikirlər keçmiş olardı?

Bunu düşünün: Əhdi-Ətiqdə şərab dəfələrlə sevinc və şadlıq rəmzi olur. İsanın ilk möcüzəsi bir şadlıqda, toy ziyafətində baş verdi və şərab o ziyafətin vacib hissəsi idi. Birdən məlum oldu ki, şərabları qalmamışdı. Onda İsa, anasının xahişi ilə müdaxilə edərək yeni şərab təmin etdi, özü də az miqdarda və orta keyfiyyətdə deyil — bol miqdarda və əla keyfiyyətdə! İsanın yer üzünə gətirdiyi yeni padşahlıq barədə bundan nə öyrənirsiniz?

Aşağıdakı ayələri oxuyun və düşünün:

- *"Bu sözləri sizə söylədim ki, sevincim sizdə olsun və sevinciniz kamil olsun". (Yəhya 15:11. Burada İsa şagirdlərinə Onda qalmalarını öyrədir.)*
- *"İndiyə qədər Mənim adımla heç nə diləmədiniz. Diləyin, alacaqsınız, ta ki sevinciniz kamil olsun". (Yəhya 16:24)*

Siz İsanın bu möcüzə vasitəsilə Özü haqqında nə göstərdiyini düşünərkən, bu şəxsən sizə necə təsir edir?

Birlikdə dua edin. Allahın Özünə görə şükür edin və qəm-qüssəyə batmış dünyamıza gətirdiyi sevincə görə Ona həmd edin.

## 2. Görmədən iman etmənin nəticəsi daha böyük imandır

(Bu hekayə, 6-cı dərsdə olan hekayəyə [Matta 8:5-13 və Luka 7:1-10] oxşar olsa da, fərqli bir əhvalatdır.)

**Giriş müzakirəsi:** Öz həyatında və ya yaxınlarının həyatında gördüyü bir möcüzəyə görə İsaya iman etmiş bir adam tanıyırsınızmı? Baş vermiş möcüzəni danışın.

**Yəhya 4:43-45-i oxuyun.**

1. 43-45-ci ayələri təkrar oxuyun. İsa Pasxa bayramı üçün getdiyi Yerusəlimdən Qalileyaya yenicə qayıtmışdır. Lakin O, Öz doğma şəhərinə yox, başqa şəhərə gəlmişdir. 44-cü ayədə İsa ümumiyyətlə peyğəmbərlər haqqında nə dedi?

   45-ci ayədə deyilir ki, bu insanlar Onu qəbul etdi. Bu ayəyə əsasən, onlar nə üçün Onu qəbul etdilər?

**Yəhya 4:46-54 oxuyun.**

2. 46-47-ci ayələri təkrar oxuyun. İsanın yanına kim gəldi? O, İsadan nə xahiş etdi?

**Qeyd:** Bu kişi, yəqin ki, oranın hakimi olan Hirod Antipanın qulluğunda mühüm vəzifə tuturdu. O, böyük ehtimalla, qeyri-yəhudi idi, lakin yəhudi olması da istisna edilmir. O, yəqin ki, İsanın möcüzələrini görmüş, ya da ən azından xəbər tutmuşdu, çünki İsanın yanına gəlməkdən ötəri Kefernahumdan Qanaya iki gün yol gəlmişdi.

3. 48-ci ayədə İsa nə deyir? (İsa burada cəm halında “siz” dediyi üçün, elə görünür ki, sözü təkcə o məmura deyil, ümumilikdə Qalileya sakinlərinin hamısına aiddir.)

   45-cü ayəni təkrar nəzərdən keçirin. Bu iki ayədən (45 və 48) Qalileya sakinlərinin İsaya qarşı münasibətləri barədə nə öyrənirik?

**Qeyd:** Bu insanlar İsanın möcüzələrinin şahidi olduqları üçün Onun möcüzələr yaratmağa qadir olduğunu bilirlər. Onlar gördüklərinə inanırlar. İndi isə İsa bu məmurdan çətin bir şey tələb edir: hələ görmədiyinə — oğlunun sağaldığına, uzaq məsafədən yalnız İsanın dediyi sözlə şəfa tapdığına inanmağa çağırır. Beləcə, İsa onun iman səviyyəsini yüksəltmək istəyir.

4. 49-50-ci ayələri oxuyun. Məmur İsadan ikinci dəfə nə istəyir? O, İsanın nə edəcəyinə ümid edir?

   Siz məmurun yalvarışındakı çarəsizliyi görürsünüzmü? (Unutmayın ki, oğlu ölüm ayağındadır!)

5. 50-ci ayəyə əsasən, İsa bu adama nə dedi? İsa onun evinə gəldimi?

6. 48-ci ayədə İsanın nə dediyini təkrar nəzərdən keçirin. İsa məmura evinə getməsini, oğlunun yaşayacağını deyəndə, məmur möcüzənin baş verdiyinə dair bir sübut gördümü?

   İsanın ona dediyi sözlər, onun imanını necə sınayırdı? (50-ci ayə)

   Məmur, İsanın sözlərinə iman etdiyini necə göstərdi? Bu adamın imanının, Qalileyanın sakinlərinin (45 və 48-ci ayələrdə aşkar olan) imansızlıqlarından necə fərqləndiyini barədə düşünün.

7. 51-53-cü ayələri oxuyun. Məmur evinə qayıdanda, qulları ona nə xəbər gətirdilər?

   Məmur, oğlunun məhz İsanın sözləri ilə şəfa tapdığını necə anladı?

   İsanın o sözü deməsindən məmurun oğlunun sağalması xəbərini eşitməsinədək nə qədər vaxt keçdi? (52-ci ayə)

   Bu adam haqqında düşünün: o, evinə qayıdanda saatlarla yol getdi və yalnız İsanın dediyi sözə inandığı üçün arxayın idi, oğlunun yaxşılaşmasına dair heç bir məlumatı yox idi. Düşünün: əgər siz bu adamın yerində olsaydınız, saatlarla yol gedərkən ağlınızdan nələr keçərdi?

8. Məmur İsanın böyük bir möcüzə etdiyini anlayanda nə etdi?

   Bəs bütün ev əhli nə etdi? (Onun "ev əhli" dedikdə, çox güman ki, ailə üzvləri, qohumları və hətta evindəki qullar nəzərdə tutulur.)

**Tətbiq və dua:** İsrail torpağının demək olar ki, hər guşəsində bir çox insanlar İsanın inanılmaz möcüzələr yaratdığını gördülər. Ancaq İsanın həqiqətən Kim olduğunu çoxları görə bilmədi. Bu adamın möcüzə görməmişdən əvvəl İsaya inanması, gözlərini və ürəyini açdı, belə ki, o, Allahın Məsih vasitəsilə aşkar olunan izzətini gördü. Oğlunun sağaldığını görə bilmədiyi halda, buna inandı, sonra da şəfa verənin

Özünə — bircə sözü ilə uzaq məsafədən şəfa verməyə qadir olan İsaya iman etdi.

Aşağıdakı suallar haqqında düşünün:

- Siz iman etmək üçün sübut istəyirsiniz, yoxsa imanınız yetkindir və sübut görmədən İsanın dediyi sözlərə, sizi sevdiyinə inanırsınız?
- Siz sadəcə İsanın verdiyi xeyir-duaları — sizə şəfa verməsini, maddi ehtiyaclarınızı ödəməsini, problemlərinizi həll etməsini istəyirsiniz, yoxsa Onu Rəbbiniz və Xilaskarınız kimi tanıyıb Ona pərəstiş etmək istəyirsiniz?

Allahın Kəlamı üzərində düşündükcə və sizə göstərdiyi hər şeydə qətiyyətlə Allaha itaət etdikcə, Ona olan imanınızın böyüdüyünü görəcəksiniz. Onu Rəbbiniz və Xilaskarınız olaraq tanıyıb Ona pərəstiş edəcəksiniz. İndi Allaha dua edin ki, Onu daha çox tanıyıb Ona inanmaqda sizə kömək etsin.

## 3. İsanın təlimi və əməlləri Onun səlahiyyətini göstərir

(Bu hekayə həmçinin Luka 4:31-41-də yer alır.)

**Giriş müzakirəsi:** Siz İsanın adi bir peyğəmbər və ya müəllim olmadığını nə vaxt dərk etməyə başladınız? İsanın kim olduğundan hələ əmin deyilsinizsə, Allahın Kəlamını və ya şəhadətləri oxuyanda, orada Onun qüdrətini və səlahiyyətini görməyinizə yardım edən şeylər olubmu?

**Mark 1:21-34-ü oxuyun.**

1. 21-22-ci ayələri təkrar oxuyun. İsa Şənbə günü haraya getdi və nə etdi?

   İnsanlar Onun təliminə niyə təəccüblənirdilər?

**Qeyd:** Həm İsa, həm də digər yəhudi müəllimlər Əhdi-Ətiqdən, yəni Qanundan (Tövratdan), Məzmurlardan (Zəburdan) və Peyğəmbərlərin yazılarından xalqa öyrədərdilər. Digər yəhudi müəllimlər Allahın Kəlamı haqqında ağsaqqallarından öyrəndikləri fikirləri öyrədərdilər. İsanın təliminin onların təlimindən necə fərqləndiyini qısaca müzakirə edin.

2. 23-24-cü ayələri oxuyun. İsa təlim öyrədərkən nə baş verdi?

   O insanın içində qışqıran cin nə dedi?

   Biz o insanın özünün deyil, cinin danışdığını haradan bilirik?

3. 25-ci ayədə İsa natəmiz ruha nə dedi? İsanın əmrindəki səlahiyyətə fikir verin.

   Ondan sonra, 26-cı ayədə nə baş verdi?

4. 27-28-ci ayələri oxuyun. İnsanlar şahidi olduqları bu möcüzəyə necə reaksiya verdilər? İsanın təlimindəki səlahiyyətini Öz əməlləri ilə necə təsdiqlədiyini müzakirə edin.

5. 29-31-ci ayələri oxuyun. Ondan sonra İsa və dörd şagird haraya getdilər? Orada nə baş verdi?

6. İsanın möcüzələrinin xəbəri o bölgədə yayıldı. 32-34-cü ayələri oxuyun. Axşam düşəndə nə baş verdi?

   34-cü ayəyə əsasən, İsa ətrafındakı möhtac insanlar üçün nə etdi?

7. 24-ci ayədə cinin qışqırdığı sözləri təkrar nəzərdən keçirin. 25-ci ayədə İsa cinə susmağı əmr edir. 34-cü ayəyə əsasən, İsa nə üçün cinin danışmasına imkan vermədi?

   Cinlərin İsa haqqında bildikləri, amma insanların hələ bilmədikləri həqiqət nə idi?

**Qeyd:** İsanın yer üzündəki xidməti barədə oxuyanda görürük ki, O həmişə Atasının Onun üçün təyin etdiyi plana əməl edirdi. İsa, insanların maddi ehtiyaclarının qayğısına qalsa da, bilirdi ki, Allahın planının ən vacib hissəsi, Onun insanların günahı üçün əzab çəkərək çarmıxda ölməkdir. Amma insanlar elə bilirdilər ki, Məsih siyasi bir rəhbər olaraq gələcək, onları Roma hakimiyyətindən azad edib sülh və firavanlıq gətirəcək. Onların istədikləri bu idi. Onlar Məsihi əzab çəkən qul kimi qəbul etməyə hazır deyildilər. Ona görə də, İsanın kim olduğunu onlara aşkar etməsinin vaxtı hələ çatmamışdı. Cinlər isə Məsihi tanıyır və hakimiyyətlərinin tezliklə devriləcəyini anlayırdılar.

**Tətbiq və dua:** Bütün ayələri təkrar nəzərdən keçirin (21-34-ci ayələr). İsanın günah içində boğulan bu dünyaya Allahın Padşahlığının qüdrətini hansı yollarla gətirdiyini müzakirə edin (22, 25-26, 31, 32 və 34-cü ayələr).

Bu sizə necə ümid verir?

Birinci əsrdə olduğu kimi, bu gün də imanlıların xəstə və cinə tutulmuş adamlar üçün imanla dua etməsi ilə azad olmalarında İsanın təliminin qüdrəti aşkar olur. Bir imanlının duasına verilən cavabda İsanın qüdrətini görən və buna görə İsanın səlahiyyətinə inanan imansızları görmüsünüzmü?

İsanın qüdrətinin və səlahiyyətinin sizin həyatınızda və ya qohum-əqrəbanızın, dost-tanışınızın həyatında aşkar olmasını nə qədər çox istəyirsiniz? Xalqınızın həyatında İsanın qüdrətinin və səlahiyyətinin necə aşkar olmasını arzu edirsiniz? İndi bunlar üçün dua edin.

Eyni əhvalatın Luka tərəfindən nəql olunan versiyasında qeyd olunub ki, İsa insanların *"hər birinin üzərinə əllərini qoyub onlara şəfa verdi"* (Luka 4:40). İsa, ehtiyacı olan hər bir kəsə şəxsən vaxt ayırıb əli ilə toxundu. Hər bir kəsi, o cümlədən sizi də gördüyünə və qayğınıza qaldığına görə İsaya şükür edin!

**Bir çox insanların şəfa tapdıqları təsvir olunan digər ayələr:**

Matta 4:23-25

Matta 8:16-17

Matta 12:15

Matta 14:34-36

Mark 3:7-12

Mark 6:53-56

## 4. Möcüzəli balıq ovu

(Bu möcüzə iki dəfə baş verdi. Bu dərsdə birinci möcüzəyə baxacağıq. Luka tərəfindən qələmə alınmış bu əhvalat İsanın yer üzündə xidmətə yeni başladığı vaxtlarda baş vermişdi. Yəhya tərəfindən qeyd olunmuş, İsanın dirilməsindən sonra və göylərə qaldırılmasından qısa müddət əvvəl baş vermiş ikinci əhvalatı isə 31-ci dərsdə nəzərdən keçirəcəyik.)

**Giriş müzakirəsi:** Əgər siz bir şeyə dəfələrlə cəhd edib uğursuz olmusunuzsa, kimsə sizə yenidən cəhd etməyi və uğur qazanacağınızı söyləyirsə, buna inanmaq nə qədər asan olar?

**Luka 5:1-11-i oxuyun.**

1. 1-2-ci ayələri təkrar oxuyun. Səhnəni təsvir edin: Onlar harada idilər? Orada kimlər var idi? Nə baş verirdi?

2. 3-cü ayəyə əsasən, İsa nə etdi? (Şimon sonradan Peter adlandırılacaq idi.)

**Qeyd:** Əgər İsa qayıqda olsaydı, səsi sular üzərindən gələrdi və insanlar Onu daha yaxşı eşidə bilərdilər. Bir də Ona yaxınlaşmağa çalışan izdiham tərəfindən sıxışdırılmazdı.

3. 4-cü ayəni oxuyun. İsa Şimona nə dedi?

4. 5-ci ayədə Şimonun cavabını oxuyun. Şimon İsanın əmri haqqında nə düşündü?

   Bunu düşünün: Şimon, yəqin ki, uşaqlığından bəri balıqçılıqla məşğul olmuşdu; İsa isə dülgər idi (Mark 6:3). Şimonun yerində olsaydınız nə düşünərdiniz?

   Gecə balıqlar adətən suyun üzünə çıxardı, gündüz vaxtı isə dərinə, gölün dibinə doğru enərdi. Bu, Peterin İsanın sözlərinə inanıb əməl etməsinə necə təsir edə bilərdi?

5. 5-ci ayəni təkrar oxuyun. İsanın əmri heç bir məntiqə sığmasa belə Şimon nə üçün itaət etməyə razı oldu?

6. 6-7-ci ayələri oxuyun. Baş verənləri təsvir edin.

   Bu dəfə onlar nə qədər balıq tutdular?

   Əgər siz bu balıqçılarla bir qayıqda olsaydınız, nə düşünərdiniz?

7. 8-ci ayəyə əsasən, Şimon Peter nə baş verdiyini görəndə necə reaksiya verdi?

   Sizcə, o niyə belə reaksiya verdi?

8. Müqəddəs olan Allahın hüzuruna düşən başqa insanların reaksiyası da buna bənzəyirdi. Aşağıdakı ayələri oxuyun və hər bir kəsin necə reaksiya verdiyini müzakirə edin. Sizcə, onlar nə üçün məhz belə reaksiya verdilər?

   - Yeşaya 6:1-5
   - Vəhy 1:12-18
   - Yezekel 1:28

9. Luka 5:9-10-u oxuyun. İsa Şimona nə dedi? O, "adam tutacaqsan" dedikdə nəyi nəzərdə tuturdu?

**Qeyd:** Həvarilərin İşləri kitabının bir çox yerində İsanın Şimona dediyi bu sözün yerinə yetməsini görə bilərik. Bu yerlərdən biri, Həvarilərin İşləri 2:37-41-dir. Peterin Əllinci Gün bayramında etdiyi vəzdən sonra minlərlə insan İsanın Məsih olduğuna inanıb vəftiz olundu.

10. Bu möcüzənin və İsanın dediyi sözün təsiri ilə Peter, Yaqub və Yəhya nə etdilər? (Luka 5:11)

11. Bu möcüzəli balıq ovunun Peter və dostları üçün necə bir əlamət olduğunu, aşağıdakı həqiqətləri necə göstərdiyini müzakirə edin:

   - İsa adi bir insan deyil.
   - İsa təbiət üzərində Hakimdir.
   - İsa onların ehtiyaclarını ödəyə bilər.
   - İsanın ardınca getməyə, sözünə riayət etməyə dəyər.

**Tətbiq və dua:** İsa Peterə, *"Qayığı dərinliyə aparın və torlarınızı balıq tutmaq üçün suya salın"* deyəndə, bu Peterə mənasız göründü. Axı onlar bütün gecə bunu etmişdilər və bundan heç bir nəticə əldə etməmişdilər. Buna baxmayaraq, Peter İsanın sözünə riayət etdi və İsada zühur edən ilahi izzəti və qüdrəti gördü. Peter və digər balıqçılar hər şeyi geridə buraxıb İsanın ardınca getməyə hazır idilər. Kiçik bir işdə itaət edəndən sonra öz həyatlarını tamamən İsaya həsr edib daha böyük işlərdə itaət etməyə hazır idilər.

Bayaq 11-ci sualda müzakirə etdiyiniz İsaya dair həqiqətləri bir daha nəzərdən keçirin. Bu möcüzə haqqındakı dərs *sizə* İsanın şəxsiyyətinə dair həqiqətləri görməkdə necə kömək etmişdir?

İsa bütün şagirdlərini "insan tutmağa" çağırır. Peter, Yaqub və Yəhyanın etdiyi kimi (Luka 5:11), siz də bütün ürəyinizlə İsanın ardınca gedəcəksinizmi? Rəbbin qarşısında bir az sakitcə durun. Sizcə, İsa sizə Onun şagirdi olmaq və Onun yolunda "insan tutmaq" haqqında nə deyir? İsa haqqında xoş xəbəri kiminlə bölüşə bilərsiniz ki, onlar da Onun ardınca getsinlər? Hamınız birlikdə Allahın ürəklərinizə qoyduğu hər şey üçün dua edin.

## 5. İsanın toxunuşu mərhəmət ifadə edir

(Bu hekayə həmçinin Matta 8:1-4 və Luka 5:12-15-də yer alır.)

**Giriş müzakirəsi:** Siz xəstə yaxud əlil bir adam görəndə nə edirsiniz? Ona qarşı nə hiss edirsiniz?

**Mark 1:39-45-i oxuyun.**

1. 40-cı ayəni təkrar oxuyun. İsanın yanına gələn insanın nəyə ehtiyacı vardı?

**Qeyd:** Müqəddəs Kitabda "cüzam" bir sıra infeksion dəri xəstəliklərini ifadə edir. Bu xəstəliklər bəzən yoluxucu olurdu, bəzən olmazdı, amma bunlara yoluxan insanlar həmişə natəmiz sayılardı. Kahinlər, insanın həqiqətən cüzama yoluxub-yoluxmadığını ayırd etmək üçün xüsusi təlim alırdılar və cüzamı müəyyən etdikləri şəxsin şəhərdən kənarda yaşamağı tələb olunardı. Cüzamlı insanlar kiminsə yaxınlaşdığını görəndə "natəmiz, natəmiz!" deyə qışqırardılar ki, o insan onlardan uzaq dursun.

Qədim İsraildə cüzamlı olmağın nə olduğunu qısaca müzakirə edin.

2. 40-cı ayədə cüzamlı adamın İsanın necə yanına gəldiyini müzakirə edin. Sizcə bu adam İsanın yanına gələndə nə düşünür və nə hiss edirdi?

   Bu adam İsaya nə dedi? (40-cı ayə)

3. 39-cu ayəni təkrar oxuyun. Bu adam, yəqin ki, İsa və bəzi möcüzələri haqqında eşitmişdi. Adamın 40-cı ayədə dediyi sözlərdən, İsanın şəfa verməyə qadir olduğuna olan imanı barədə nə öyrənirsiniz?

4. Onun sözlərinə təkrar baxın. (40-cı ayə) Cüzamlı nədən əmin deyildi?

   Cəmiyyətdən qovulmuş bu adam, yəqin ki, İsanın da başqaları kimi ondan uzaqlaşacağını düşünürdü. Bəzən ağır vəziyyətdə ikən Allahın qayğınıza qalıb-qalmadığından şübhələnirsinizmi? Bunu bir neçə dəqiqə müzakirə edin.

5. 41-ci ayəni təkrar oxuyun. İndi bir daha oxuyun. Cəmiyyətin ən aşağı təbəqəsindən sayılan bu insana qarşı İsa nə hiss edirdi?

"Rəhm" sözü, İsanın günahdan və xəstəlikdən əzab çəkən insanlara qarşı duyduğu hissi təsvir etmək üçün tez-tez işlədilən sözdür. İsa cüzamlı adamı rədd etmədiyini göstərmək üçün nə etdi?

6. 41-ci ayədə İsa ona nə dedi? İsa o adama bu sözləri deyən kimi nə baş verdi? (42-ci ayə)

7. Yuxarıdakı 1-ci sualda olan qeydi bir daha oxuyun. Çox güman ki, bu adama illərlə heç kəs toxunmamışdı. Heç kim natəmiz olmaq istəməzdi. İsanın ona göstərdiyi münasibət – həm daxilən, ürəyində duyduğu hiss, həm də zahirən, əlini uzadıb ona toxunması – digər insanların ona qarşı olan münasibətindən necə fərqlənirdi?

   Sizcə, İsanın toxunuşu bu cüzamlı adamı tamamilə sağaldıb paklamaqdan savayı ona necə təsir etdi?

8. 43-44-cü ayələri oxuyun. İsa bu adama hansı ciddi tapşırıqları verdi?

**Qeyd:** Əhdi-Ətiqdəki Qanun tələb edirdi ki, cüzamdan sağalmış adam gedib özünü kahinə göstərsin. Kahinin onu pak elan etmək, şəhərə, insanlar arasında normal həyatına qayıtmağa icazə vermək səlahiyyəti vardı. Sonra o, qurban gətirməli idi. Bu da paklanma prosesinin mühüm bir hissəsi idi. (Bu barədə daha ətraflı öyrənmək istəyirsinizsə, Levililərə 13 və 14-cü fəsilləri oxuyun.)

Cüzamdan sağalmış və paklanmış adam həyəcandan nə etdi? (45-ci ayə) Bu İsa üçün hansı problemləri yaratdı?

9. Sizcə, nə üçün İsanın yanına hər yerdən insanlar gəlirdi?

**Tətbiq və dua:** İsa, yəqin ki, hamının uzaq durduğu bir kəsə diqqət yetirmək üçün dayandı. O adama rəhmi gəldi və hətta böyük ehtimalla çirkli, dərisini yara basmış olan o adama əli ilə toxundu. Bu hekayədən İsanın əzab çəkənlərə qarşı münasibəti barədə nə öyrənirsiniz?

İsa cüzamlıya əlini uzadıb toxunmağa hazır idisə, həyatınızda sağaldılmalı olan sahələrə toxunmağa hazır olduğuna inanırsınızmı?

İsa insanlara kütləvi şəkildə şəfa verməklə Ata Allahı tanıdır – həm Allahın fiziki ehtiyaclar üzərindəki qüdrətini, həm də ürəyində onların əzablarına acıdığını göstərirdi. Allah bu gün əziyyət çəkən insanların da qayğısına qalır və şagirdlərinin bu insanlara Onun məhəbbətini

göstərmələrini istəyir. Əzab çəkən, Allahın rəhmli toxunuşuna ehtiyacı olan insanlara toxunmaqla Allah yolunda xidmət etməyə can atırsınızmı?

Hamınız birlikdə bir neçə dəqiqə sükut saxlayın və Allahın ürəyinizə danışmasına imkan verin. O, bu hekayə vasitəsilə sizə nə deyir? İndi bir-biriniz üçün dua etməyə vaxt ayırın. İstər fiziki, istərsə ruhani və ya emosional cəhətdən sizə toxunub şəfa verməsini Allahdan diləyin. Bir də əziyyət çəkən insanlara toxunmaq üçün onlara qarşı ürəyinizi açmaqda sizə kömək etməsi üçün Allaha dua edin. Ondan diləyin ki, əlinizi uzadıb Onun məhəbbətini göstərə biləcəyiniz insanları yadınıza salsın.

## 6. İsanın sözünün səlahiyyəti vardır

(Bu hekayə həmçinin Luka 7:1-10-da yer alır. O, 2-ci dərsdə olan hekayəyə [Yəhya 4:43-54] oxşar olsa da, fərqli bir əhvalatdır.)

**Giriş müzakirəsi:** Allah bizə Öz Kəlamında nələri vəd edir? Onun vədlərini yerinə yetirəcəyinə inanırsınızmı? Sizcə, Allahın Öz Kəlamında dediyi sözlərə inanmağımız nə üçün vacibdir?

**Matta 8:5-13-ü oxuyun.**

1. 5-6-cı ayələri təkrar oxuyun. Kim İsadan yardım istədi?

   O xidmətçinin vəziyyəti necə idi?

**Qeyd:** Yüzbaşı, yüz nəfərdən ibarət olan hərbi hissənin başçısı idi. Yəhudilər adətən romalılardan uzaq durur və hətta onlara nifrət edirdilər, çünki romalılar bütpərəst idilər və onların üzərində hökmranlıq edirdilər. Bir yəhudi, qeyri-yəhudinin evinə daxil olsa, natəmiz sayılırdı. Yüzbaşının xidmətçisi böyük ehtimalla bir ailə üzvü kimi idi və yüzbaşı onu çox sevir və ona etibar edirdi.

2. İsa yüzbaşına necə cavab verdi? (7-ci ayə)

**Qeyd:** Eyni əhvalat Luka 7:1-10-da yer alır, lakin orada biz Mattanın daxil etmədiyi bəzi məlumatları görürük. 4-5-ci ayələrdə yəhudi ağsaqqallarının bu yüzbaşı haqqında İsaya söylədiklərindən onun imanına dair bəzi məlumatları görürük: *"Bu adam Sənin köməyinə layiqdir. Çünki o bizim millətimizi sevir və bizim üçün sinaqoq tikdirib".*

3. Matta 8:8-9-u oxuyun. Ondan sonra yüzbaşı İsaya nə dedi?

   8-ci ayəyə baxın. Yüzbaşı niyə İsadan evinə gəlməməsini xahiş etdi?

   Bu insanda hansı xüsusiyyəti görürsünüz?

4. 9-cu ayəyə əsasən yüzbaşı səlahiyyət haqqında hansı həqiqəti dərk etmişdi?

   Yüzbaşının səlahiyyət haqqında anlayışı, İsanın "bir söz" söyləməsi ilə möcüzənin baş verəcəyinə inanmağına necə yardım etdi?

Siz Allahın Kəlamının (söylədiyi sözün) səlahiyyətinə inanırsınızmı? Allahın Öz Kəlamında dediyini edəcəyinə inanırsınızmı?

5. 10-cu ayəni təkrar oxuyun. İsa nə üçün heyrət etdi?

   Unutmayın ki, bu insan yəhudi deyil, romalı idi və romalıların əksəriyyəti bütlərə ibadət edirdi. Bununla belə, İsa onu böyük imanına görə təriflədi. Görünür, bu yüzbaşı, İsanın Öz xalqının dərk etmədiyi bir həqiqəti dərk etmişdi. Sizcə, o nəyi dərk etmişdi?

6. 11-12-ci ayələri təkrar oxuyun. Nə üçün şərqdən və qərbdən gələnlər, yəni qeyri-yəhudi xalqlardan olanlar Səmavi Padşahlıqda olacaq, Padşahlığın əsl üzvləri (yəhudilər) isə qaranlıq çölə atılacaq? Bu hekayənin İsanın Ona imanla yaxınlaşan bütün insanları necə qəbul etməsinin əyani misalı olduğunu bir neçə dəqiqə müzakirə edin.

7. İbranilərə 11:6-da belə deyilir:

   *“İman olmadan Allahı razı salmaq qeyri-mümkündür. Çünki Allaha yaxınlaşan şəxs inanmalıdır ki, O var və Onu axtaranlara mükafat verir”.*

   Bu ayəyə əsasən, yüzbaşı Allahı necə razı saldı?

   İbranilərə 11:6 sizə Matta 8:11-12-də İsanın dediyini anlamaqda necə kömək edir?

8. 13-cü ayədə İsa yüzbaşına nə dedi? İsanın sözünün nəticəsi nə oldu?

**Tətbiq və dua:** Yaradılış 1:3-də yazılmışdır: *“Allah dedi: "Qoy işıq olsun". İşıq oldu”.*

Həmçinin Zəbur 33-də oxuyuruq:

> *“Göylər Rəbbin sözü ilə, səma cisimləri Onun hökmü ilə yarandı... Qoy bütün dünya Rəbdən qorxsun, bütün yer üzünün əhalisi Onu şərəfləndirsin. Çünki nə söylədi, mövcud oldu, nə əmr etdi, quruldu”.*

Allahın bircə söz söyləməsi ilə yaşadığımız heyrətamiz kainat yarandı. Allahın sözünün belə inanılmaz qüdrəti barədə düşünün. Əgər Onun sözü dünyanı heçdən yaratmağa qadirdirsə, Onun bir söz söyləməklə

edə bilməyəcəyi bir şey varmı? Bu məzmur deyir ki, biz bu həqiqəti dərk edəndə Allahdan “qorxmalı”, yəni ona hörmət və pərəstiş etməliyik.

Yüzbaşı, İsanın sözünün gücünə inanırdı. İsanın onun evinə gəlib xidmətçisinə toxunmasına ehtiyac olmadığına, söylədiyi bircə sözün onu sağaltmağa qadir olduğuna inanırdı.

Bu gün İsa fiziki olaraq yanımızda deyil, lakin bizimlə danışan Müqəddəs Ruh var və eləcə də Allahın yazılmış Kəlamı var. İndi hər kəs özünə aşağıdakı sualları versin və düşünsün:

- Müqəddəs Kitabda yazılanları nə qədər yaxşı bilirəm?
- Allahın Kəlamını oxumaq və üzərində düşünmək mənim həyatımda birinci yerdədirmi?
- Allahın Kəlamının mənim həyatımı və başqalarının həyatını dəyişdirməyə qadir olduğuna inanırammı?
- Allahın Kəlamını daha yaxşı bilmək və beləcə Onu daha çox tanıyıb Ona etibar etmək üçün həyatımda nələri dəyişdirməliyəm?

İndi hamınız birlikdə dua etməyə bir az vaxt ayırın. Bu möcüzəni araşdırarkən və tətbiq üçün verilən sualları düşünərkən Allahın sizə dedikləri barədə dua edin. Allahdan diləyin ki, sizə imanda böyüməkdə kömək etsin və Allahın sözünün qüdrətinə və səlahiyyətinə inanan yüzbaşının imanı kimi bir iman bəxş etsin.

## 7. İsanın günahı bağışlamaq səlahiyyəti vardır

(Bu hekayə həmçinin Matta 9:1-8 və Mark 2:1-12-də yer alır.)

**Giriş müzakirəsi:** Öz həyatınızda və ya tanıdığınız bir adamın həyatında gördüyünüz bir möcüzə (təbii olaraq baş verməsi qeyri-mümkün olan və inandığınıza görə Allahın fövqəltəbii hərəkəti nəticəsində baş verən bir hadisə) haqqında danışın. Yaxud Müqəddəs Kitabdan başqa bir kitabda oxuduğunuz bir möcüzəni danışın. Möcüzələr bizə Allahın səlahiyyətinə inanmaqda necə kömək edir?

**Luka 5:17-26-nı oxuyun.**

1. 17-18-ci ayələri təkrar oxuyun. İsa nə edirdi?

   İsanı dinləmək üçün kimlər gəlmişdi?

   Onların gəldikləri müxtəlif yerlərin adlarını sadalayın.

**Qeyd:** O qrup sadəcə olaraq İsanı dinləmək üçün yığılmış yerli kənd camaatı deyildi. Yerusəlimdən və Yəhudeyanın digər bölgələrindən gələnlər bəlkə də bir həftə yol gəlmişdilər. Fariseylər və Qanun müəllimləri, şübhəsiz ki, İsanın möcüzələri barədə eşidib Onu dinləmək üçün gəlmişdilər. Bu dini rəhbərlərin çoxu İsanın ardınca getmək marağında deyildilər. İsa insanları Özünə cəlb etdiyinə görə Ona paxıllıq edir, Onu nüfuzdan salmağın yollarını axtarırdılar. İsa onları dəfələrlə ikiüzlü adlandırmışdı.

2. 18-19-cu ayələri təkrar oxuyun. İsa təlim öyrədərkən nə baş verdiyini təsvir edin.

   Bu adamın dostlarının onu İsanın yanına gətirmək üçün çəkdikləri əziyyətlərə fikir verin. Onlar izdihamı görəndə ruhdan düşüb getmədilər. Bir qədər zəhmət çəksələr də, bir yol tapıb onu İsanın yanına gətirdilər. Sizcə, onun sağala biləcəyinə inanırdılarmı?

3. 20-ci ayədə İsa iflic olmuş dostlarını Onun yanına gətirən insanlarda (və bəlkə o adamın özündə də) nəyi gördü?

   20-ci ayədə İsa o adama nə dedi?

   Sizcə, O niyə bunu dedi? İsa o adama niyə dərhal şəfa vermədi?

4. 21-ci ayəni təkrar oxuyun. İlahiyyatçılar və fariseylər necə reaksiya verdilər? Onlar nə düşündülər?

Onlar niyə düşündülər ki, İsa küfr danışır?

5. 22-23-cü ayələri təkrar oxuyun. İsa bu dini rəhbərlərə hansı sualları verdi?

   Siz İsanın sualına necə cavab verərdiniz?

6. Ondan sonra, 24-25-ci ayələrdə nə baş verdiyini izah edin. Bu, İsanın günahları bağışlamaq səlahiyyəti olduğunu necə sübut etdi?

7. 26-cı ayəni oxuyun. Orada toplanan insanlar gördüklərinə necə reaksiya verdilər?

**Tətbiq və dua:** İflic olan adamın problemi – yeriyə bilməməsi – özünə və dostlarına məlum idi. İsa o adamı Allahdan ayıran günahının daha ciddi problem olduğunu bilirdi. İsa hər iki problemi həll etməyə qadir idi! O adama həm şəfa verməyə, həm də günahlarını bağışlamağa qüdrəti və səlahiyyəti var idi.

26-cı ayədə oradakı insanların reaksiyasına yenidən baxın və o anda orada olduğunuzu təsəvvür edin. Baş verənləri görəndən sonra İsa haqqında nə düşünərdiniz?

Gedib ailənizə və dostlarınıza nə deyərdiniz?

Xəstələrə şəfa vermək, amma daha önəmlisi, bizi günahlarımızdan təmizləmək üçün yer üzünə gəldiyinə görə hamınız birlikdə İsaya şükür edib izzətləndirməyə vaxt ayırın. Əgər siz hələ heç vaxt İsadan günahlarınızı bağışlamasını istəməmisinizsə, indi bunu edəcəksinizmi?

> *"Əgər günahsız olduğumuzu iddia ediriksə, özümüzü aldadırıq və daxilimizdə həqiqət yoxdur. Amma günahlarımızı etiraf ediriksə, Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək". (1 Yəhya 1:8-9)*

## İsa nə üçün bu qədər möcüzələr yaratdı?

Bu möcüzələrin məqsədi nə idi?

Tarix boyunca heç kəs İsa Məsih qədər çoxlu müxtəlif möcüzələr yaratmayıb. İsanın yer üzündə olarkən yaratdığı möcüzələrin əsas iki məqsədi vard idi.

1) Müjdələrin müəllifləri tez-tez qeyd edirlər ki, İsa itmiş və əziyyət içində olan insanlarla qarşılaşanda onlara rəhmi gəlirdi. Böyük izdihamlar Onun yanına gələndə O, xəstə olan hər kəsə şəfa verir və cinə tutulmuşların hamısını cinlərdən azad edirdi. İsa, çoxlarının Onun ardınca getməyəcəyini bilsə belə, əzab çəkənlərin ağrısını hiss edir, Allahın onları sevdiyini və əziyyətləri ilə maraqlandığını bilmələrini istəyirdi. (Məsələn, Mark 8:2, Matta 14:14, Luka 7:12-13-ə baxın)

2) İkinci və daha mühüm məqsədini Yəhya 20:30-31-də görə bilərsiniz.

> *"İsa şagirdlərinin gözü önündə bir çox başqa əlamətlər də göstərdi ki, bu kitabda yazılmayıb. Amma buradakılar onun üçün yazılıb ki, siz İsanın Məsih – Allahın Oğlu olduğuna inanasınız və iman edərək Onun adı ilə həyata malik olasınız".*

İsa ac və ya xəstə olan insanların qayğısına qalır, amma bilirdi ki, bu ehtiyaclar müvəqqətidir. Əslində onların ruhani həyata, əbədi həyata, Xilaskara ehtiyacı vardı. Nazaretli İsa, gəlişini gözlədikləri, onları günah və ölümdən azad edəcək olan Xilaskar, vəd olunmuş Məsih idi. **Möcüzələr— o zaman insanlara (və bu gün bunu oxuyan bizlərə) Allahın insan formasında onların arasında olduğu həqiqətinə işarə edən əlamətlər idi. Onlar Allahın qüdrətini, səlahiyyətini və izzətini təzahür etdirirdi.** Onlar həmçinin Səmavi Padşahlığın necə olacağını görmək üçün kiçik bir pəncərə idi. Bir gün İsa qayıdacaq, yeni göylər və yeni yer olacaq və artıq heç bir günah, əzab və ölüm olmayacaq. Ona inananlar əbədi olaraq bu Padşahlıqda yaşayacaqlar.

İsa Öz möcüzələri haqqında belə dedi:

> *"...Çünki Atanın Mənə tam yerinə yetirmək üçün tapşırdığı işlər – indi etdiyim bu işlər Mənim barəmdə şəhadət edir ki, Ata məni göndərib". (Yəhya 5:36, bu sözləri İsa, Özünü Allaha bərabər saydığı üçün Onu küfr etməkdə təqsirləndirən yəhudi rəhbərlərə demişdi.)*

Bəzi insanlar möcüzələri görüb Ona iman etdilər, digərləri isə gördülər, amma iman etmədilər, çünki ürəkləri qatı olmuşdu.

> *"Öz diyarına gəldi, amma soydaşları Onu qəbul etmədi. Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi". (Yəhya 1:11-12)*

## 8. İsa dini ənənə deyil, mərhəmət istəyir

(Bu hekayə həmçinin Mark 2:23-28 və 3:1-6-da yer alır.)

**Giriş müzakirəsi:** Sizcə, Allah nə üçün öz xalqına Şənbə qanununa, yəni həftənin istirahət gününə dair qanuna riayət etməsini əmr etdi?

**Matta 12:1-8-i oxuyun.**

1. 1-2-ci ayələrə nəzər salın. Şagirdlər nə edirdilər?

   Fariseylər buna necə reaksiya verdilər?

**Qeyd:** Allahın yəhudi xalqı üçün Musaya verdiyi qanuna əsasən, insanlar Şənbə günü taxıl yığmamalı idilər. Fariseylər, bir ovuc taxıl belə yığmağın qadağan olunması daxil olmaqla, bir çox adət-ənənələr əlavə etdilər. İndi onlar, adət-ənənələri bütünlüklə icra etdirməyi özlərinə böyük məsuliyyət sayırdılar.

2. 3-8-ci ayələrdə İsanın fariseylərə cavabını oxuyun.

**Qeyd:** Davudun böyük ehtiyac içində olarkən təqdis çörəklərini yeməsi qəbahət sayılmadığı kimi, kahinlər də öz öhdəliklərini yerinə yetirmək üçün Şənbə günü işlədiklərinə görə qınanmırlar. İsanın gətirdiyi bu iki misal onu göstərir ki, Allahın Şənbə qanunu dəyişməz deyildi və ehtiyac olanda pozula bilərdi. Vacib olan, Allaha ürəkdən ehtiram göstərmək idi.

   Sizcə, *“Mən qurban deyil, mərhəmət istəyirəm”* (7-ci ayə) sözünün mənası nədir?

3. İsanın “Şənbə gününün Sahibi” olması nə deməkdir? (8-ci ayə)

   Əgər İsa Şənbə gününün Sahibidirsə (8-ci ayə), sizcə, O, qatı qanunpərəst kimi adət-ənənələrə əməl edən, lakin Allahın mərhəmətli ürəyini anlamayan insanlara qarşı nə hiss edir?

4. Mark 2:27-də İsa, *“İnsan Şənbə günü üçün deyil, Şənbə günü insan üçün yaradılıb”* deyir. İsanın bunu dedikdə nəyi nəzərdə tutduğunu bir neçə dəqiqə müzakirə edin.

**Matta 12:9-14-ü oxuyun.**

5. Görünür, bu əhvalat, ondan əvvəl yazılmış olan əhvalatla eyni gündə baş vermişdi. 10-cu ayəyə əsasən, İsa sinaqoqda kimi gördü?

   Fariseylər İsaya nə sual verdilər?

   Nə üçün bu sualı verdilər? (10-cu ayə)

6. 11-12-ci ayələrdə İsanın nə cavab verdiyini oxuyun. Qoyun qiymətli idi. Baha qiymətə alınıb-satılırdı. Bu kasıb adamın isə fariseylər üçün heç dəyəri yox idi.

   Mark 3:5-də əlavə olunur ki, *"İsa ətrafındakılara qəzəblə baxdı və onların inadkar ürəkli olduqlarına görə kədərlən[di]..."* İsanın Matta 12:11-12-də verdiyi cavab onların ürəklərinin həqiqi vəziyyətini necə aşkar etdi?

7. Bundan sonra, 13-cü ayədə nə baş verdi?

   Fariseylər buna necə reaksiya verdilər? (14-cü ayə)

   Bir az bundan əvvəl İsa onların gözləri qarşısında heyrətamiz bir möcüzə etmişdi. Bəs onlar İsanı nə üçün məhv etmək istəyirdilər?

8. Bəzən imanlılar belə düşünür: "İnsanlar bir möcüzə görsəydilər, inanardılar". Bu hekayəyə əsasən, insanların İsaya inanması üçün möcüzə görməkdən savayı nə vacibdir? (Mark 3:5-də fariseylərin ürəklərinin vəziyyətinə təkrar nəzər yetirin.)

**Tətbiq və dua:** Matta 12:7-də İsa, *"Mən qurban deyil, mərhəmət istəyirəm"* deyir. Hamımız asanlıqla dini ənənələrimizə əməl edən, toplantılarda həmd oxuyub kəlam danışan, lakin bununla belə, Allahı və qonşularımızı həqiqətən sevməyən qatı qanunpərəst ola bilərik. İsa bu hərəkəti ilə fariseyləri qəzəbləndirəcəyini bilə-bilə, əli qurumuş adama necə qayğı göstərdi?

Qrupda Allah qarşısında sükut saxlayaraq bir neçə dəqiqə gözləyin. Sizi daha çox nə maraqlandırır: qaydalara əməl edib heç kimin xətrinə dəyməmək, yoxsa əzab çəkən insanlara yardım etmək? Sizin ürəyiniz başqalarına qarşı yumşaqdırmı (yanırmı)? Bəzi insanlar sizi anlamayıb haqqınızda pis danışsa belə onlara məhəbbət və xeyirxahlıq göstərməyə hazırsınızmı? Dua edin ki, insanların sizin haqqınızda nə düşünəcəklərinə görə narahat olmayasınız, onun əvəzinə ehtiyacı olanlara mərhəmət göstərib sevgi ilə qəbul edəsiniz. İsanın bu hekayədə göstərdiyi nümunəyə uyğun davranmaqda sizə yardım etməsi üçün Allaha dua edin. Ürəyinizin lazımi şəkildə dəyişməsi üçün Ondan sizi bağışlayıb daxilinizdə işləməsini diləyin.

## 9. İsa dul qadının oğlunu dirildir

**Giriş müzakirəsi:** Zəbur 103:13-14-ü oxuyun. Bu ayələrdə Allahın necə təsvir olunduğunu bir neçə dəqiqə müzakirə edin.

Bu möcüzəli əhvalatda İsanın kədərli və köməksiz bir dul qadına eyni xüsusiyyətləri göstərdiyini görəcəyik.

**Luka 7:11-17-ni oxuyun.**

1. 11-12-ci ayələri təkrar oxuyun. İsa harada idi və yanında kim var idi? (11-ci ayə)

   Onlar şəhər darvazasına yaxınlaşanda nə gördülər? (12-ci ayə)

   12-ci ayədən biz ana haqqında nə öyrənirik?

**Qeyd:** İsanın dövründə İsraildə qadınların dolanışığı, hüquqi və fiziki müdafiəsi, demək olar ki, tamamilə ailələrindəki kişilərə (ər, oğul, ata və s.) bağlı idi. Bu dul qadının oğlu öləndən sonra gələcəyinin necə ola biləcəyini müzakirə edin.

   12-ci ayəyə əsasən, İsa ilə birlikdə şəhərə gələn izdihamdan başqa bu möcüzəni kim gördü? Bu səhnəni necə təsəvvür etdiyinizi danışın.

2. 13-cü ayəni oxuyun. İsa bu qadını görəndə nə hiss etdi?

   Bu, İsanın əzab çəkənlərə qarşı münasibəti haqqında nə xəbər verir?

3. İsa bu qadına nə dedi?

   O gün orada olsaydınız, İsa möcüzə etməzdən əvvəl qadına dediyi sözləri eşidəndə nə düşünərdiniz?

   İsanın ona “Ağlama!” deməsi, kədərinə əhəmiyyət verməməsindən deyildi. Əksinə, İsa nə edəcəyini, bir azdan bu qadının kədərini böyük sevincə döndərəcəyini bilirdi!

4. İsa sonra nə etdi? (14-cü ayə)

**Qeyd:** İsanın bu hərəkəti çox təəccüblü idi. Əhdi-Ətiq Qanununa əsasən, üzərində mafəyə (cəsədin qoyulduğu xərəyə) toxunan insan natəmiz sayılardı. Amma İsa, Allahın günahsız və müqəddəs Oğlu olduğu üçün natəmiz edilə bilməzdi. İsanın yer üzündə xidməti boyu cəmiyyətin natəmiz hesab etdiyi insanlara toxunduğunu görürük. Amma

bu, İsaya təsir etmirdi, əksinə, Onun toxunuşu nəticəsində onlar təmiz olurdu.

5. 14-15-ci ayələri təkrar oxuyun. İsa nə dedi?

   İsanın dediyi sözün nəticəsində nə baş verdi?

   Yaradılış 1-ci fəsildə Allah söz deyəndə nə baş verdiyi barədə düşünün. (Məsələn, Yaradılış 1:3-ü oxuyun.) Siz Allahın Kəlamının qüdrətli olduğuna inanırsınızmı? Həm yaradılışda, həm də bu əhvalatda Allahın qüdrətini necə gördüyünüzü bir neçə dəqiqə müzakirə edin.

6. 16-17-ci ayələri oxuyun. Bunu görən insanların ilk reaksiyası necə oldu?

7. 16-cı ayəyə əsasən, onların ikinci reaksiyası necə oldu?

   Sizcə onları nə üçün qorxu bürüdü?

**Qeyd**: Bu insanların Allahın qüdrətinin təzahürünü gördüklərinə heç şübhə yox idi. Ölmüş bir insanı Allahdan başqa kim həyata qaytara bilər? Amma onlar Allahın əslində bəşər olaraq onların arasında olduğunu hələ dərk etməmişdilər. Yəqin ki, 1 Padşahlar 17:17-24-də İlyas peyğəmbərin dua edib dul qadının oğlunu həyata qaytarması əhvalatı onların yadına düşmüşdü. O hekayəni indi oxusanız, İlyasın cavan oğlanı həyata qaytarması və İsanın Naində dul qadının oğlunu diriltməsi arasında bəzi ciddi fərqləri görəcəksiniz.

   Bu fərqlərdən bəziləri hansılardır?

   Bunlar, Allahın peyğəmbəri və Allahın Özü arasındakı fərqi haqqında nəyi anlamağımıza yardım edir?

8. Luka 7:11-12-i təkrar nəzərdən keçirin. O gün Naində möcüzənin şahidi olan iki izdiham hansılar idi?

   16-17-ci ayələrə nəzər salın. İnsanlar necə reaksiya verdilər? Nə etdilər?

**Tətbiq və dua:** Təsəvvür edin ki, siz də o gün Naindəki o izdihamın içində idiniz və İsanın etdiyi bu heyrətamiz möcüzəni gördünüz. Bu, qarşınızda fiziki bədəndə dayanan o insanın əslində kim olduğunu anlamağınıza necə yardım edərdi?

Yəhya 14:6-nı oxuyun və bir dəqiqə üzərində düşünün. Bu möcüzə sizə İsanın həqiqətən "həyat" olduğunu anlamaqda necə kömək edərdi?

İbranilərə 13:8-də yazılıb ki, *"İsa Məsih dünən, bu gün və əbədi olaraq eynidir"*. İsanın bu çarəsiz dul qadına qarşı münasibəti barədə düşünün. Bu gün Onun sizə qarşı da bu cür mərhəmət hiss etdiyinə inanırsınızmı? Onun sizin dərdlərinizi və eləcə də tanışlarınızın və əzizlərinizin dərdlərini görüb bu dərdlərə şərik olduğuna inanırsınızmı?

İndi dua etməyə vaxt ayırın. Allahın Özünə görə şükür edin, Ona izzət verin. Bir də bütün ehtiyaclarınızı, yüklərinizi Öz üzərinə götürdüyünə görə Rəbbə həmd edin, çünki O sizin qayğınıza qalır.

## 10. İsanın təbiət üzərində səlahiyyəti var

(Bu hekayə həmçinin Matta 8:23-27 və Luka 8:22-25-də yer alır.)

**Giriş müzakirəsi:** Çox qorxduğunuz bir hadisəni yada salın. Nə etdiniz?

**Mark 4:35-41-i oxuyun.**

1. 35-37-ci ayələrə bir daha nəzər salın. Vəziyyəti təsvir edin: O qayıqda kim var idı? Nə baş verdi?

   Vəziyyət nə qədər ciddi idi?

2. 38-ci ayəni oxuyun. İsa nə edirdi? Sizcə tufanın ortasında O bunu necə edə bilərdi?

**Qeyd:** İsa böyük izdihamlara təlim öyrədir və çox adamlara şəfa verirdi. Şübhəsiz ki, o əldən düşmüşdü. Bəzi insanlar düşünür ki, İsa yer üzündə olanda tam insan deyildi. Halbuki biz burada görürük ki, İsanın digər insanlar kimi yorulan fiziki bədəni var idi.

3. 38-ci ayəni təkrar oxuyun. Şagirdlər İsaya nə dedilər?

   Sizcə, onlar nə düşünürdülər?

4. 39-cu ayəni oxuyun. İsa nə etdi? O danışanda nə baş verdi?

   Bu hadisə İsanın səlahiyyəti haqqında nə göstərir?

5. Yəhya 1:3-də İsa haqqında belə deyilir: “Hər şey Onun vasitəsilə yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı”.

   İsanın təbiət üzərində səlahiyyətini göstərməsinin şagirdlərinin Ona yaradan Allah kimi inanmasına necə kömək etdiyini müzakirə edin.

6. 40-cı ayəni təkrar oxuyun. Bu ayədə İsanın şagirdlərinə verdiyi iki sual haqqında bir neçə dəqiqə düşünüb müzakirə edin.

   Qorxu və Allaha iman bir-birinə necə ziddir?

7. Şagirdlər tufanın İsaya tabe olduğunu görəndə, buna necə reaksiya verdilər?

   Bir-birilərinə nə dedilər?

   Əvvəlcə şagirdlər tufana görə yaman qorxmuşdular. Gölə sükut çökəndən sonra İsanın etdiyi möcüzəyə görə vahiməyə düşdülər. Sizcə, onlar indi nə üçün bu qədər qorxu içində idilər?

**Qeyd:** Şagirdlərin gözləri yavaş-yavaş açılırdı. Onlar İsanın Kim olduğunu dərk etməyə başlayırdılar. Onlar İsa ilə birlikdə Qalileyada kəndbəkənd gəzdikcə Onun xəstəliklər və şər qüvvələr üzərində səlahiyyətini görmüşdülər. İndi isə onlar İsanın küləklərlə dalğalara səlahiyyət sahibi kimi əmr verdiyini və bunların İsaya dərhal itaət etdiyini gördülər! Özünüzü onların yerinə qoyun. Bu dramatik möcüzənin şahidi olduğunuzu təsəvvür edin. Şagirdlər İsa ilə səyahət etdikcə Onun adi bir peyğəmbər olmadığını anlamağa başladılar. Allahın qüdrətindən dəhşətə gəlib titrəməyə başladılar və bir-birilərinə "Bu kimdir?" deyə sual verdilər.

8. Şagirdlər qayıqda onlarla birlikdə Kimin oturduğunu bilsəydilər, tufandan qorxardılarmı? Cavabınızı izah edin.

**Tətbiq və dua:** Hal-hazırda həyatınızda baş verən "tufanlar" haqqında bölüşməyə bir neçə dəqiqə vaxt ayırın. İsanın çətin vaxtınızda sizinlə birlikdə olduğuna inanırsınızmı?

Zəbur 139:7-10-da belə deyilir:

> *"Hara gedim ki, Ruhun orada olmasın? Hara qaçım ki, hüzurunda olmayım?*
>
> *Əgər göylərə çıxsam, Sən oradasan, ölülər diyarında yatsam, Sən oradasan.*
>
> *Qanad alıb gündoğana uçsam belə, dənizi keçib günbatana qonsam belə,*
>
> *Sənin sağ əlin bələdçim olacaq, sağ əlin məni qoruyacaq".*

İsa belə dedi:

> *"...Göydə və yer üzündə bütün səlahiyyət Mənə verilmişdir. ... Budur, Mən dövrün sonuna qədər hər gün sizinləyəm". (Matta 28:18, 20*)

Bu ayələr sizi necə ruhlandırır və təsəlli verir?

Özünüz və bir-biriniz üçün dua etməyə bir neçə dəqiqə vaxt ayırın. Allahdan imanınızın zəif olduğu sahələrdə sizə kömək etməsini xahiş edin. Həyatınızda üzləşdiyiniz bütün çətinliklərdə sizinlə birlikdə olduğuna görə Ona şükür edin. Dərsdə iştirak edən hər kəsin həyatında baş verən "tufanlar" haqqında birlikdə dua edin.

*Sən ey qurtuluşumuzun Allahı,*
*Zəhmli işlərinlə ədalətini göstərirsən,*
*Bizə cavab verirsən.*
*Sən yer üzünün bütün ucqarlarının,*
*Ən uzaq dənizlərin belə, ümidisən.*
*Sən qüdrətə bürünmüsən,*
*Qüvvətinlə dağları möhkəmlətmisən.*
*Dənizlərin uğultusunu,*
*Dalğaların gurultusunu,*
*Ümmətlərin çaxnaşmasını*
*Yatıran Sənsən.*
*Dünyanın ucqarlarında yaşayanlar*
*Sənin əlamətlərinə mat qalırlar.*
*Gündoğandan günbatanadək bütün insanlar*
*Sənə mədh oxuyurlar.*
*Zəbur 65:5-8*

## 11. İsanın pis ruhlar üzərində səlahiyyəti vardır

(Bu hekayə həmçinin Matta 8:28-34 və Luka 8:26-39-da yer alır. Matta cinə tutulmuş iki kişidən danışır. Mark və Luka isə yalnız bir nəfərdən danışırlar, ancaq bu o demək deyil ki, şəfa tapan ikinci kişi yox idi. Bu hekayələr bir-birinə bənzəyir, buna görə də eyni əhvalat olduğu düşünülür.)

**Giriş müzakirəsi:** Sız nə vaxtsa çox pis bir yuxudan oyanmış və ya otaqda pis bir şeyin hüzurunu hiss etmisinizmi? Onda İsanın adını çağırmışdınızmı? Yaşadığınız və ya oxuduğunuz belə bir əhvalatı danışın.

**Mark 5:1-20-ni oxuyun.**

1. 1-2-ci ayələri təkrar oxuyun. İsa gölün o biri tayına, qeyri-yəhudilərin yaşadığı yerə getdi. O qayıqdan enəndə, Onunla kim qarşılaşdı?
2. 3-5-ci ayələri təkrar oxuyun. İsanı qarşılamaq üçün gələn adamı təsvir edin. Natəmiz ruhlar (cinlər) ona necə əzab verirdilər? Onun həyatını təsəvvürünüzə gətirin və müzakirə edin.
3. 2-4-cü ayələrə əsasən, onu kimsə sakit edə bilirdimi?

   Biz öz gücümüzlə şər qüvvələrin öhdəsindən gələ bilərikmi?
4. 6-8-ci ayələri oxuyun. O adam İsanı (uzaqdan) görəndə nə etdi? (6-ci ayə)

   İsaya nə dedi?

   **Bunu düşünün:** Bu adam yəhudi deyildi, ağlını itirmişdi, qəbiristanlıqda tək yaşayırdı. Şagirdləri belə, İsanın kim olduğuna əmin olmadıqları halda, bu adam İsanın kim olduğunu haradan bilərdi?
5. 7-ci ayəni təkrar nəzərdən keçirin. İsa ilə danışan kim idi: adamın özü, yoxsa içindəki cinlər?

   Sizcə, onlar nə üçün bu qədər qorxurdular?
6. Bəziləri elə bilirlər ki, İsa və Şeytan eyni qüdrətə malikdir. Həqiqətdə İsa Allahın Oğludur, Allahla birdir, Şeytan və cinləri isə günaha batmış mələklərdir. Allah onları yaratdı, amma onlar Allaha

qarşı üsyan qaldırdılar. Müqəddəs Yazılar bizə öyrədir ki, onların son mühakimə olunacağı gün yaxınlaşır. (Vəhy 20:10-u oxuyun.)

Sizcə, bu cinlər inanırdı ki, gücləri İsanın gücü ilə eynidir? Cavabınızı izah edin.

7. 9-13-cü ayələri təkrar oxuyun. 9-cu ayəyə əsasən, orada neçə cin var idi?

**Qeyd:** Roma legionu, 6000 əsgərdən ibarət bir qoşun idi. Cinlərin sayı, bəlkə də, o qədər olmayıb, amma yenə çox olduqları deyilir. Bu adamın içində ən azı 2000 donuzu dənizə atacaq qədər cin vardı!

7, 10 və 12-ci ayələri təkrar nəzərdən keçirin. Bu ayələrdə cinlər İsaya necə münasibət göstərirlər?

13-cü ayədə cinlərin və donuzların başına nə gəlir?

8. 14-17-ci ayələri oxuyun. 15-ci ayəyə təkrar baxın. Cinə tutulmuş adam necə dəyişdi? (Luka 8:27-də onun çoxdan paltar geyinmədiyi və evdə yaşamadığı bildirilir.)

9. Ətraf ərazilərdən insanlar gəlib o adamı görəndə necə reaksiya verdilər? (15-ci ayə)

Sizcə, onlar nə üçün qorxuya düşdülər?

Aşağıdakılar haqqında düşünün:

- İnsanlar bir adamın həyatında izah edə bilmədikləri qüdrəti görmüşdülər.
- Onların 2000 donuzu məhv olmuşdu! Yəqin ki, bir neçə ailənin yaxud bir çox ailələrin dolanışığı bu donuzlara bağlı idi.
- Ola bilsin, camaat bu yad adamın daha nələr edəcəyini düşünüb narahat olurdu.

Onlar nə baş verdiyini eşidəndə (16-cı ayə), İsaya nə dedilər? (17-ci ayə)

10. 18-20-ci ayələri oxuyun. Artıq təmizlənmiş, sağalmış olan bu adam nə etmək istəyirdi?

Bəs İsa ona nə etməsini buyurdu? Bu adam nə etdi?

11. Sübhəsiz ki, oralarda hamı onu tanıyırdı, əvvəlki halından xəbərdar idi. Bu adamın şəhadətini necə təsəvvür etdiyinizi öz sözlərinizlə qısaca danışın. O, qarşılaşdığı insanlara nə danışardı?

    İnsanlar onun şəhadətinə necə reaksiya verirdi? (20-ci ayə)

12. Bu hekayə sizə İsanın səlahiyyəti barədə nə öyrədir?

**Tətbiq və dua:** Bəziləri Şeytanın var olduğuna inanmırlar ya da onu gülməli bir cizgi filmi qəhrəmanı kimi təsəvvür edirlər. Bunların ikisi də yanlışdır. Müqəddəs Kitab öyrədir ki, Şeytan həqiqətən vardır. O, şərdir, Allaha nifrət edir və Allah insanları sevdiyinə görə bütün bəşəriyyəti məhv etmək istəyir. Şeytan qüvvətli, şər və hiyləgərdir. Lakin İsa çarmıxa çəkiləndə ölümü ilə Şeytanın və cinlərinin bütün qüvvətinə qalib gəldi. Buna görə, Şeytan bizim düşmənimiz olsa da, ondan əsla qorxmamalıyıq.

İsanın bu dünyada olan bütün şər qüvvələr üzərində tam səlahiyyəti olduğuna inanırsınızmı? Rəbbə şükür edin ki, O, günahımıza görə Şeytanın üzərimizdə olan səlahiyyətini çarmıxda çəkdiyi əzablar vasitəsilə onun əlindən almışdır. Hər hansı qorxularınız və ya inamsızlığınız barədə İsanın adı ilə, səlahiyyətlə dua edin. İsaya şükür edin ki, *O* hər şeyin Rəbbidir!

Süleymanın Məsəlləri 18:10-da yazılıb: “Rəbbin adı qüvvətli bir qaladır, saleh qaçıb ona pənah aparır”.

## 12. İsa ümidsizlərə ümid verir (1-ci hissə)

**Qeyd:** Bu dərsə 2 möcüzə daxildir. Buna görə də, asan olması üçün iki hissəyə bölünmüşdür.

(Bu hekayə həmçinin Matta 9:18-26 və Luka 8:40-56-da yer alır.)

**Giriş müzakirəsi:** Nə vaxtsa əlinizdən gələni etməyinizə baxmayaraq, ümidsiz vəziyyətdə qalmısınızsa, bu barədə danışın. Siz nə etdiniz? Baş verənləri danışın. Yaxud ümidsiz bir vəziyyətdə dua edib Allaha etibar edən bir adam haqqında eşitdiyiniz və ya oxuduğunuz bir hekayəni danışın.

Bu hekayədə iki ümidsiz vəziyyətdən söhbət gedir. Aşağıdakı ayələri oxuyaq və İsanın gəlib müdaxilə etməsi ilə hər şeyin necə dəyişdiyini görək.

**Mark 5:21-34-ü oxuyun.**

1. 21-24-cü ayələri təkrar oxuyun. Bu ayələrdə nəyin baş verdiyini təsvir edin. (Yairin vəziyyəti növbəti dərsdə nəzərdən keçiriləcək).
2. 25-29-cu ayələri oxuyun. 25-26-cı ayələrdə olan qadının ümidsiz vəziyyətini təsvir edin.

   27-ci ayəyə baxın. Sizcə, o, İsa haqqında nə eşitmişdi?

   O qadın nə etdi?
3. 28-ci ayədə onun fikirləri imanının olduğunu necə göstərir?

   29-cu ayədə nə baş verdi?
4. 30-32-ci ayələri oxuyun. İsa və şagirdləri bir-birini sıxışdıran insanların arasından keçirdilər. Yəqin ki, Ona və ya paltarına toxunanlar çox idi. İsa Ona kimin toxunduğunu niyə soruşdu? (30-cu ayə)

   Bu qadının toxunması ilə digər insanların toxunması arasında nə fərq vardı? (28-ci ayədə qadının özünə dediklərini bir daha oxuyun.)
5. 33-34-cü ayələri oxuyun. Qadın İsanın yanına necə gəldi? Sizcə, o, nə üçün qorxudan titrəyirdi?

   Qadın İsaya nə dedi?

6. Bu sualı müzakirə edin: Bu qadının nə etdiyini və necə şəfa aldığını camaat qarşısında etiraf etməsi nə üçün yaxşı olardı? (Qadının o gün insanlar qarşısında etdiyi şəhadətin təsirin və hekayəsinin əsrlər sonra sizi necə ruhlandırdığı barədə düşünün.)

   İsa ona nə dedi? (34-cü ayə)

7. Bunu düşünün: Bu qadının 12 il idi ki, qanaxma xəstəliyi vardı. Yəhudi qanununa əsasən, qadın bu xəstəliyinə görə natəmiz sayılardı və ona toxunan hər kəs onun kimi natəmiz sayılardı. Onun məbədə girməsinə icazə verilməzdi və o, bir çox cəhətdən qovulmuş hesab edilərdi. İsa 34-cü ayədə onu necə adlandırdı? Sizcə, qadın bunu eşidəndə nə hiss etdi?

8. 34-cü ayədə İsanın ona dediyi sözlərə baxın. O, həm fiziki, həm də ruhani şəfadan necə bəhs edir?

   Qadının İsa ilə görüşməsi nəticəsində həyatının necə dəyişdiyini müzakirə edin. Sizcə, qadın hansı hissləri keçirirdi?

9. Sizcə, qadının şəhadətini, sonra da İsanın ona dediyi sözləri eşidən insanlara bu necə təsir edirdi? Unutmayın ki, insanlar hələ İsanın kim olduğunu dərk etmirdilər.

**Tətbiq və dua:** Mark 5:25-28-i təkrar oxuyun. İsaya yaxınlaşıb paltarına toxunan bu qadının cəsarətinə fikir verin. Onun vəziyyətini təsəvvür edin. O, uzun illər boyu o həkimdən bu həkimə gedirdi, belə ki, pulu bitmişdi, vəziyyəti isə daha da pisləşmişdi. İnsani nöqteyi-nəzərdən qadın ümidsiz vəziyyətdədir. O, əldən düşüb. Sonra o, İsa haqqında eşidir və ürəyində iman yaranır. İsanın ətrafında böyük bir izdiham var, insanlar bir-birini sıxışdırırlar, buna baxmayaraq, qadın ruhdan düşmür. Onu sıxan izdihamın içindən zorla keçən, İsaya yaxınlaşıb əlini uzadan və paltarının kənarına toxunan bu qadının qətiyyətini təsəvvür edin. Qadın dərhal öz bədənində İsanın qüvvəsini hiss edir və şəfa tapdığını anlayır.

Siz özünüz və ya tanıdığınız bir adam indi ümidsiz görünən bir vəziyyətlə qarşılaşırsınızmı? Ola bilsin ki, siz də bu qadın kimi probleminizin həlli üçün çox pul xərcləmiş, əlindən gələni etməyə çalışmısınız.

Matta 7:7-11 belə deyilir:

> *“Diləyin, sizə veriləcək, axtarın, tapacaqsınız, qapını döyün və sizə açılacaq. Çünki hər diləyən alar, axtaran tapar, qapı döyənə açılar. Aranızdan kimsə oğlu ondan çörək diləsə, ona daş verərmi? Ya da balıq diləsə, ona ilan verərmi? Beləliklə, siz pis olduğunuz halda öz övladlarınıza yaxşı hədiyyələr verməyi bilirsinizsə, göylərdə olan Atanızın Ondan diləyənlərə gözəl hədiyyələr verəcəyi nə qədər yəqindir!”*

Bir neçə dəqiqə bu ayələr üzərində düşünün. Bu dərsdə haqqında danışılan qadın bu ayələrdə olan həqiqətlərə inandığını necə nümayiş etdirdi?

Bu ayələr sizə nə öyrədir?

Sizin Səmavi Atanız istəyir ki, siz Onun yanına gəlib ehtiyacınız olan hər şeyi Ondan alacağınıza əmin olasınız. Birlikdə dua edin ki, İsa sizə adı bilinməyən bu qadında olan cəsarəti və imanı bəxş etsin. İnsanların çoxluğundan qorxan bu qadın qorxusuna qalib gəlib onu sıxan izdihamın içindən zorla keçib İsanın yanına gəldiyi kimi, siz də İsadan şübhələrinizə və qorxularınıza qalib gəlmək üçün yardım istəyin. Sonra İsanın sizin və sevdiklərinizin qayğısına qaldığına etibar edərək, qrup olaraq hamınız birlikdə xahişlərinizi Ona ünvanlayın.

# 13. İsa ümidsizlərə ümid verir
# (2-ci hissə)

(Bu hekayə həmçinin Matta 9:18-26 və Luka 8:40-56-da yer alır.)

**Giriş müzakirəsi:** Nə üçün həyatımızda ümid bu qədər önəmlidir? Əgər tanıdığımız bir kəs ümidini itirsə, onu bərpa etməyə yardım etmək üçün nə edə bilərik?

Bu dərsin 1-ci hissəsində qanaxma xəstəliyi olan qadın haqqında düşünün. O, ümidsiz vəziyyətində necə ümid tapdı?

Bu dərs əvvəlki dərsdə müzakirə etdiyimiz digər möcüzə əhvalatı səbəbindən sözümüz yarımçıq qalan Yairin qızı əhvalatının davamı olacaq.

**Mark 5:21-24-ü oxuyun.**

1. 21-22-ci ayələrdə nə baş verdiyini təsvir edin.

   Yair kim idi?

2. Yair İsaya necə müraciət etdi? (22-ci ayə) O, İsaya nə dedi? (23-cü ayə)

   Sizcə o nə hiss edirdi? (Luka 8:42-də deyilir ki, bu onun yeganə qızı idi.)

   Sizcə onun imanı var idi? Cavabınızı izah edin.

3. İsa necə cavab verdi? (24-cü ayə)

   (Biz 25-34-cü ayələri ötürəcəyik, çünki bunlarda nəql olunan əhvalatı (qadının şəfası) əvvəlki dərsdə nəzərdən keçirmişik).

**İndi Mark 5:35-43-ü oxuyun.**

4. 35-ci ayədə Yairə hansı xəbər gəldi? Sizcə, o bu xəbəri eşidəndə nə hisslər keçirdi?

   Xəbər verənin sözlərinə diqqət yetirin. Sizcə, Yairin qızına dair onun bir ümidi vardımı?

5. Siz onun yerində olsaydınız və bir nəfər sizin qızınıza şəfa verməyə gedən İsanı ləngitsəydi, hansı hissləri keçirərdiniz? Bu sualı müzakirə etməyə bir neçə dəqiqə vaxt ayırın.

6. 36-cı ayədə İsa necə cavab verdi?

   Şübhəsiz ki, qızı haqqında gələn bu xəbərə görə Yairin ürəyi qorxu və kədərlə dolu idi. Sizcə, Yairin inanması asan olardı? İsanın onun qızına şəfa verəcəyinə imanı var idi, amma indi onun qızı ölüb! Bundan sonra o, nəyə inana bilərdi?

7. 37-40-cı ayələri oxuyun. Yairin evində olan səhnəni təsvir edin.

   Sizcə, Yairin evə gəlib, yas tutanların kədərli, ümidsiz fəryadlarını eşitməsi ona necə təsir etdi?

8. İsa yas tutanlara nə dedi? Onlar İsaya necə reaksiya verdilər?

   Yair İsanın dediklərini eşidəndə, böyük ehtimalla, nə düşündü?

9. 41-42-ci ayələrdə nə baş verdiyini təsvir edin. Otaqda olan insanlar baş verən hadisəyə necə reaksiya verdilər?

   Yairin ailəsinin ümidsiz vəziyyəti bir anda necə dəyişdi?

10. Bunu düşünün və müzakirə edin: sizcə, İsanın hətta ölüm üzərində səlahiyyəti varsa, həyatınızda qarşılaşdığınız hər hansı bir vəziyyət Onun üçün ümidsiz ola bilərmi?

**Tətbiq və dua:** İndi Yairə qayıdıb bu əhvalatda nələrdən keçdiyini düşünək. O, bir atadır. Canı-ciyəri olan qızı ölüm ayağındadır. Bircə arzusu budur ki, möcüzələr yaradan İsa evinə gəlib qızının üzərinə əlini qoysun ki, qızı sağalsın. O, yəqin ki, bir çoxlarının belə şəfa tapdığını eşitmişdi. Onun ümidi var. Sonra İsa yolda yubanır və qızının ölüm xəbəri gəlir. Ürəyi qana dönür. Artıq çox gecdir.

Amma İsa üçün heç vaxt çox gec deyil! O, Yairə ümidli sözlər deyir: *"Qorxma, yalnız iman et"*. Yair bu sözlərin mənasını anlamasa da, İsaya bel bağlayır. İsa ilə öz evinə getməyə davam edir. Evə çatanda, yas tutanların fəryadını eşidir və arvadını gözüyaşlı görür. Acı həqiqət budur: onun qızı ölmüşdür. Amma İsa onunla birlikdədir! Tezliklə o, heç təsəvvürünə belə gətirə bilməyəcəyi möcüzənin şahidi olur, Allahın izzətini görür. Qızı yenidən həyata qayıdır!

Romalılar 15:13-də belə deyilir:

> *"Qoy ümid mənbəyi olan Allah iman edən sizləri hər cür şadlıq və sülhlə doldursun ki, Müqəddəs Ruhun qüdrəti ilə ümidlə dolub-daşasınız".*

Bizim Allahımız ümid mənbəyidir. Elə bir vəziyyət yoxdur ki, Allahın bizim xeyrimizə və Öz izzəti üçün ona əlac tapmağa gücü çatmasın. Siz buna inanırsınızmı? İmanımız və Onun Kim olduğuna etibarımız bizi ümidsizliyə qərq olmağa qoymayacaq.

Ümidinizin harada yenilənməyə ehtiyacı var? Romalılara 15-ci fəsildən yuxarıda qeyd edilən ayəni bir daha oxuyun və bir neçə dəqiqə onun üzərində düşünün. Yairin qızını dirildən Allah, sizin də Allahınızdır?

Hamınız birlikdə bir neçə dəqiqə Allahın Özünə görə həmd və şükür edin ki, ürəkləriniz ümidlə yenilənsin. Həyatınızdakı ehtiyaclar və ya sizi ruhdan salan şeylər üçün dua edin.

Ümidsiz vəziyyətdə olan tanıdığınız bir adam varmı ki, onu ruhlandırmaq üçün bu hekayəni bölüşə biləsiniz?

## 14. İsanın qüdrəti və səlahiyyəti haradan gəlir? (1-ci hissə)

İsanın cinlər üzərində qüdrəti izdihamı heyrətə gətirir

**Qeyd:** Bu dərs iki hissəyə bölünmüşdür və onun üçün iki dəfə görüşmək məsləhət görülür.

**Giriş müzakirəsi:** Matta 28:18-də İsa, *"Göylərdə və yer üzündə bütün səlahiyyət Mənə verilmişdir"* - dedi. Bunun nə demək olduğunu bir neçə dəqiqə müzakirə edin. İsanın bir şagirdi kimi şəxsən sizin üçün bu sözlər nə məna kəsb edir?

Bu dərsdə iki oxşar möcüzəyə baxacağıq. Bu iki möcüzənin əlamət kimi İsanın kim olduğunu necə göstərdiyindən bəhs edəcəyik.

**Matta 9:32-34-ü oxuyun. Sonra Matta 12:22-30-u oxuyun.**

1. Hər iki əhvalatda insanın fiziki problemi nə idi? (Matta 9:32 və 12:22)

   Hər iki nəfərin fiziki probleminə səbəb olan ruhani problem nə idi?

2. İsa bu adamlar üçün nə etmişdi?

   Matta 9:33-də adama dərhal nə oldu?

   Matta 12:22-də adama nə oldu?

3. 9:33-də xalq necə reaksiya verdi? İnsanlar nə dedilər?

**Qeyd:** İsanın dövründə cinə tutulma adi hal idi. Ola bilsin ki, insanlar İsadan əvvəl başqalarının (bəzən sehrbazlıqla) cinləri qovduqlarını görmüşdülər. Hətta, güman ki, cinə tutulmuş insanın müvəqqəti sakitləşdiyini də görmüşdülər. Buna baxmayaraq, cin insanın içindən çıxmazdı, çünki Şeytan insanları əsarətdə saxlamaq istəyir. Onlar yalnız Allahın qüdrəti ilə cinlərdən azad ola bilərdilər.

Mat. 12:27-də (bu ayəyə bir azdan baxacağıq) görünür ki, fariseylərin bəzi şagirdləri (İsa onları fariseylərin "oğulları" adlandırırdı) də cinləri qovurdular. Amma Müqəddəs Yazılarda bu barədə heç nə yazılmayıb. Əhdi-Ətiqdə də kimsənin cinlərdən azad edilməsi qeyd olunmayıb.

Sizcə, İsanın cin qovmasına şahid olan insanlar bununla digər insanların cin qovmaq cəhdləri arasında necə fərq görürdülər? (Matta 9:33, Luka 4:36-a da baxın.)

4. Matta 12:23-ə baxın. Bu insanlar da heyrətə gəlmişdilər. Onlar nə sual verdilər?

   Yəhudilər "Davudun Oğlu" dedikdə Əhdi-Ətiqdə vəd olunan Məsihi, peyğəmbərlərin gələcəyindən xəbər verdikləri Xilaskarı nəzərdə tuturdular. Sizcə, onların indicə gördüklərinə əsasən, belə düşünmələri məntiqlidirmi?

5. Fariseylərin 9:34-də buna görə dediklərini oxuyun. Fariseylər İsanın qüdrətinə, səlahiyyətinə və ardınca gedən böyük izdihamlara görə Ona paxıllıq edirdilər. Onlar İsanın indicə etdiyi möcüzəni gözdən salmaq üçün nə dedilər?

6. Matta 12:24-də fariseylər ikinci möcüzəyə görə də eyni şeyi dedilər. (Baal-Zevul Şeytanın digər adı idi.) 12:25-26-da İsanın onlara verdiyi cavabı oxuyun.

   İsanın bu ayələrdə dediklərini öz sözlərinizlə izah edin. İsa onlara cinləri Şeytanın gücü ilə qovmasının mümkün olmadığını necə göstərdi?

7. 12:27-də İsa hansı sualı verdi? Əgər onlar insanlardakı Şeytanın gücünün öhdəsindən gəlməkdə uğurlu idilərsə, Şeytanın gücündən istifadə etmələrinə ehtimal var idimi?

8. 28-ci ayəni oxuyun. İsa insanların nəyi görmələrinə yardım etdi? O, cinləri Şeytanın gücü ilə qovmursa, bu o deməkdir ki, Onun gücü haradan gəlir?

9. İsanın natəmiz ruhlar üzərindəki səlahiyyəti Onun haradan gəldiyini və kim olduğunu necə göstərirdi?

**Qeyd:** Məsihə, Allahın göndərdiyi Xilaskara dair peyğəmbərliklərdən birini Yeşaya 35:5-6-da oxuyuruq:

> *"O vaxt korların gözləri, karların qulaqları açılacaq, axsaqlar ceyran kimi hoppanacaq, lalların dili sevinclə nəğmə deyəcək".*

Yeşaya peyğəmbər bu sözləri İsa doğulmamışdan 700 il əvvəl söyləmişdi! Yeşaya həmçinin bu sözləri dedi:

> *"Xudavənd Rəbbin Ruhu üzərimdədir, çünki fəqirlərə müjdəni bildirmək üçün O məni məsh etdi. Qəlbi sınıq olanlar üçün, yaralarını sarımaq üçün, əsirlərə azadlıq, dustaqlara sərbəstlik elan etmək üçün... Rəbb məni göndərdi". (Yeşaya 61:1,3)*

İsanın dövründə yaşayan yəhudilər, yəqin ki, Yeşayanın kitabının sinaqoqda oxunduğunu dəfələrlə eşitmişdilər. Onlar İsanın etdiyi möcüzələri görəndə, çox güman ki, ağıllarına bu və digər peyğəmbərliklər gəlirdi.

**Tətbiq və dua:** Oxuduğumuz bu iki şəfa əhvalatında hər iki insanın fiziki zəifliyinin səbəbi Şeytanın əsarətində olması idi. Yəhya 10:10-u oxuyun. Bu ayəni bir daha oxuyun və bir neçə dəqiqə onun üzərində düşünün. Şeytanın işi necə təsvir olunub? İsanın işi necə təsvir olunub?

Hər iki insanın həyatında Şeytanın, sonra da İsanın işini necə görürsünüz?

Biz hamımız Allaha itaətsiz olmuş, Onun bizim üçün gözəl planını rədd etmiş günahkarlarıq. Yeşaya 53:6-da belə deyilir: *"Hamımız qoyun kimi yolu azmışdıq, hər birimiz öz yolumuzla gedirdik".* Buna baxmayaraq, Allah bizə bol həyat vermək istədi. O bunu necə etdi? Ayənin qalan hissəsi bunu bildirir: *"Rəbb hamımızın şər əməllərinin yükünü onun [İsanın] üzərinə qoydu".*

Hamınız birlikdə bu barədə sakitcə fikirləşmək üçün bir neçə dəqiqə sükut edin. Sonra birlikdə dua edərək bizi Şeytanın gücündən azad edən və bizə bol həyat verən İsaya görə Allaha şükür edin.

2-ci hissədə (15-ci dərsdə) buna daha yaxından nəzər yetirəcəyik.

## 15. İsanın qüdrəti və səlahiyyəti haradan gəlir? (2-ci hissə)

İsanın cinlər üzərində qüdrəti izdihamı heyrətə gətirir

**Giriş müzakirəsi:** 1-ci hissədə (14-cü dərs) biz İsanın Şeytanın üzərində qələbə çalaraq kor və lal adamı sağaltdığı iki fərqli əhvalatı oxumuşuq. Bu möcüzələri görən insanlar buna necə reaksiya verdilər?

Fariseylər buna necə reaksiya verdilər?

**Matta 9:32-34 və Matta 12:22-30-u təkrar oxuyun.**

1. Matta 12:25-28-i təkrar oxuyun. İsa Şeytanın gücü ilə cinləri qovmağın niyə qeyri-mümkün olduğunu söylədi?

   Əgər O bunu Şeytanın gücü ilə etmirdisə, bu nə demək idi? (28-ci ayə)

2. İndi 12:29-u təkrar oxuyun.

**Qeyd:** İsa "güclü adamın evi" haqqında danışanda, bu dünyanı nəzərdə tuturdu. Şeytanın onun üzərində müəyyən dərəcədə səlahiyyəti var, çünki bəşəriyyət Allaha itaətsiz olub günaha batanda bu səlahiyyəti ona verdi. Lakin Allah ən əvvəldən xəbər vermişdi ki, bir İnsan dünyaya gələcək və həmin səlahiyyəti Şeytanın əlindən alacaq. Adəm və Həvva Allahın əmrinə tabe olmayanda, Allah ilana (Şeytana) belə dedi:

> *"Mən səninlə qadın arasına, sənin balanla onun övladı arasına düşmənçilik salıram. Bu övlad sənin başından vuracaq, sən də onu dabanından sancacaqsan". (Yaradılış 3:15)*

Həmin qadının övladı İsa idi. O çarmıxda öləndə Şeytan Onu dabanından sancdı. O ölülərdən diriləndə Şeytanın başını əzdi. Dabanından sancmaq əzab vermək mənasına gəlir. Başını əzmək, öldürmək, məhv etmək mənasına gəlir. (Əgər siz dünyanın yaradılması və ilk insanların günaha batması barədə heç oxumamısınızsa, boş vaxtınızda Yaradılış 1-3-cü fəsilləri oxuyun.)

3. Matta 12:29-da İsa Şeytanın üzərində qələbə çalmaqdan danışır və bunu öz evini qoruyan güclü adamın əl-qolunu bağlamaqla müqayisə edir.

   İsa Şeytanın ("güclü adam"ın) əl-qolunu necə bağladı? (Aşağıdakı ayələrə baxın.)

- *İndi isə bu dünyaya hökm veriləcək və bu dünyanın hökmdarı bayıra atılacaq. (Yəhya 12:31; İsa yaxınlaşan ölümü haqqında danışır)*
- *Allahın Oğlu buna görə zühur etdi ki, iblisin əməllərini puça çıxarsın. (1 Yəhya 3:8)*
- *Allah başçıları və hakimləri (Şeytanı və şər qüvvələri) tərk-silah edib, onlara çarmıxda qələbə çalaraq (İsa Öz ölümü və dirilməsi vasitəsilə) aləmdə rüsvay etdi. (Kolosselilərə 2:15; mötərizələr əlavə edilib.)*
- *İsa yaxınlaşıb onlara dedi: "Göydə və yer üzündə bütün səlahiyyət Mənə verilmişdir". (Matta 28:18; İsanın göylərə qaldırılmamışdan əvvəl şagirdlərinə dediyi son sözlər.)*

4. İsa bütün yer üzərində xidməti dövründə Şeytanın evini "qarət edib", günahın səbəb olduğu şəri aradan qaldırırdı. Aşağıda sitat gətirilən hər bir yazıda İsanın Şeytanın evini necə "qarət" etdiyini müzakirə edin.

   - *"Rəbbin Ruhu üzərimdədir, çünki fəqirlərə Müjdəni bildirmək üçün O Məni məsh etdi. Əsirlərə azadlıq, korlara gözlərinin açılmasını elan etmək üçün, məzlumları sərbəstliyə buraxmaq üçün, Rəbbin lütf ilini bəyan etmək üçün Məni göndərdi". (Luka 4:18-19. İsa Özü haqqında danışır.)*
   - *(İsa qəbir mağaralarında yaşayan adamdan çoxlu cinləri çıxarandan sonra) Camaat nə baş verdiyinə tamaşa etməyə çıxdı. Onlar İsanın yanına gəldilər, daxilindən cinlər çıxmış adamın İsanın ayaqları yanında geyinmiş və ağıllanmış oturduğunu görüb... (Luka 8:35)*
   - *Axşam olduqda isə cinə tutulmuş bir çox adamı İsanın yanına gətirdilər. O, sözlə ruhları çıxartdı və xəstələrin hamısına şəfa verdi. Bu, Yeşaya peyğəmbər vasitəsilə söylənən bu sözlər yerinə yetsin deyə baş verdi: "Bizim xəstəliklərimizi O çəkdi, naxoşluqlarımızı Öz üzərinə götürdü". (Matta 8:16-17)*
   - *Zakkay isə ayağa qalxıb Rəbbə belə dedi: "Ya Rəbb əmlakımın yarısını yoxsullara verərəm və kimdən haqsızlıqla bir şey almışamsa, ona dördqat qaytaracağam." İsa ona dedi: "Bu gün bu evə xilas gəldi, çünki bu adam da İbrahimin oğludur. Çünki*

*Bəşər Oğlu itmişləri axtarıb xilas etmək üçün gəlmişdir". (Luka 19:8-10)*

5. Matta 12:25-29-u təkrar oxuyun, sonra 30-cu ayəni də oxuyun. 25-29-cu ayələrdə İsanın dedikləri baxımından 30-cu ayədə nəyi nəzərdə tutduğunu izah edin.
6. Yaqub 4:4 və 1 Yəhya 2:15-i oxuyun. Bu ayələrə əsasən, İsanın ardıcılı olmaq və eyni zamanda dünyanın, yəni Şeytanın yolları ilə yaşamaq mümkündürmü? Müharibədə bir-birinə qarşı olan hər iki tərəfdə olmaq mümkündürmü? Bu sualları müzakirə edin.

**Tətbiq və dua:** Biz bu iki möcüzəyə baxdıqda görürük ki, hər iki adamın sağlamlıq problemlərinin səbəbi Şeytan idi. Şeytan dünyada olan hər pis şeyin bilavasitə səbəbi olmasa da, bizi ruhdan salmaq, ürəyimizə qara fikirlər gətirmək üçün həmişə bu şeylərdən istifadə etməyə hazırdır. O, bizim Allaha, Onun xeyirxahlığına və sadiqliyinə olan imanımızı zəiflətmək və məhv etmək istəyir.

Matta 12:28-i təkrar oxuyun. İsanın Şeytanın üzərində səlahiyyəti var, çünki O, Allahdır. İsa bu səlahiyyətini ardıcılları ilə paylaşır. Biz Allahın Ruhundan yenidən doğulanda, O bizə Öz adını və Kəlamının səlahiyyətini verir ki, Şeytan bizə hücum etməyə gələndə ona qalib gələ bilək. Aşağıda sitat gətirilən ayələr sizə bunu daha yaxşı anlamaqda kömək edəcək.

Kolosselilərə 2:15 və Matta 28:18-i təkrar oxuyun. (Bunlar yuxarıdakı 3-cü suala daxil edilmişdir.) Hamınız birlikdə dua edin. Çarmıx üzərində ölümü və dirilməsi vasitəsilə Şeytanın bütün gücünü və səlahiyyətlərini məğlub etdiyi üçün İsaya şükür edin. Dua edin ki, sizə və sevdiklərinizə qarşı düşmənin bütün hücumlarına İsanın ismi ilə qarşı durmağı Allah sizə öyrətsin. Bu 2 ayəni əzbərləmək və tez-tez onlar üzərində düşünmək də yaxşı olar.

**Sizə Şeytanın hücumlarına qarşı durmaqda kömək edəcək digər ayələr:**

- Efeslilərə 6:10-18
- Yaqub 4:6-10
- 1 Peter 5:8-11
- 2 Korinflilərə 10:3-5

## 16. Bet-Xasda hovuzunun yanında xəstə bir adamın şəfa tapması

**Giriş müzakirəsi:** Sizcə, bəzi insanlar öz həyatlarındakı xəstəlik və ya problemlərə alışdıqları üçün vəziyyətlərinin dəyişməsini istəmirlər? Bu, Allahın onlara vermək istədiyi sevincə və azadlığa nail olmalarına necə mane ola bilər?

**Yəhya 5:1-18-i oxuyun.**

1. 1-3-cü ayələri təkrar oxuyun. İsa haradadır? Səhnəni təsvir edin.

**Qeyd:** 4-cü ayədə belə deyilir:

> *"Çünki Rəbbin bir mələyi hərdən hovuzun içinə enib suyu çalxalayardı. Suyun çalxalanmasından sonra oraya girən ilk adam hansı xəstəliyi olursa-olsun, sağlam olardı". (Yəhya 5:4)*

Müqəddəs Yazının bir çox versiyalarında bu sözlər səhifəaltı qeyddə verilir, çünki bu məlumat Yəhya Müjdəsinin erkən əlyazmalarına daxil deyil idi, yalnız sonrakı əlyazmalarında verilmişdir. Yəqin ki, o, bu qədər insanın hovuzun yanına nə məqsədlə gəldiyini izah etmək üçün əlavə edilmişdi. 3-cü ayədə deyilir ki, hovuzun qırağında çoxlu xəstələr var idi. 7-ci ayədə xəstə adam onu suya salacaq bir kəsin olmadığını deyir. Bu iki ayədən anlaşıldığı kimi, insanlar bu hovuzda qeyri-adi hadisələrin baş verdiyini eşitmişdilər və bu xəbər doğru olsa da, olmasa da, orada həqiqətən sağala biləcəklərinə inanırdılar.

2. 5-6-cı ayələri oxuyun. Bu adam nə vaxtdan xəstə idi?

   İsa ona nə sual verdi?

   İllərlə xəstə olan bir insana bu sualı vermək qəribə deyildimi? Giriş müzakirəsində danışdığınız bəzi şeylər haqqında düşünün. Bu adamın hansı səbəbdənsə sağalmaq istəməməsinə ehtimal varmı?

3. 7-ci ayəni oxuyun. Bu adam İsaya necə cavab verdi? O, İsanın sualına birbaşa cavab verdimi?

   Bu adam sağalmasının yeganə mümkünlüyünü nədə görürdü? Niyə onun vəziyyəti ümidsiz görünürdü?

**Qeyd:** İncildəki möcüzələrin çoxunda insanlar İsanın yanına gəlib Ondan kömək diləyir, Ona "Davudun oğlu", "Rəbb" ya da "Müəllim" kimi müraciət edirlər. Görünür, insanlar çox vaxt İsanın möcüzələri

haqqında eşitdiklərinə görə Onun yanına gəlirdilər. Bu möcüzə əhvalatında isə əksinə, İsa xəstəyə yaxınlaşıb sağalmaq istəyib-istəmədiyini soruşur. Bu adam cavabında İsaya "ağa" deyə müraciət edir. Çox güman ki, o, İsanın möcüzələri haqqında eşitməmişdi.

4. 8-9-cu ayələri oxuyun. İsa bu adama nə dedi və 9-cu ayədə nə baş verdi?

   Bu adamın ümidsiz vəziyyəti bir anda necə dəyişdi?

5. 10-13-cü ayələri oxuyun. Yəhudi başçıları şəfa tapan adama nə dedilər?

**Qeyd:** Allahın xalqına verdiyi Qanunda Şənbə günü döşəyi daşımaq qadağan olunmamışdı. Bu, Şənbə günü insanın nə edib-etməyəcəyi barədə dini rəhbərlərin uzun müddət ərzində bir-biri ilə razılaşdırdıqları yüzlərlə qaydalardan biri idi. Bu qaydalar Allahın Şənbə günü üçün nəzərdə tutduğu məqsədi əks etdirmirdi, əksinə, insanlar üçün böyük bir yükə çevrilmişdi.

   11-ci ayədə bu adam necə cavab verdi? Bunu düşünün: Xəstəlik üzərində səlahiyyəti olan bir Şəxs, insanlar tərəfindən qoyulmuş Şənbə günü qaydaları üzərində də səlahiyyətə malik olmazmı?

   Nə üçün bu adam onu kimin sağaltdığını bilmirdi? (13-cü ayə)

6. 14-cü ayəni oxuyun. İsa bu adamı məbəddə tapanda Ona nə xəbərdarlıq etdi?

   Xəstə adamın fiziki vəziyyətindən daha pis nə ola bilərdi?

   Bu Müjdənin müəllifi Yəhya bizə bu adamın günahından dönüb İsanın ardınca gedib-getmədiyini bildirməmişdir. Bu hekayədə şəfa tapan adamın İsanı tanımaq və ya izzətləndirmək istədiyinə dair heç bir işarə yoxdur. Bu adam fiziki şəfa aldığı halda şəfa verən Şəxsə inanmasaydı, son müqəddəratı necə olardı?

7. 15-18-ci ayələri oxuyun. Yəhudi başçıları nə üçün İsanı təqib edirdilər? (16-cı ayə)
   İsa necə cavab verdi? (17-ci ayə)
   Yəhudilərin İsanı öldürməyə çalışmalarının iki səbəbi nə idi? (18-ci ayə)

**Tətbiq və dua:** İncilin bu hekayəsində xəstə adam o gün həmişəki kimi qeyri-mümkün görünən bir şeyi gözləyərək hovuzun yanında uzanarkən,Allahdan gözəl bir hədiyyə aldı. 38 il boyu kiminsə onu bir yerdən digər yerə aparmasını gözləmişdi və birdən bir an içində tamamilə sağaldı! Onun üçün bu, xoşbəxt bir gündür!

Bəs onun ruhani vəziyyəti necə oldu? 14-cü ayədə İsanın ona dediyi sözləri bir daha oxuyun. Bu insan öz döşəyini götürdü və fiziki xəstəliyini geridə qoydu. Bəs günahlı həyatını geridə qoyub əbədi həyata nail olmaq üçün İsaya iman etməyə hazır idımı?

Öz həyatınızı düşünün. İsa 6-cı ayədə xəstə adama verdiyi sualı sizə də verirmi? Bu hekayədə olan xəstə adam kimi fiziki problemləriniz olmaya bilər, bəs sizin ruhani vəziyyətiniz necədir? Siz bütün qəlbinizlə İsanın ardınca getmək üçün günahlı həyatınızı geridə qoymusunuzmu? Ola bilsin, İsanın ardınca gedirsiniz, amma keçmişdən olan yaralarınız hələ qalır, kimisə bağışlamamısınız və ya günahlı vərdişdən əl çəkmirsiniz. Rəbbin qarşısında sakit gözləməyə bir az vaxt ayırın. Həyatınızda nə etmək istədiyini Rəbdən soruşun. Qrupda bir-biriniz üçün dua edin.

**Aşağıda şəxsi tətbiq üçün daha sonra edə biləcəyiniz bir təklif verilir:**

Bütün hekayəni (1-18-ci ayələri) bir daha yavaş-yavaş oxuyun. İsanın 6-cı ayədəki sualına nə cavab verəcəyinizi düşünün. Öz ağrılarınızı və çətinliklərinizi İsaya gətirəcəksinizmi? Keçmişdən əl çəkmək və sağalmaq üçün Onun dediyinə əməl edəcəksinizmi? Bunun üçün dua etməyə vaxt ayırın və iman edin ki, Allah həyatınızı dəyişdirib sizi azad etməyə qadirdir.

Keçmişdən azad olmaq və şəfa tapmaqda sizə ***Bəxtiyarlıq vədləri ilə Məsihdə böyümək*** kitabı yardım edə bilər. 31 gündəlik ruhani düşüncələrdən ibarət olan bu kitabı learnhisways.com saytından pulsuz olaraq telefonunuza və ya digər cihazınıza yükləyə bilərsiniz. Dil seçimi üçün bayraq işarəsinin üzərinə basın.

## İnsanlar nə üçün İsanın möcüzələrinə müxtəlif cür reaksiya göstərdilər?

Bəzən biz elə bilirik ki, İsaya iman etməyən dostlarımız və ya qohumlarımız Onun adı ilə möcüzə görsələr iman edərlər. Amma biz dörd Müjdənin hər birində (Matta, Mark, Luka və Yəhya) İsanın möcüzələri haqqında oxuyanda, insanların buna müxtəlif cür reaksiya göstərdiklərini görürük. Hamı eyni hadisələri gördü və heç kim hadisələrin fövqəltəbii olduğunu inkar etmədi. Amma hamı iman etmədi, hamı sevinmədi və hamı Allaha izzət vermədi.

Fariseylər və yəhudi başçıları kimi İsanın möcüzələrini görəndə qəzəblənən insanlar var idi. Onların yəhudi xalqı üzərində səlahiyyətləri var idi, indi isə onlara tabe olan bu xalq onlardan üz döndərib möcüzələr yaradan bu adamın ardınca gedir. Onlar insanların şəfa tapmalarına ya da xilas olmalarına sevinməkdənsə, bunu İsanın Allahdan olduğunun əlaməti kimi qəbul etməkdənsə paxıllıq edir və İsanı məhv etmək istəyirdilər. Onların ürəkləri daşa dönmüşdü. Onlar İsanın Allahın vəd etdiyi Məsih olduğuna inanmaq istəmirdilər. (Yəhya 11:45-48 və 53-ə nəzər yetirin. Bu, İsa Lazarı diriltdəndən sonra baş verdi.)

O izdihamda İsanın möcüzələrini görəndə sevinənlər da var idi. İsanın artırdığı çörəklərlə balıqları yeyən 5000 nəfər arasında bəziləri hər gün müftə yeməkləri olsun deyə İsanı padşah etməyə hazır idilər (Yəhya 6:14-15). Bu insanlar şəfa, cinlərin çıxması və möcüzəli təminat kimi xeyir-duaları almağa şad idilər, lakin İsanın şagirdi kimi çətinliklərə dözmək istəmirdilər. Onlar, sıpaya minib Yerusəlimə girən İsanı əllərində xurma budaqları və həmd sözləri ilə qarşılayan (Mark 11:7-10), amma bir neçə gündən sonra bağıraraq Onun çarmıxa çəkilməsini tələb edən (Mark 15:12-15) izdihamın arasında idilər. İsanın ardınca gedən və təlimini eşidən insanların çoxu bu qrupa aid idi. Onlar hər şeydən əvvəl Allahın Padşahlığını deyil, öz xeyrini və rahatlıqlarını axtarırdılar.

Nəhayət, orada İsanın möcüzələrini Onun Allah tərəfindən göndərilən Məsih olduğunun əlaməti kimi qəbul edənlər var idi. Bu insanlar İsanın təlimlərini çətin olsa belə sevinclə qəbul edib ardınca

gedirdilər. Onların ürəkləri yumşaq, təvazökar və açıq idi. (Yəhya 6:66-69-a baxın.) Bu insanların sayı, İsanın möcüzələrini görən və ya onlardan faydalananların sayından az idi.

Bu dövrümüzdə də insanlar eynidirlər. Bəziləri möcüzələrə inanmır və hər hadisənin təbii izahını verməyə çalışırlar. Digərləri Allahın fövqəltəbii işlərinə inanır, lakin Allahın Özünü tanımaqda maraqlı deyillər. Belə insanlar özlərinin ya da yaxınlarının həyatında bir möcüzənin baş verməsinə sevinirlər, amma öz çarmıxını götürüb Xilaskarın ardınca getmək çağırışına gəlincə buna həvəs göstərmirlər. Bəziləri çox böyük bir möcüzə görsələr belə, İsanın yolunu tutmazlar. Amma qəlbən yumşaq və təvazökar olanlar sevinclə İsanı Rəbb kimi qəbul edib önündə baş əyəcək və Onun ardınca gedəcəklər.

*Ya Rəbb, Sənin əməllərini yada salıram,*
*Bəli, xatırlayıram, ta qədimdən xariqələr göstərmisən.*
*Sənin bütün işlərini dərindən düşünürəm,*
*Əməllərin barədə xəyala dalıram.*
*Allahın yolu müqəddəsdir.*
*Allah kimi böyük hansı allah var?*
*Xariqələr yaradan Allah Sənsən,*
*Xalqlar arasında qüdrətini göstərmisən.*
*Zəbur 77:11-14*

## 17. Möcüzəli yemək

(Bu hekayə həmçinin Matta 14:13-21, Mark 6:30-44 və Luka 9:10-17-də yer alır. Hər müəllif bir az fərqli təfərrüatları verir.)

**Giriş müzakirəsi:** Çox ac olduğunuz, heç bir yeməyiniz, pulunuz ya da yemək alma imkanınız olmadığı bir vəziyyətə düşmüsünüzmü? Belə vəziyyəti təsvir edin.

**Yəhya 6:1-15-i oxuyun.**

1. 1-4-cü ayələri təkrar oxuyun. İsa şagirdləri ilə birlikdə qayığa minib Qalileya gölünün o biri sahilinə keçdi. Böyük bir izdiham sahildə yeriyərək Onun ardınca getdi. 2-ci ayəyə əsasən, o insanlar nə üçün İsanın ardınca gedirdilər?

2. O biri Müjdə Kitablarının hər üçündə Yəhyanın vermədiyi təfərrüatlar verilir. Matta 14:13-14-ü oxuyun. (İsa, Vəftizçi Yəhyanın ölüm xəbərini təzəcə eşitmişdi.) Mark 6:30-34 və Luka 9:10-11-i də oxuyun. Xüsusilə də Mark Müjdəsindəki ayələrə baxın.

   Özünüz üçün vaxt ayıranda və kimsə həmin vaxta müdaxilə edəndə (məsələn, qonaqlar gəlir, uşaq sizdən kömək diləyir, planlar dəyişir və s.) bunun sizə necə təsir etdiyini düşünün. İsanın həm şagirdlərinin (Mark 6:31), həm də izdihamın (Mark 6:34) ehtiyaclarına necə münasibət göstərdiyini müzakirə edin.

3. Yəhya 6:5-7-ni oxuyun. İsa Filipdən nə soruşdu?

   Nə üçün bunu soruşdu? (6-cı ayə)

   Filip nə cavab verdi? (7-ci ayə)

   Bu hansı mənada sınaq idi? İsanın verdiyi suallar şagirdlərinə bu vəziyyətin təbii yolla həllinin qeyri-mümkünlüyünü görməkdə necə kömək etdi?

4. 8-9-cu ayələrdə Andreyin cavabını oxuyun. Andrey hansı sualı verdi? (9-cu ayə)

   Sizcə, Andrey İsanın 5 çörək və 2 balıqla nə edəcəyi ağlına gəlmişdimi?

5. 10-cu ayəyə əsasən, orada neçə kişi var idi?

O dövrlərdə yalnız kişilər sayılardı. O gün izdihamda olan qadınların və uşaqların sayını təxmin etməyə çalışın. Sizcə, orada cəmi neçə nəfər var idi?

6. Bundan sonra, 11-cü ayədə İsanın nə etdiyini təsvir edin.

   Hər bir insana nə qədər çatdı?

7. 12-ci ayədə hamı yeyib doyandan sonra İsa onlara nə buyurdu?

8. 13-cü ayəyə əsasən, izdihamın qabağından qalan hissələrdən neçə zənbil doldurdular?

   O gün çörək və balıq yeyən xalq üçün bunun necə heyrətli bir möcüzə olduğunu müzakirə edin. (Onların ucqar bir yerdə olduqları, İsanın cüzi miqdarda yeməkdən istifadə etdiyi, hər bir insanın nə qədər yediyi və nə qədər yeməyin qaldığı barədə düşünün.)

9. 14-cü ayəni oxuyun. Bu ayədə bu möcüzə "əlamət" adlanır. İnsanlar bu əlamətin nə məna kəsb etdiyini düşünürdülər?

10. 15-ci ayədə insanlar İsaya nə etmək istədilər? Sizcə, nə üçün bunu etmək istədilər?

    İsa necə cavab verdi? O nə üçün belə cavab verdi?

**Tətbiq və dua:** Onlar bir yandan haqlı idilər: İsa, peyğəmbərlərin gələcəyindən xəbər verdikləri şəxs idi. Lakin O, düşmənləri üzərində zəfər qazanıb xalqına asan həyat gətirən padşah kimi gəlmirdi, əzab çəkən qul kimi gəlirdi. O, onlara gözlədikləri, arzuladıqları çörəyi deyil, başqa cür çörəyi verəcəkdi. Bir müddət sonra insanlar İsanı axtarıb tapanda, İsanın onlara nə dediyini oxuyun (Yəhya 6:25-27).

Bu möcüzəsi ilə İsa göstərdi ki, xalqı maddi qida ilə təmin etmək Onun üçün problem deyil, amma O, onların həqiqi qida üçün ac qalmalarını istəyirdi. İsanın *"əbədi həyat verən, daim qalan yemək üçün işlər görün"* (27-ci ayə) dedikdə nəyi nəzərdə tutduğunu bir neçə dəqiqə müzakirə edin.

Həmçinin Yəhya 6:28-29-u oxuyun. Öz həyatınızı düşünün. Siz ən çox keçib-gedən yeməyin qayğısını çəkirsiniz, yoxsa əbədi qalan yemək üçün çalışırsınız?

29-cu ayədə İsa *"Allahın istədiyi iş"*in nə olduğunu deyir? Siz bu *"Allahın istədiyi iş"*i etməkdə necə böyümək istəyirsiniz?

Bir neçə dəqiqə bu ayələr üzərində sakitcə düşünün. Sonra Müqəddəs Ruhun ürəyinizə bu barədə nə qoydusa, onun üçün dua edin.

> *"Beləliklə, "Nə yeyəcəyik?", "Nə içəcəyik?" və ya "Nə geyəcəyik?" deyə qayğı çəkməyin. Çünki bütpərəstlər bütün bu şeyləri axtarırlar. Doğrudan da, Səmavi Atanız bütün bunlara ehtiyacınız olduğunu bilir. Ona görə də siz əvvəlcə Allahın Padşahlığını və Onun salehliyini axtarın. Onda bunların hamısı sizə əlavə olaraq veriləcək". (Matta 6:31-33)*

## 18. İsa suyun üstündə yeriyir

(Bu hekayənin daha qısa forması Mark 6:45-53 və Yəhya 6:16-21-də yer alır.)

**Giriş müzakirəsi:** Siz nə vaxtsa bir təbiət qanununa qarşı çıxmağa cəhd etmisinizmi? Məsələn, uşaq olanda yüksək bir yerdən tullanıb uçacağınıza ümid edərək cazibə qüvvəsinə qarşı durmağa çalışmısınızmı? Və ya bəlkə batmayacağınızı düşünərək dərin sulara atılmısınızmı? Öz təcrübəniz və ya daim etmək arzusunda olduğunuz qeyri-mümkün bir şey haqqında danışın.

Sizcə, Allah fövqəltəbii surətdə müdaxilə etmədikcə təbiət qanunlarının həmişə sabit qalması nə üçün vacibdir (məsələn, cazibə qüvvəsi)?

**Mat. 14:22-33-ü oxuyun.**

1. 22-23-cü ayələri təkrar oxuyun. İsa təzəcə 5000 kişini (üstəlik qadınları və uşaqları da) 5 kiçik çörək və 2 balıqla yedizdirmişdi. Bu dərsdəki əhvalat, bu möcüzədən dərhal sonra baş verdi.

   22-ci ayədə İsanın etdiklərini müzakirə edin.

   İsa, tam insan idi. O, axşama qədər minlərlə insanları öyrətmək, şəfa vermək, yedizdirmək ilə məşğul olduğu üçün, yəqin ki, yorulmuşdu. İsa bu dəfə bərpa olunmaq və güc tapmaq üçün nə etdi? (23-cü ayə)

2. 24-cü ayəyə əsasən, o vaxt şagirdlərlə nə baş verirdi?

3. 25-27-ci ayələri oxuyun. Gecənin dördüncü növbəsi saat 3 ilə 6 arasına təsadüf edirdi. İsa nə etdi? (25-ci ayə) (Unutmayın ki, dəniz sakit deyildi.)

   Şagirdlər necə reaksiya verdilər? (26-cı ayə)

   Təsəvvür edin ki, siz şagirdlərlə qayıqdasınız. Artıq neçə saatdır ki, dalğalara qarşı mübarizə aparır, sağ-salamat sahilə çatmağa çalışırsınız. Qəfildən suyun üstü ilə sizə tərəf gələn bir kəsi görürsünüz! Sizcə, reaksiyanız necə olacaq? Nə üçün belə reaksiya verəcəksiniz?

   İsa, qorxu içində olan şagirdləri necə cəsarətləndirdi? (27-ci ayə)

4. 28-29-cu ayələri oxuyun. Peter İsaya nə dedi?

Sizcə, o nə üçün belə dedi? Sizcə, o nə düşünürdü?

Bundan sonra, 29-cu ayədə nə baş verdi?

Külək onların üzərinə əsdikcə və onlar İsa ilə Peterə tamaşa etdikcə, sizcə, qayıqdakı digər şagirdlər nə düşünürdülər?

5. Bundan sonra, 30-31-ci ayələrdə nə baş verdiyini oxuyun. Peter nə üçün batmağa başladı? (30-cu ayə)

   İsa nə etdi? (31-ci ayə) İsa Peterə nə dedi?

6. Peterin hərəkətlərini bir neçə dəqiqə müzakirə edin. O necə cəsarət göstərdi?

   Nə üçün cəsarətini itirdi?

7. Öz həyatınızı düşünün. Siz də həyatınızda "güclü küləklər" (çətinliklər və ya çıxılmaz vəziyyətlər) ilə qarşılaşanda Peterə necə bənzəyirsiniz?

   Sizcə, İsa sizə belə vaxtlarda nə deyərdi?

8. 32-33-cü ayələri oxuyun. İsa və Peter qayığa çatan kimi nə baş verdi? (Yəhya 6:21-də əlavə edilir: "… *qayıq o andaca getdikləri sahilə çatdı*",)

   33-ci ayədə şagirdlər necə cavab verdi?

9. Bu hekayədə baş verən bütün möcüzələri sadalayın. (Matta 14:25, 29, 32 və Yəhya 6:21-i oxuyun.)

   Bunların hamısı şagirdlərə İsanın kim olduğunu dərk etməkdə necə kömək etdi?

   Bütün bunlar sizə İsanın kim olduğunu dərk etməkdə necə kömək edir?

**Tətbiq və dua:** Yəhya 1:1-3-ü oxuyun. Bu ayələrdən yaradılışda İsanın (Allahın Kəlamının) rolu barədə nə öyrənirsiniz? Allahın kainatı müəyyən təbiət qanunları ilə yaratdığını düşünün. Bunlar cazibə qüvvəsi, gündüzü və gecəni, günəşi, ayı və ulduzları idarə edən qanunlar, hərəkəti və enerjini idarə edən qanunlardır. Bütün bunlar yer üzündə həyat mümkün olsun deyə kainatın nizamlı şəkildə işləməsi üçün vacibdir. Bəs bütün bunların üzərində kim hökmranlıq edir?

Aşağıdakı ayələri oxuyun:

- *Zəbur 89:9: "Sən qabaran dənizə hökm edirsən, aşıb-daşan dalğaları yatırırsan".*
- *Zəbur 95:4-5: "Yerin dərin qatları Onun əlindədir, həm də dağların zirvələri Onundur, Onunkudur dəniz, Özü yaratmış, torpağı əlləri qurmuş!"*
- *1 Salnamələr 29:11: "Ya Rəbb, əzəmət, qüdrət, calal, zəfər və şöhrət Sənə məxsusdur, çünki göydə və yerdə olan hər şey Sənindir. Ya Rəbb, padşahlıq Sənindir və Hökmdar olaraq hər şeydən ucasan".*
- *Kolosselilərə 1:16: "Çünki göylərdə və yerdə olan, görünən və görünməyən hər şey – taxtlar, ağalar, başçılar, hakimlər Onda yarandı. Nə varsa, Onun vasitəsilə və Onun üçün yarandı".*

Bunu düşünün: Bütün təbiət, yaradılmış olan hər şey Rəbbin səsinə tabe olmalıdır! Şagirdlər Matta 14:33-də İsaya səcdə qıldıqları kimi, siz də indi bir az vaxt ayırıb Ona səcdə edin.

Əgər siz bu həyatda olan güclü küləklərlə qarşılaşanda Peter kimi imanınızın az olduğunu dərk edirsinizsə, Allahdan Ona etibar etməkdə və qorxuya təslim olmamaqda sizə kömək etməsini diləyin. O, nəinki hər şeyə qadirdir, həm də sizi sevir və qayğınıza qalır. Siz Ona baxdıqca O, Peterə əlini uzadıb çıxartdığı kimi, sizi də çıxardacaq.

## 19. İsa yadelli qadını imanına görə tərifləyir

(Bu hekayə həmçinin Mark 7:24-30-da yer alır.)

**Giriş müzakirəsi:** Siz nə vaxtsa imanınızın sınandığını hiss etmisinizmi? Yaşadığınız, eşitdiyiniz və ya oxuduğunuz bir iman sınanması əhvalatını danışın.

**Matta 15:21-28-i oxuyun.**

1. 21-22-ci ayələri oxuyun. İsa haraya getdi?

**Qeyd:** Əhdi-Ətiqdən öyrəndiyimiz Allahın planına əsasən, yəhudi xalqı xilas olmalı, sonra da Müjdəni dünyanın bütün xalqlarına yaymalı idi. Biz Həvarilərin İşləri kitabında məhz bunun tarixçəsi nəql olunur, amma hələlik bunun vaxtı çatmayıb, çünki İsa hələ yer üzündə idi və xidməti əsasən yəhudilərə yönəlmişdi.

Sur və Sidon İsrailin sərhədlərindən kənarda olan qeyri-yəhudi əraziləri idi. İsa Qalileyanın yəhudi bölgəsində çoxlu insanlara şəfa verirdi. Bəlkə də, O bir qədər dincəlmək üçün izdihamdan kənarlaşmaq məqsədilə bu qeyri-yəhudi bölgələrinə getmişdi. Mark 7:24-də deyilir ki, İsa orada olduğunu heç kimə bildirmək istəmirdi.

2. İsanın yanına kim gəldi? (22-ci ayə)

**Qeyd:** Bu kənanlı qadın (yəhudi deyil, bütpərəst bir cəmiyyətin vətəndaşı) İsanın "Davudun Oğlu", yəni yəhudilərin çoxdan gözlədiyi Məsih olduğunu iqrar etdi. Görünür, İsanın təlimlərinin və möcüzələrinin xəbəri İsrailin sərhədlərindən kənara da yayılmışdı. Bu qeyri-yəhudi qadın necəsə Onun haqqında eşitmişdi və yəhudi başçılarının inanmadıqlarına inanmışdı.

3. Bu qadın İsadan nə istədi? (22-ci ayə)
4. 23-24-cü ayələri oxuyun. İsa necə cavab verdi? (23-cü ayə)

   Şagirdlər necə cavab verdilər (23-cü ayə)?

   Onda İsa nə dedi? (24-cü ayə) Sizcə O nə üçün bunu dedi?
5. 25-ci ayəyə baxın. Bu qadın əl çəkib çıxıb getdimi?

6. 26-27-ci ayələrdə İsanın qadınla söhbətini oxuyun. Mark 7:27-də yer alan eyni hekayədə İsa, “Qoy əvvəl uşaqlar doysun” - deyə əlavə edir.

**Qeyd:** Biz bilirik ki, İsa hər kəsin, milliyyətindən asılı olmayaraq, qayğısına qalır. Yəhya 3:16-da O bizə deyir ki, *“...Allah **dünyanı** elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən **hər kəs** həlak olmasın, amma əbədi həyata malik olsun”.* Biz bu hekayəni birinci dəfə oxuyanda, bizə elə gəlir ki, İsa bu yadelli qadına əhəmiyyət vermirdi və onun ehtiyacını qarşılamağa könlü yox idi. Sanki İsa deyirdi ki, qadın yadelli olduğuna görə ondan nəsə almağa haqqı yoxdur. İsanın bu qadınla söhbətində nə baş verdiyini bir neçə dəqiqə müzakirə edin. İsanın əvvəl etiraz etməsi qadının rədd edilməyəcək imanını necə üzə çıxardı?

(İsa “itlər” dedikdə işlətdiyi sözün mənası çirkli küçə heyvanı deyil, “kiçik ev iti” idi.)

7. İndi 28-ci ayədə İsanın cavabını oxuyun. Bu qadının böyük imanı necə aşkar oldu?

   İmanı necə mükafatlandırıldı?

8. Bu hekayədəki kənanlı qadın haqqında bunları öyrənirik:

   - O, İsanı Allahın göndərdiyi yəhudi Məsih kimi qəbul etdi.
   - O, mərhəmət dilədi. Bu onu göstərir ki, qadın İsanın xeyirxahlığına layiq olmadığını bilirdi.
   - O, İsanın onun qızına şəfa verməyə qadir olmasına inandığını göstərərək Ondan diləməyə davam etdi.
   - O, bu zaman yəhudilərin üzərinə tökülən lütfün ən azı bir qırıntısını almağı israr və cəsarətlə xahiş edirdi.
   - İsa bu qadını imanına görə tərifədi və o bölgədə yalnız onun üçün möcüzə etdi.

**Tətbiq və dua:** Bu hekayəni ilk dəfə oxuyanda sizə elə gələ bilər ki, İsa bu qadının xahişinə rəhmsiz, hətta qəddar cavab verir. Amma bu bir sınaq idi! İsa nə edəcəyini bilirdi və qadının ürəyində nə olduğuna da bələd idi. O bilirdi ki, qadın israr etmək məcburiyyətində qalsa, imanı artacaq.

Bu qadın qeyri-yəhudi idi, amma yenə də necəsə İsrailin Allahının xeyirxah və qüdrətli olduğuna inanıb xeyirxahlığından pay almaq istəyirdi. Əgər onun uşaqlarla (yəhudilərlə) birlikdə süfrədə oturmasına icazə verilmirdisə, o, süfrədən yerə tökülən qırıntılardan da götürməyə razı idi. Bu belə onun ehtiyacını ödəməyə kifayət idi. Böyük iman budur!

Bunu düşünün: Əgər qadın İsanın yanına gələn kimi İsa bir söz deyib onun qızına şəfa versəydi, ürəyindəki imanı ifadə etməyə imkanı olardımı? Başlanğıcda qadın İsanın yanına gələndə, onun imanı bu əhvalatın sonunda, qızı şəfa tapanda olduğu qədər güclü idimi? Bir də İsanın tərifini, *"Qadın, sənin böyük imanın var!"* sözlərini eşidəndə nə qədər ruhlandığını təsəvvür edin. Şübhəsiz ki, bu onun əhval-ruhiyyəsini qaldırdı və ona çox sevinc verdi.

Allah sizə tez cavab verməyib imanınızı sınayanda, bəlkə də sizin üçün gözəl və yaxşı bir şey hazırladığına inanırsınızmı? Yaqub 1:3-4-də deyilir ki, imanımızın sınaqdan keçməsi dözüm yaradır və dözüm bizi yetkin və kamil edir. Siz bunu dualarınıza tez cavab almaqdan daha çox arzulayırsınızmı?

Allahın xeyirxahlığına güvənməkdə necə böyümək istədiyinizi qrupda bölüşün.

İndi həyatınızın hansı sahələrində Allaha güvənmədiyinizi düşünmək və bunları Allaha etiraf etmək üçün vaxt ayırın. Bölüşdüyünüz problemli sahələrdə böyüyəsiniz deyə bir-biriniz üçün dua edin.

## 20. İsa kar qulaqları və pəltək dili açır

**Giriş müzakirəsi:** Sizcə, başqalarının səslərini eşidə bilməmək necə olar? Bizim başqaları ilə münasibətlərimiz eşitmə qabiliyyətimizdən nə qədər asılıdır?

**Mark 7:31-37-ni oxuyun.**

**Qeyd:** İsa qeyri-yəhudi qadının cinə tutulmuş qızına şəfa verdiyi (19-cu dərs) Sur bölgəsindən yenicə qayıtmışdı. İndi O, sakinlərinin çoxu qeyri-yəhudi olan Dekapolis (yəni "on şəhər") adında bölgəyə gəlir. Matta 15:29-31-də deyilir ki, o vaxt böyük bir izdiham İsanın yanına gəldi və İsa çox insana şəfa verdi. Mark bizə konkret bir şəfa əhvalatını nəql edir.

1. 31-32-ci ayələri oxuyun. İsanın yanına gətirilən adamın iki problemi nə idi? (32-ci ayə)

   Bu adamın məhdudiyyətləri barədə düşünün. Bu adamın İsanın yanına gəlməsi üçün qayğısına qalan başqalarının onu gətirməsi nə qədər vacib idi?

2. Adamlar İsaya nə dedilər? (32-ci ayə)

   Bu adamlar İsanın şəfa verdiyi izdihamın içində olduqları üçün, bəlkə də, artıq çoxlu möcüzələr görmüşdülər. Sizcə, onların imanı var idimi?

3. 33-34-cü ayələri oxuyun. İsanın 33-cü ayədəki hərəkətləri bu insanı izdihamın bir üzvü deyil, fərdi həsab etdiyini necə göstərir?

4. Bu iki ayədə İsanın hərəkətlərini təsvir edin.

   Bu hərəkətlər bizə qəribə görünür, amma İsa bəzən qeyri-adi yollarla möcüzələr yaradır. Ola bilsin ki, kar adam və oradakı digər insanlar üçün bu hərəkətlərin bir mənası var idi. Biz bu gün onu anlamırıq. Sizcə, İsanın hərəkətlərinin kar adamı möcüzə ilə şəfa tapmağa bir şəkildə hazırlamasına ehtimal varmı?

5. 34-cü ayədə, sizcə, İsa nə üçün ah çəkdi?

   İsa nə dedi?

6. 35-ci ayəyə baxın. İsa bu sözləri deyən kimi bu adamda nə baş verdi (iki hadisə)?

Biz bu adamın nə vaxtdan bəri kar olduğunu bilmirik, amma ehtimal ki, o, uşaqlıqdan ya da anadangəlmə kar idi. Bəlkə də məhz bu səbəbdən o, səsləri düzgün tələffüz edə bilmirdi. O, sükut dünyasında, digər insanlardan ayrı yaşayırdı. Özünüzü bu adamın yerində təsəvvür edin. Siz ilk dəfə eşitməyə və danışmağa başlasaydınız ağlınıza hansı fikirlər gələrdi və nə hiss edərdiniz?

Siz bu adamın yerində olsaydınız, ilk söyləyəcəyiniz sözlər nə olardı?

7. 36-37-ci ayələri oxuyun. 33-cü ayədə gördük ki, İsa bu adamı izdihamdan ayırdı və başqa bir yerdə ona şəfa verdi. İndi bu möcüzəni görən bir neçə nəfərə nəyi qadağan etdi?

   Bu qadağaya baxmayaraq, insanlar nə etdilər? (36-cı ayə)

   37-ci ayədə o insanlar buna necə reaksiya verdilər?

**Qeyd:** İsa Qalileyada və yaxınlığındakı qeyri-yəhudi bölgələrində təlim öyrədib şəfa verərkən, Onun ardınca gedən izdiham get-gedə artırdı. İnsanlar Onun peyğəmbərlərin xəbər verdikləri Xilaskar olub-olmadığını soruşurdular. (Yeşaya 35:4-6-da Yeşaya peyğəmbərin sözlərini Mark 7:37 ilə müqayisə edin.) Amma onlar elə bilirdilər ki, Xilaskar böyük qəhrəman kimi gələcək və onları hərbi güclə Roma imperiyasının zülmündən xilas edəcək.

8. İsa bilirdi ki, Onun əzəmətli möcüzələri barədə söz yayıldıqca insanlar Onu siyasi rəhbər təyin etməyə çalışacaqlar. Amma onların ən böyük ehtiyacı bu deyildi. Yəhudi xalqının və bütün bəşəriyyətin ən böyük ehtiyacı nə idi?

   Allahın bu ehtiyacı ödəmək planı bir çox insanların ürəklərindəki ümidlərdən necə fərqlənirdi?

**Tətbiq və dua:** Bu hekayədə adamın eşitmək üçün qulaqlarının və danışmaq üçün dilinin açılmasına fiziki ehtiyacı var idi. Siz ruhani qulaqlarınızın eşitməsi barədə düşünün. Allahın Ruhu sizinlə danışanda nə qədər yaxşı eşidə bilərsiniz? Onun Kəlamını oxuyanda ruhən böyüyürsünüzmü?

Bəs dilinizlə necə? Siz başqalarına, xüsusilə də Müjdəni eşitməmiş insanlara Allahın məhəbbətindən sərbəst danışıb Müjdəni yayırsınızmı?

İsa bu insanın qulaqlarına və dilinə toxunub şəfa verdiyi kimi indi sizin də ruhani qulaqlarınıza toxunmasını diləyin ki, Onu daha yaxşı eşidəsiniz. İsanın sözlərini “eşitmək” həmçinin onlara ürəkdən riayət etmək deməkdir. Siz Onun sözlərinə itaət etdikcə, Onu eşitmək və Onun qüdrəti və lütfü barədə insanlara danışmaq qabiliyyətiniz artacaq.

## 21. Qeyri-yəhudilər üçün möcüzəli yemək; Peter üçün möcüzəli pul

(Bu dərsdə iki möcüzəni nəzərdən keçirəcəyik. Birincisi Mark 8:1-10-da nəql olunur. Bu, 17-ci dərsdəki möcüzədən fərqli bir möcüzədir.)

**Giriş müzakirəsi:** Öz həyatınızda və ya şəxsən tanıdığınız yaxud bir kitabda oxuduğunuz bir nəfərin həyatında Allahın gözlənilməz tərzdə fiziki bir ehtiyacı necə ödədiyini danışa bilərsinizmi?

**Giriş:** Həm bu əhvalat, həm də 20-ci dərsdə bəhs olunan əhvalat əsasən qeyri-yəhudilərin məskunlaşdığı Dekapolis bölgəsində baş vermişdi. Bu möcüzə, yəqin ki, o şəfa möcüzəsi ilə eyni zamanda baş vermişdi.

**Matta 15:29-39-u oxuyun.**

1. 29-31-ci ayələri təkrar oxuyun. İsa bu yadellilərə (qeyri-yəhudilərə) rəhmini necə göstərdi?
2. İnsanlar buna necə reaksiya verdilər? (31-ci ayə)

**Qeyd:** Bu izdihamda olan insanların çoxu yəhudi olmadığına görə onlar, yəqin ki, müxtəlif bütlərə ibadət edirdilər. Bu insanların qohum-əqrəbaları, dost-tanışları arasında baş verən möcüzələrin hamısını öz gözləri ilə gördükləri barədə düşünün. Bu möcüzələr İsrailin Allahının onların tanrılarından nə qədər fərqli olduğunu görmələrinə necə yardım edə bilərdi?

3. 32-ci ayəni oxuyun. İsa nəyə görə narahat olurdu?
4. 33-cü ayəyə baxın. Şagirdlər hansı problemləri gördülər?

   17-ci dərsdə biz İsanın beş çörəyi və iki balığı çoxaldıb 5000-dən artıq insanı doyurduğunu gördük. O möcüzə bizim indi öyrəndiyimiz möcüzədən əvvəl baş vermişdi. İsanın şagirdləri bu cür möcüzəni artıq gördüklərinə görə Onun insanların ac olmasına görə narahatlığına, sizcə, necə reaksiya verməli idilər?

5. 34-36-cı ayələri oxuyun. Şagirdlərin nə qədər yeməyi vardı?

   İsanın və şagirdlərin sonra nə etdiyini təsvir edin. (35-36-cı ayələr)

6. 37-ci ayəyə əsasən, son nəticə nə oldu?

   Yemək yeyən adamların sayı nə qədər idi? (38-ci ayə)

**Qeyd:** İsa artıq ikinci dəfə idi ki, çoxlu sayda insanın mümkünsüz bir vəziyyətdə fiziki ehtiyacını möcüzəli şəkildə ödədi. Bu yer çöllük idi. Belə bir ərazidə hamı üçün yemək almağa kifayət edəcək pulları olsa belə, nə isə almaq mümkün deyildi. Amma İsa hər şeyi Yaradan olduğuna görə, onun üçün bu, problem deyildi!

**Matta həmçinin Allahın lazım olan bir şeyi möcüzə ilə təmin etdiyi başqa bir əhvalat danışır.**

**Matta 17:24-27-ni oxuyun.**

7. Məbəd vergisini yığanlar Peterdən nə soruşdular? (24-cü ayə)
8. 25-26-cı ayələri oxuyun. Sizcə, bu ayələrdə İsa Peterə o sözü dedikdə nəyi nəzərdə tuturdu? Vergi məbəd üçün idi. Məbədin kimin evi olduğu və İsanın kim olduğu barədə düşünün.
9. 27-ci ayəni oxuyun. İsanın dediyinə görə, onlar nə üçün vergi ödəməlidirlər?

   Vergini ödəyəcək pulu əldə etmək üçün Peterə nə etməyi buyurdu?
10. Özünüzü Peterin yerində təsəvvür edin. Siz İsanın dediyini yerinə yetirərdinizmi?

**Qeyd:** Peter İsanın ardınca getməmişdən əvvəl balıqçı idi, amma yəqin ki, o vaxta kimi balığın ağzından heç pul tapmamışdı! Buna baxmayaraq, 4-cü dərsdə oxuduğumuz hekayədə Peter bütün gecə balıq tutdu, lakin heç nə tutmamış olduğu halda İsanın sözünə görə toru atdığı kimi, bu əhvalatda da İsanın dediyini yerinə yetirdi və məhz lazım olan pulu tapdı! Allahın buyurduğu iş bizə mənasız gəlsə belə dediyinə əməl etmək nə qədər vacibdir?

11. Sizcə, Peter balığın ağzında pulu görəndə nə düşünə bilərdi?

**Tətbiq və dua:** Allah bütün tarix boyunca çıxılmaz vəziyyətdə qalmış insanların ehtiyaclarını möcüzələrlə ödəmişdir. Pulun, yeməyin və digər vacib şeylərin möcüzə ilə təmin olunması barədə çoxlu hekayələr var. Bəzən Allah, balığın ağzındakı pul kimi qeyri-adi vasitələrlə ehtiyaclarımızı ödəyir. Siz Allahın hər kəsin ehtiyaclarını gördüyünə və əhəmiyyət verdiyinə inanırsınızmı?

Öz cəmiyyətinizdə və ölkənizdə gördüyünüz ehtiyaclar haqqında qrupda bölüşün. Dünyada olan digər hansı ehtiyacları bilirsiniz? Bütün dünyada

olan milyonlarla qaçqınlar və həmçinin müharibədən, zəlzələdən və ya aclıqdan zərər çəkən insanlar haqqında düşünün. Matta 15:33-də şagirdlər məyus olduqları kimi, siz də bəzən dünyadakı ehtiyaclar haqqında eşidəndə ruhdan düşüb özünüzü köməksiz hiss edirsinizmi?

Yeddi çörək və bir neçə kiçik balıq, çox insanı doydurmağa kifayət etməzdi. Lakin şagirdlər bunları İsaya gətirəndə, minlərlə insan doydu! "Hamı yeyib doydu" (37-ci ayə). Üstəlik qalan hissələr əvvəl əllərində olandan daha çox idi!

Siz İsaya nə verə bilərsiniz? Yalnız pul və ya əşya deyil, həmçinin vaxtınız və qabiliyyətləriniz haqqında düşünün. Əlinizdə olan çox görünməyə bilər, amma siz Allahdan imanınızı artırmağı diləyin ki, İsa çörəklə balığı çoxaltdığı kimi sizin əlinizdə olanı da çoxaltsın. İndi cəmiyyətinizdə və dünyada gördüyünüz xüsusi ehtiyaclar üçün qrupda dua edin. Allahdan diləyin ki, bu dualarınızın cavabında payınız olsun deyə nə edə biləcəyinizi sizə göstərsin.

## 22. Kor adamın şəfa tapması Allaha izzət gətirir

Kor adam görür, dini rəhbərlər isə kor olur

**Giriş müzakirəsi:** İnsanların bu gün möcüzələri Allahdan başqa səbəblərlə izah etməyə necə çalışdıqlarını müzakirə edin. (Məsələn, kainatın meydana gəlməsi haqqında düşünün.)

**Yəhya 9-cu fəsli oxuyun.**

1. 1-2-ci ayələri oxuyun. Şagirdlər İsaya nə sual verdilər?

   Sizcə, bu günümüzdə də bir çox insanlar hər cür xəstəliyin və ya əlilliyin həmişə günahın nəticəsi olduğu qənaətindədirlər? Bu sualı qısaca müzakirə edin.

2. 3-5-ci ayələrdə İsanın cavabını oxuyun. İsanın dediyinə əsasən, bu insan nə üçün kor olaraq doğulmuşdu? (Fikir verin ki, İsa insanların hər zaman mütləq bu səbəbdən əzab çəkdiklərini təsdiqləmir.)

   Sizcə, bu gün bəzi insanların müxtəlif xəstəliklərdən ya da çətinliklərdən əzab çəkmələrinin səbəbi bu ola bilərmi?

   Sonra İsa Öz işindən danışmağa başladı. Ata Allah İsanı dünyaya göndərdikdə Ona xüsusi işlər tapşırmışdı ki, bu işlərlə İsa Allahın qüdrətini və izzətini göstərsin. Yer üzündəki həyatınızda Allahı izzətləndirmək üçün sizə də müəyyən işlərin tapşırıldığına inanırsınızmı?

3. 6-7-ci ayələri oxuyun. İsa nə etdi? Kor adam nə etdi? Bu adam vəziyyətinin yaxşılaşacağına inandığını və ya heç olmasa ümid etdiyini necə göstərdi?

4. 8-12-ci ayələrdə bu adamın qonşuları ilə söhbətini oxuyun. Onlar baş verənlərə təbii bir izah axtararkən necə çaşqınlıq içində olduqlarına fikir verin. Aşkar olan, amma ruhən kor olan bu adamların görə bilmədikləri izah nə idi?

5. 13-17-ci ayələri oxuyun. Qonşular sonra bu adamı alim saydıqları, bütün suallarla müraciət etdikləri dini rəhbərləri olan fariseylərin yanına apardılar.

   14 və 16-cı ayələrə baxın. Fariseylər nə üçün İsanın Allah tərəfindən göndərilmiş şəxs olmadığı nəticəsinə gəldilər?

**Qeyd:** Yəhudilərin İsanı Şənbə gününə əməl etməməkdə günahlandırdıqları digər əhvalatlarda olduğu kimi, bu əhvalatda da İsa Allahın Musaya verdiyi Qanunu pozmadı. Lakin O, yəhudi dini rəhbərlərin Qanuna əlavə etdikləri digər adətlərin hamısına əməl etmirdi. İsa Şənbənin həqiqi məqsədini anlayırdı.

6. 16-cı ayədə bu adamın şəfasına dair yəhudi rəhbərlər arasında hansı fikir ayrılığı var idi?

   Şəfa tapmış adam İsa haqqında nə deyirdi?

7. 18-23-cü ayələri oxuyun. Sonra yəhudilər izahat üçün kişinin valideynlərinin yanına getdilər. (Burada "yəhudilər" deyildikdə dini rəhbərlər və ya fariseylər nəzərdə tutulur.) 20-21-ci ayələrdə onun valideynləri necə cavab verdi?

   22-23-cü ayələrə əsasən, onlar nə üçün elə cavab verdilər? İnsanlardan qorxmaları onları həqiqəti etiraf etməkdən necə saxladı?

8. Fariseylərin şəfa tapmış adamla ikinci söhbətini oxuyun (24-34-cü ayələr). Fariseylərin ruhən kor olduqları necə aşkar olur? (Xüsusilə 24 və 29-cu ayələrə diqqət yetirin. 26-cı ayəyə də nəzər salın. Onlar həqiqətdən başqa bir izahat axtararaq bir neçə dəfə eyni sualı verdilər.)

   Əvvəllər kor olan adamın "bəsirət gözü"nə malik olduğu necə aşkar olur? (Xüsusilə 25 və 30-33-cü ayələrə diqqət yetirin.)

9. 28 və 34-cü ayələrə baxın. Fariseylər bu adamın məntiqi qarşısında aciz qalanda və möcüzənin baş verdiyini təkzib edə bilməyəndə nə etdilər?

   Sizcə, indiki dövrdə də insanlar həqiqəti qəbul etmək istəməyəndə buna bənzər hərəkət edirlərmi?

   Sizcə, nə üçün insanlar bəzən Allahın fövqəltəbii işini olduğu kimi qəbul etmək istəmirlər?

10. 35-41-ci ayələri oxuyun. Fariseylər kişini məbəddən bayıra atdılar. Bəs İsa onu Öz Padşahlığına necə dəvət etdi? (35-38-ci ayələr)

    Bu adam dini rəhbərlər tərəfindən qəbul edilməkdən daha da qiymətli olan hansı xəzinəni əldə etdi?

11. İsanın 39-cu ayədə söylədiyi sözləri şəfa tapmış adama necə aid idi?

Bəs fariseylərə necə aid idi?

12. 41-ci ayəyə əsasən, fariseylərin günahı nə idi? Onlar nəyi görməkdən imtina etdilər?

**Tətbiq və dua:** Fariseylər Allahın Qanununu və Əhdi-Ətiqdəki peyğəmbərlikləri yaxşı bilirdilər. Onlar İsanın bu peyğəmbərlikləri yerinə yetirdiyini hamıdan tez görməli idilər. Amma görmədilər. İsanın möcüzələri Onun Kim olduğunun aydın əlamətləri idi, amma onlar bunu görmək istəmədilər.

Romalılara 1:18-21-i oxuyun. Bu ayələr öyrədir ki, biz Allahın aşkar etdiyi şeylərə inanmaqdan imtina edəndə ağılsızlığı və qaranlığı (ruhani korluğu) seçirik. Kor adamın valideynləri və qonşuları insan qorxusu üzündən ruhən kor olmağı seçdilər. Onlar o dövrün dini rəhbərləri tərəfindən rədd edilmək və ya məbəddən kənarlaşdırılmaq istəmirdilər.

Hər birimizin həyatında ruhən kor olduğumuz sahələr vardır. Özünüzə bu sualı verin:

"İnsan qorxusu (yəni başqa insanlar nə düşünəcəklər, nə deyəcəklər, nə edəcəklər qorxusu) bəzən İsa və Allah haqqında aydın həqiqəti özümə və başqalarına etiraf etməyimə mane olurmu?"

Bunun sizin Allahı daha yaxşı tanımağınıza necə maneə törədə biləcəyini düşünün. Siz nəyin bahasına olursa-olsun İsanın ardınca getməyə hazırsınızmı? İndi dua edin. Həyatınızda ruhən kor olduğunuz sahələri sizə göstərməsini və insan qorxusuna qalib gəlməkdə sizə kömək etməyinizi Rəbdən istəyin.

> *Sonra [İsa] hamısına söylədi: "Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və hər gün çarmıxını götürüb ardımca gəlsin". (Luka 9:23)*

## 23. Kor adamın tədricən görməyə başlaması

**Giriş müzakirəsi:** Həyatınızda Allahın duanıza tədricən cavab verdiyi, yəni Ondan dilədiyiniz hər şeyi birdən deyil, az-az, hissə-hissə verdiyi olubmu? Sizcə, Allahın bəzən dualarımıza bu cür cavab verməsinin hansı səbəbləri ola bilər?

**Mark 8:22-26-nı oxuyun.**

1. 22-ci ayəyə baxın. Bəzi adamlar İsanın yanına kimi gətirdilər və İsadan nə istədilər?

2. 23-cü ayəni təkrar oxuyun. İsa o kişini haraya apardı?

   İsanın nə üçün bunu etdiyi izah edilmir. Bəlkə, möcüzə görsə belə, inanmayacaq olan imansız izdihamdan uzaqlaşmaq üçün. İmansızlığımızın İsanın kim olduğunu görməyimizə və bizə vermək istədiyi xeyir-duanı qəbul etməyimizə necə təsir etdiyini müzakirə edin.

3. İsanın sonra etdiyi şey bizə qəribə gələ bilər. O nə etdi? (23-cü ayə)

   İsa adamdan nə soruşdu?

**Qeyd:** İsanın möcüzələri haqqında oxuduğumuz digər əhvalatlarda möcüzənin dərhal baş verdiyini gördük. Burada sual verməyə ehtiyac yox idi. İsanın bu adamdan bir şey görüb-görmədiyini soruşması sanki İsanın şəfanın hələ tam baş vermədiyinə bələd olduğunu göstərir.

4. Kor adam nə cavab verdi? (24-cü ayə)

   O, uzun zamandan sonra ilk dəfə aydın olmasa belə bir şey görəndə, sizcə, nə düşündü? (Bu adamın ağacların necə göründüyünü bildiyindən anlaşılır ki, onda əvvəllər görmə qabiliyyəti olmuşdu.)

5. 25-ci ayəni oxuyun. Sonra nə baş verdiyini təsvir edin. İndi bu adam necə görürdü?

6. İsanın qarşılaşdığı insanların əksəriyyəti fiziki kor deyildilər, amma ruhən kor idilər, çünki İsanın həqiqətən kim olduğunu dərk etmirdilər. Hətta İsanın şagirdləri belə Onun kim olduğunu və yer üzünə hansı məqsədlə gəldiyini anlamırdılar. Bu kor adamın fiziki görmə qabiliyyətinin tədricən bərpası İsanın şagirdlərində ruhən baş verən hadisəni necə göstərə bilər?

7. İsanın nə üçün bu adama kəndə deyil, evə getməsini buyurduğu barədə nə düşünürsünüz? (26-cı ayə)
8. 22-26-cı ayələri təkrar oxuyun. Bu qısa əhvalatda gördüyünüz qeyri-adi şeylərin hamısını sadalayın.

**Qeyd:** İsa heç vaxt heç nəyi təsadüfi, yəni məqsədsiz etməzdi. Bundan əlavə, biz Onun qüdrətinin qeyri-məhdud olduğunu bilirik. O, çox insana bircə söz və ya toxunuşla şəfa vermişdi. Bu adama isə O, izah etmədiyi bir səbəbdən bu yolla şəfa verməyi qərara aldı: onu izdihamın arasından kənara çəkib gözünə tüpürdü, sonra bir dəfə deyil, iki dəfə toxunaraq şəfa verdi. Bu adam, yəqin ki, birinci toxunuşdan sonra ən azı bir az görə bilməyinə sevindi. Amma İsa onu qismən şəfa tapmış vəziyyətdə qoymadı. O bir daha əlini uzadıb ona toxundu.

9. Öz həyatınızı düşünün. İsanı aydın görmək üçün ikinci, üçüncü, dördüncü və ya yüzüncü toxunuşa ehtiyacınız var idimi? Bunu öz həyatınızda necə gördüyünüzü qrupda müzakirə edin.

**Dua and Tətbiq:** İsa fiziki kor gözləri bir anda aça bilərdi. O ki qaldı ruhani gözlərin açılmasına, bu, həyat boyu davam edən uzun prosesdir. Biz İsanın kim olduğunu və İsada kim olduğumuzu dərk etməkdə böyüməkdə davam edirik. İndi bir neçə dəqiqə sükut edərək İsanın kim olduğunu necə anladığınızı düşünün. Nələri aydın görürsünüz? Nələrdən hələ əmin deyilsiniz?

Həvari Paul Efesdəki imanlılara yazdığı məktubunda onların daxili gözlərinin açılması üçün dua etdi:

> *"Dua edirəm ki, Rəbbimiz İsa Məsihin Allahı olan izzətli Ata Özünü sizə tanıtmaq üçün hikmət və vəhy ruhunu versin. Qoy O, qəlbinizin gözünü nurlandırsın ki, Onun çağırışından yaranan ümidin nə olduğunu, müqəddəslərə verdiyi irsin izzətinin necə zəngin olduğunu, Onun böyük qüvvəsinin fəaliyyətinə görə iman edən bizlərə sərf etdiyi qüdrətinin hədsiz böyüklüyünün nə olduğunu görəsiniz". (Efeslilərə 1:17-19)*

Bu ayələrdə Paulun imanlıların ruhani gözləri ilə nələri görmələrini istədiyini qrupda müzakirə edin. Siz bunları özünüz üçün arzu edirsiniz? Paulun bu ayələrdə dua etdiyi hər şeyi Allah sizə versin deyə hər biriniz ayrı-ayrılıqda sakitlikdə dua edin. Sonra qrupda hər kəsin bu ayələrdə deyilənlərə nail olması üçün də dua edin. Həmçinin İsanı tanımayan tanışlarınızın da ruhani gözlərinin açılması üçün dua edin.

## 24. İsa oğlanı cinlərin köləliyindən azad edir

**Giriş müzakirəsi:** Siz kiminsə şəfa tapması üçün dua etmisinizmi? Yaxud başqalarının bir xəstənin şəfası üçün dua etdiklərinin şahidi olmusunuzmu? Öz təcrübəniz barədə danışın.

Bu əhvalat həm Matta Müjdəsində, həm də Mark Müjdəsində nəql olunur. Bu dərsdə biz hər ikisinə baxacağıq.

**Matta 17:14-21-i oxuyun.**

1. Bu adamın oğlunun vəziyyətini təsvir edin (15-ci ayə). Ata oğlunun şəfa tapması üçün nə etdi? (16-cı ayə)

   Oğul şəfa tapdımı? Nə üçün şəfa tapmadı?

2. 17-ci ayəyə baxın. İsa o nəsli necə təsvir etdi?

   Sizcə, nə üçün onları bu cür təsvir etdi?

3. 18-ci ayədə İsa nə etdi? Oğlana nə oldu?

4. 19-cu ayədə şagirdlər İsa ilə tək qalanda Ondan nə üçün cinləri qova bilmədiklərini soruşdular. 20-ci ayədə İsa nə cavab verdi?

   İsa dağları yerindən tərpətmək üçün nə qədər imanın lazım olduğunu dedi?

   İsa Matta 13:31-32-də də xardal toxumundan danışmışdı. Bu ayələri oxuyun. Xardal toxumu çox kiçik olsa da, daxilindəki həyat, böyük bir bitkini yetişdirməyə qadirdir. İndi Matta 13:31-32 ilə yanaşı Matta 17:20-ə də baxın. Sizcə, bu ayələrdə İsa imanı xardal toxumuna bənzətməklə iman haqqında nə öyrədirdi?

**Qeyd:** İsanın şagirdləri xəstələrin onlar vasitəsilə şəfa tapdıqlarını görmüşdülər (Luka 9:1-2, 6 və Luka 10:1, 8-9, 17). Görünür, İsa onları əvvəl xidmətə göndərəndə onların dua etdikləri hər kəs şəfa tapır və ya cinlərdən azad olurdu (Luka 10:17). Amma bu dəfə fərqli oldu.

5. İndi isə Matta 17:21-ə baxın. (Bir çox tərcümələrdə bu ayə səhifəaltı qeyddə verilir, çünki o, Müqəddəs Yazıların bütün nüsxələrinə daxil deyildir.) İsanın dediyinə görə bəzi vəziyyətlərdə nə lazım olur?

**İndi eyni hekayəni Mark 9:17-29-da oxuyun.** Mark həmçinin İsa ilə oğlanın atasının söhbətini də nəql etmişdir.

6. 20-24-cü ayələri təkrar oxuyun. 22-ci ayədə ata nə xahiş etmişdi? Sizcə, onun böyük imanı var idi?

7. İndi isə 23-cü ayədə İsanın cavabını oxuyun. İsanın burada dediyi sözlər Matta 17:20-də şagirdlərin sözlərinə necə bənzəyir? (Həmin ayəyə təkrar baxın.)
8. Ata dərhal nə dedi? (24-cü ayə) Sizcə, İsanın 23-cü ayədə dediyi sözlər ona şübhəni imanla əvəz etməkdə necə kömək etdi?
9. 24-cü ayəni təkrar oxuyun və atanın köməyə ehtiyacını necə təvazökarlıqla qəbul etdiyinə diqqət yetirin.

   İsa bu adamı şübhələrinə görə məzəmmət etdi, yoxsa imanda zəif olsa belə, imanını mükafatlandırdı? (25-27-ci ayələrə baxın.) Fikirlərinizi izah edin.
10. Həyatınızda iman etmək istədiyiniz, lakin şübhələrlə mübarizə apardığınız zamanlar olubmu?

    İsanın bu ata ilə söhbətindən nə öyrənə bilərik?
11. Mark 9:28-29-u (səhifəaltı qeyd daxil olmaqla) oxuyun. Bunu Matta 17:21 (səhifəaltı qeyd) ilə müqayisə edin. İsa bəzən adamın cindən azad olması üçün nəyin vacib olduğunu dedi?

**Tətbiq və dua:** Biz bu ayələrdən şəfa barədə nəyi öyrənə bilərik? Aşağıdakı sualları müzakirə edin:

- Şəfanın (bu halda pis ruhlardan azad edilmə) imanla nə əlaqəsi varmı? (Mark 9:23. Həmçinin İbranilərə 11:6-ya baxın.)
- Allahın bizim vasitəmizlə qeyri-mümkün şeylər etməsi üçün nə qədər imanımız olmalıdır? (Matta 17:20)
- Duamızın cavabını dərhal almırıqsa, duada və orucda nə üçün təkidlə davam etməyimiz vacibdir? (Matta 17:21; səhifəaltı qeyd)
- Şübhələrimiz olsa, nə etməliyik? (Mark 9:24)

Bu gün (və tez-tez qrupda) cindən azad olmağa və şəfa tapmağa ehtiyacı olan tanışlarınız üçün imanla dua etməyə vaxt ayırın. Əgər şübhələriniz varsa və ya duanızın cavabını dərhal görməsəniz, bu dərsdə oxuduğumuz iki mətn parçasını (Matta 17:14-21 və Mark 9:17-29) təkrar nəzərdən keçirin. Mark 9:24-də uşağın atasının sözləri ilə dua edin. Həmçinin oruc tutmaq və Müqəddəs Ruhdan müdriklik və qüdrət diləmək də faydalı ola bilər.

*Allahın zənginliyi nə böyük,*
*Hikməti və biliyi nə dərindir!*
*Onun hökmləri necə də ağlasığmaz,*
*Yolları necə də anlaşılmazdır!*
*«Rəbbin ağlını kim dərk etdi?*
*Ona kim məsləhətçi oldu?»*
*«Kim Ona bir şey verdi ki,*
*Əvəzini Ondan istəyə bilsin?»*
*Çünki hər şeyin mənbəyi Odur,*
*hər şey Onun vasitəsilə*
*və Onun üçün var oldu.*
*Ona əbədi olaraq izzət olsun!*
*Amin.*
*Romalılara 11:33-36*

## Allah bu günlərdə də möcüzələr yaradırmı?

**Allah bu günümüzdə də möcüzələr yaradacaqmı və bunu hamı üçün edəcəkmi?**

Bəzən biz düşünürük ki, görəsən, möcüzələr yalnız İsa və ilk həvarilər vasitəsiləmi baş vermişdi? Hər kəs dua edib Allahdan möcüzə diləyə bilərmi və Allah belə duaya cavab verib möcüzə yaradarmı? Allahın Kəlamı bu barədə nə deyir?

İsa şagirdlərinə dedi:

*“Allaha imanınız olsun. Sizə doğrusunu deyirəm: kim bu dağa ‘Qalx, dənizə atıl!’ deyərsə və ürəyində şübhə etmədən dediyinin olacağına inanarsa, onun üçün ediləcək. Buna görə sizə deyirəm: dua edib hər nə diləsəniz, inanın ki, artıq almısınız və istədiyiniz sizin üçün ediləcək”. (Mark 11:22-24)*

Biz Əhdi-Cədidi oxuduqca İsanın bir çox ardıcılları vasitəsilə möcüzələrin baş verdiyini görürük. Həvarilərin İşləri kitabında Allahın həm həvarilər, həm də həvari olmayan adi imanlılar vasitəsilə göstərdiyi möcüzələr təsvir olunur. Misal üçün, bir evdə yığışmış imanlıların dua etməsi ilə Peter möcüzəli şəkildə zindandan azad edilmişdir (Həvarilərin İşləri 12:1-17, xüsusilə 5-ci ayə). Yaqub 5:14-15-də xəstələrin şəfa tapması üçün dua etmək məsləhət verilir. 1 Korinflilərə 12:7-11-ə Allahın xalqına “hər kəsə xeyri üçün” (7-ci ayə) verilmiş müxtəlif ruhani ənamlar arasında şəfa və möcüzələr yaratmaq da daxildir. Eləcə də 1 Korinflilərə 14:1-də *“ruhani ənamları... səylə istəmək”* məsləhət verilir.

İsa həmçinin Öz şagirdlərinə bunu dedi:

*“...Mənə iman edən şəxs Mənim etdiyim işləri özü də edəcək, hətta bunlardan da artığını edəcək. Çünki Mən Atanın yanına gedirəm və Mənim adımla hər nə diləsəniz, onu edəcəyəm ki, Ata Oğulda izzətlənsin. Əgər Mənim adımla Məndən bir şey diləsəniz, onu edəcəyəm”. (Yəhya 14:12-14)*

İsa kimin Onun gördüyü işləri və hətta *bunlardan da artığını* görəcəyini deyir? Ona iman edən şəxsin! Allah *bizim* (yəni bütün imanlıların) imanımızın olmasını və böyük şeylər arzulamağımızı istəyir. Yaqub

5:16-da *"Saleh adamın duası çox güclü və təsirlidir"* deyilir. Bizim dualarımız çox güclüdür, insanları və vəziyyətləri dəyişdirməyə qadirdir.

**Rəbb bizi hər şeyi diləməyə çağırırsa, nə üçün biz bu günlərdə daha çox möcüzələr görmürük?**

Bəzən biz Allahdan diləmədiyimiz üçün möcüzələri görmürük (Yaqub 4:2 və Matta 7:7-8). Bəzən dilədiyimiz halda Allahın həqiqətən möcüzə edəcəyinə inanmırıq (Matta 21:22). Amma bəzən imanlılar böyük imanla Allahdan möcüzəli şəfa və ya kömək diləyirlər, bununla belə dualarının cavabını görmürlər. Bəlkə də, sizin başınıza da belə şeylər gəlib. Bəlkə də siz düşünmüsünüz ki: "Allah mənim duamı həqiqətən eşidirmi? Bəlkə mənim kifayət qədər imanım yoxdur?" Hətta ola bilsin ki, Allahın həqiqətən var olmasından ya da sizin qayğınıza qalmasından şübhələnmisiniz.

Dua, iman və möcüzələrlə bağlı çoxlu sirlər var. Bunlardan yalnız məhəbbət dolu Atamız agahdır. Amma Allahın Kəlamında bir qədər anlayış əldə etməyimizə yardım edə biləcək bəzi ayələr də var. Yaqub 4:2-3-də deyilir ki, bəzən pis niyyətlə dilədiyimiz üçün dilədiklərimizi almırıq. Bəzən Allah imanımızı sınamaq üçün sınaq və çətinliklərə yol verir. Yaqub 1:2-4-də belə deyilir:

> *"Ey qardaşlarım, müxtəlif sınaqlarla üzləşəndə bunu böyük bir sevinc hesab edin. Çünki bilirsiniz ki, imanınızın sınaqdan keçməsi dözüm yaradır. Dözüm də öz əməlini kamil etsin ki, siz yetkin və kamil adamlar olasınız, heç bir çatışmazlığınız olmasın".*

Allah yetkin və kamil olmağımızı istəyir. Ruhani vəziyyətimizin sağlam olması fiziki sağlamlığımızdan daha dəyərlidir, çünki əbədiyyətdə mükafat ümidini verir. Peter sınaqlardan bəhs edərkən deyir ki, sınaqlar imanımızın həqiqi olduğunu təsdiqləyir.

> *"...belə ki imanınızın sınaqdan keçməsi İsa Məsihin zühurunda sizə tərif, izzət və şərəf gətirsin. Bu imanınız odla təmizlənsə belə, fani qızıldan daha çox dəyərlidir". (1 Peter 1:7)*

**Əgər biz imanla dua edib cavab almırıqsa və ya "xeyr" cavabı alırıqsa, nə etməliyik?**

Bəzən biz duada dilədiyimizi almayanda tez ruhdan düşürük. Zəburda Rəbbə ümid bağlamağa və hərəkət etməsini gözləməyə dair çoxlu nəsihətlər vardır. Zəbur 37:7-də *"Rəbbin hüzurunda sükut et, Onu səbirlə gözlə"* - deyilir. Allahın bizi gözlətməsinin bütün məqsədlərini dərk etməsək də, çox vaxt O bu yolla Onun xeyirxahlığına və sadiqliyinə imanımızı artırır. Biz də 19-cu dərsdə bəhs olunan qeyri-yəhudi qadın kimi (Matta 15:21-28) Allahdan diləməyə və tez cavab almasaq da, bizə lazım olan cavabı axtarmağa davam edəcəyikmi? Luka 18:1-də İsa insanlara *"daim dua etmək və heç ruhdan düşməmək lazım olduğu"*nu anlamalarına yardım etmək üçün bir məsəl danışdı. Məsəlin sonunda İsa bu sualı verdi: *"Bəs Bəşər Oğlu gələndə yer üzündə iman tapacaqmı?" (Luka 18:8)* Sınaqlara dözən, bir şey üçün təkidlə dua edən, dilədiyini hələ görmədiyi halda inam və ümidlə diləməyə davam edən iman çox qiymətlidir və Allaha böyük izzət gətirir.

Biz cavab görməyəndə və ya həvari Paul kimi istəmədiyimiz cavabı alanda Rəbbə güvənəcəyikmi? 2 Korinflilərə 12:7-10-da Paul, çoxlu möcüzələr görən böyük həvari olduğu halda, onu çox narahat edən bir şeyin (dəqiq nə olduğunu bilmirik, o buna *"cismim üçün bir tikan"* deyir) ondan uzaqlaşdırılmasını Rəbdən üç dəfə dilədiyindən danışır. Allah bunu uzaqlaşdırmaq əvəzinə Paula bunun öhdəsindən gəlmək üçün kifayət edən lütf vəd etdi. Paul bu cavabla kifayətləndi və hətta əzablarına daha da sevindi, çünki onun zəifliyi Allahın gücünün daha da görünməsinə imkan verdi. Əgər siz Paul kimi vəziyyətinizin dəyişməsi üçün Allaha təkrar-təkrar səmimi dua etməyinizə baxmayaraq cavab görmür ya da "xeyr" cavabı alırsınızsa, Onun sizə lütf və güc verəcəyinə inanacaqsınızmı? Allahın sizin əziyyətləriniz vasitəsilə daha çox izzət alacağına sevinəcəksinizmi?

Biz sınaqlardan keçəndə Allahın çətin vaxtlarda Ona inanmağa davam edən hər kəsi mükafatlandıracağına söz verdiyini düşünüb ruhlana bilərik. Yaqub belə deyir:

> *"Sınağa dözən adam nə bəxtiyardır! Çünki sınaqdan keçəndən sonra Rəbbin Onu sevənlərə vəd etdiyi həyat tacını alacaq". (Yaqub 1:12)*

**Biz möcüzələr üçün dua etməliyikmi?**

Həyatımızın bütün sınaq və çətinliklərində özümüz və başqaları üçün Allahın fövqəltəbii köməyi üçün dua etməliyikmi? Bütün dünyada İsaya iman edənlərin öz dualarına möcüzəli cavablar aldıqlarına dair gözəl şəhadətləri var. Allah bizim Atamızdır və Ondan özümüzün və başqalarının ehtiyacları üçün diləməyimiz Onu sevindirir. O, dualarımıza cavab olaraq Öz gücünü və izzətini bizə fövqəltəbii yolla göstərməkdən zövq alır. Amma xəstəlikdən, yoxsulluqdan ya da təqibdən əziyyət çəkən imanlıların Allaha ümid bağlamaları həmçinin bunu görənlər üçün Allahın lütfünün və sadiqliyinin gözəl şəhadətidir. Onlar dualarına möcüzəli cavablar almayanda belə Rəbbi izzətləndirir və həmd edirlər. İbranilərə 11:32-40-da belə deyilir:

*"Daha nə deyə bilərəm? Gideon, Baraq, Şimşon, İftah, Davud, Şamuel və başqa peyğəmbərlər barəsində danışsam, vaxtım çatmaz. İman vasitəsilə onlar padşahlıqları məğlub etdilər, ədaləti icra etdilər, vədlərə nail oldular, aslanların ağızlarını bağladılar, şiddətli alovu söndürdülər, qılıncın ağzından qaçdılar, zəiflikdən qüvvətləndilər, döyüşdə güclü oldular, yadellilərin ordularını qovdular. Qadınlar öz ölülərini dirilmiş geri aldılar. Bəziləri işgəncə çəkəndə qurtulmaqdan imtina etdilər ki, dirilib daha yaxşı həyata nail olsunlar; digərləri də təhqir olunub döyüldülər, habelə zəncirlərə və həbslərə məruz qaldılar; onlar daşqalaq edildilər, mişarlanıb bölündülər, qılıncdan keçirilib öldürüldülər. Bəziləri isə qoyun dərisinə və keçi gönünə bürünərək gəzib-dolaşdılar, yoxsulluğa, əzab-əziyyətə məruz qaldılar. Dünya onlara layiq deyildi. Onlar səhralarda, dağlarda, mağaralarda və yeraltı oyuqlarda dolaşıb gəzdilər. Onların hamısı iman vasitəsilə müsbət şəhadət aldı..."*

Bu ayələrdə çətin vəziyyətlərdən möcüzə ilə qurtulan bir çox kişi və qadınların nümunəsi verilir, amma eyni zamanda qurtula bilməyən, ölümə qədər əzab çəkən insanlardan da bəhs olunur. Bunların hamısı – həm möcüzə görənlər, həm də görməyənlər – öz imanlarına görə təqdir olundular.

Qoy Rəbb bizə imanda böyüməkdə kömək etsin. Qoy biz ümid etdiyimiz cavabı alıb-almamağımızdan asılı olmayaraq, Allahın xeyirxahlığına və məhəbbətinə inanaraq möcüzələrini cəsarətlə diləməkdə davam edək.

**Aşağıda bizi Allaha iman edərək möcüzələr diləməyə təşviq edən daha bir neçə ayə verilmişdir:**

- Matta 17:20. (Şagirdlər nə üçün cini çıxara bilmədiklərini soruşanda İsanın cavabı.)
- Yəhya 15:7. (Biz İsada qalsaq, Ondan istədiyimiz hər şeyi diləyə bilərik.)
- Həvarilərin İşləri 3:16. (Şagirdlər şikəst adamın necə şəfa aldığını izah edirlər.)
- Həvarilərin İşləri 4:29-30. (İsanın şagirdləri Müjdə yolunda əziyyət çəkəndən sonra cəsarət, əlamətlər və möcüzələr üçün dua edirlər.)

**Aşağıda Həvarilərin İşləri kitabından İsanın ardıcıllarının Onun adı ilə etdikləri möcüzələr haqqında nümunələr verilmişdir:**

- Həvarilərin İşləri 3:1-11
- Həvarilərin İşləri 5:12-16
- Həvarilərin İşləri 8:4-8 (Həvarilərdən biri olmayan Filip vasitəsilə bir çox möcüzələr baş vermişdir.)
- Həvarilərin İşləri 9:32-35 və 36-43 (İki möcüzə Peter vasitəsilə baş vermişdir.)
- Həvarilərin İşləri 14:8-10
- Həvarilərin İşləri 20:7-12
- Həvarilərin İşləri 28:1-10

## 25. İsanın Şənbə günü göstərdiyi iki möcüzəsi dini rəhbərləri qəzəbləndirir

**Giriş müzakirəsi:** Sizin nə vaxtsa sümüyünüz sınıb və ya asan işləri görməyinizi çətinləşdirən bir zədəniz olubmu? Bəlkə də, bir yaxınınızın belə bir təcrübəsi olub. Uzun illər bu cür məhdudiyyətlərlə yaşamağın nə olduğunu bir neçə dəqiqə müzakirə edin.

**Luka 13:10-17-ni oxuyun.**

1. 10-cu ayəni təkrar oxuyun. İsa harada idi, nə edirdi və o gün nə günü idi?

2. 11-ci ayədə sinaqoqda olan o qadını da təsvir edin. Onun şikəstliyinin səbəbi nə idi? Nə vaxtdan bu problemdən əziyyət çəkirdi?

**Qeyd:** Bu hadisədə qadının şikəstliyinin ruhani səbəbi var idi. Amma bundan bütün fiziki xəstəliklərin kökündə ruhani problemlərin olduğu nəticəsini çıxarmaq yanlışdır. İnsanın şikəst və ya xəstə olmasının bir çox müxtəlif səbəbləri ola bilər. (Yəhya 9:1-3-ə baxın.)

3. 12-13-cü ayələri təkrar oxuyun. İsa o qadını görəndə nə etdi?

   İsa ona nə dedi? (12-ci ayə)

4. 13-cü ayədə İsa ona toxunanda nə baş verdi?

   Qadın necə reaksiya verdi?

   Bu qadın 18 il əzab çəkəndən sonra bir anda qurtulanda nə hiss etdiyini düşünün və müzakirə edin. Onun sevincini təsəvvür edin! Həyatının birdən-birə necə dəyişdiyini təsəvvür edin!

5. 14-cü ayəni nəzərdən keçirin. Qadının sevincindən fərqli olaraq, sinaqoq rəisi buna necə münasibəti göstərdi? O nə üçün hiddətləndi?

   Sinaqoq rəisi insanlara nə dedi?

   Siz onda əzab çəkən insanlara qarşı bir zərrə qədər mərhəmət görürsünüz? O ən çox nədən narahat idi?

6. 12-ci ayəni təkrar nəzərdən keçirin. Bu ayədən anlaşılır ki, qadın sinaqoqa şəfa tapmaq üçün gəlməmişdi. İsa Özü onu çağırdı. Rəis insanlara müraciət etsə də, sizcə, onun töhməti kimə aid idi?

**Qeyd:** Bu sinaqoq rəisi şəfanı bir növ iş sayırdı, buna görə də Şənbə günü şəfa vermənin günah olduğunu deyirdi. Əslində, Allahın yəhudilərə verdiyi Qanunda Şənbə günü şəfa vermənin qadağan olduğu deyilmir. Düşünün: əgər möcüzə baş veribsə, bunu edən, yəqin ki, Allahdır! Amma fariseylər bunu düşünmək istəmirdilər. Onlar İsanı Qanunu pozmaqda təqsirləndirmək üçün bir səbəb axtarırdılar. İsa əvvəllər onların ikiüzlülüklərini ifşa edərək onlara qarşı ağır sözlər dediyinə görə Ona qarşı qəzəbli idilər.

7. 15-17-ci ayələri təkrar oxuyun. İsa dini rəhbərləri necə adlandırırdı?

   Onlar necə ikiüzlülük edirdilər? Onların heyvanları ilə rəftarlarını əzab çəkən insanlara qarşı laqeydlikləri ilə müqayisə edin.

**Luka 14:1-6-nı oxuyun.**

8. Burada biz bayaq müzakirə etdiyimiz əhvalata bənzər bir əhvalatı oxuyuruq. İsa fariseylərin Onu izlədiklərini və öldürmək üçün bəhanə axtardıqlarını bilirdi, amma onlardan qorxmurdu. Burada biz yenə İsanın dini rəhbərləri susdurduğunu görürük.

   Sizcə, ola bilər ki, Luka 13:15-16 və 14:5-də İsa o sözləri qəzəblə deyib?

   Sizcə, qəzəblənməyin doğru olduğu zamanlar varmı? Bu dünyada haqlı olaraq qəzəblənə biləcəyimiz ədalətsizliyə misal gətirə bilərsinizmi?

9. Luka 13:17-ni oxuyun. İsanın töhməti Ona qarşı olanlara necə təsir etdi?

   İnsanlar İsanın etdiyi hər şeyə necə reaksiya verirdilər?

10. Bu iki əhvalatı təkrar oxuyun (Luka 13:10-17 və 14:1-6). Bu möcüzələrin İsa barədə nəyi göstərdiyini bir neçə dəqiqə müzakirə edin.

    Bunlar dini rəhbərlər barədə nəyi göstərir?

    Birinci möcüzə onu görən adi insanlar barədə nəyi göstərir?

**Tətbiq və dua:** Yuxarıda 9-cu bənddəki suallara təkrar baxın və sizin bunlara necə münasibət göstərdiyinizi düşünün.

- Ətrafınızda bu və ya digər şəkildə əzab çəkən insanlara qarşı sizin də ürəyiniz İsa kimi acıyırmı? Mümkünsə, onlara yaxşılıq etməyə, ürəkdirək verməyə çalışırsınız, yoxsa onlardan yan keçirsiniz (və bəlkə də, onların problemləri sizdə olmadığı üçün özünüzü bir az üstün sayırsınız)?
- Tanıdığınız insanlar əzab çəkəndə onlar üçün dua etməyə vaxt ayırırsınızmı? Allahın SİZİN vasitənizlə onlara şəfqət göstərmək və hətta şəfa vermə qüdrətini izhar etmək istədiyinə inanırsınızmı?
- Siz də fariseylər kimi düşüncənizə uyğun gəlməyən işləri tənqid edirsinizmi?
- Allah kiminsə həyatında gözəl bir iş görəndə, siz də o şəfa tapmış qadın və möcüzəni görmüş adamlar kimi sevinib Ona izzət verirsinizmi?

Rəbbin qarşısında bir neçə dəqiqə sükut edin və ürəyinizi necə dəyişmək istədiyini sizə göstərməsini Ondan diləyin. Bütün insanlara, xüsusilə də əzab çəkənlərə qarşı İsa kimi ürəkdən şəfqət göstərmək üçün necə böyüməli olduğunuzu düşünün. İndi qrupda Müqəddəs Ruhun sizə dediyi hər şey barədə dua etmək üçün vaxt ayırın.

Sonra tanıdığınız insanlar arasında xəstə olanlar ya da əzab çəkənlər üçün dua edin. Həm təklikdə, həm də qrupda başqaları ilə birlikdə tez-tez belə dua edin.

## 26. Təşəkkür edən adam ikiqat xeyir-dua alır

**Giriş müzakirəsi:** Xeyir-dua alanda təşəkkür etmək, sizcə, nə qədər vacibdir? Minnətdarlıq insanın ürəyinin vəziyyətinə dair nəyi göstərir? Fikirlərinizi müzakirə edin.

**Luka 17:11-19-u oxuyun.**

1. 11-ci ayəyə təkrar baxın. İsa harada idi?

**Qeyd:** Qalileya Yəhudeya ilə birlikdə yəhudilərin ölkəsi olan İsrailin bir hissəsi idi. Samariya isə Yəhudeya ilə Qalileya arasında yerləşən yad bir ölkə sayılırdı. Oranın əhalisi əsrlər öncə bütpərəstlərlə nigaha girmiş və bütlərə sitayiş etməyə başlamış yəhudilərin nəslindən idi. Yəhudilər samariyalılara yuxarıdan aşağı baxırdılar, çünki onlar qarışıq millət idilər və yeganə həqiqi Allaha ibadət etmirdilər. Ümumiyyətlə, bu iki xalq bir-birinə nifrət edirdi.

2. 12-13-cü ayələri təkrar oxuyun. İsanı kimlər qarşıladı? Onlar nə dedilər?

   Sizcə, İsanın onlar üçün nə edəcəyinə ümid edirdilər?

   Onlar niyə uzaqda durub bağırırdılar?

3. 14-ci ayədə İsa onlara nə dedi?

**Qeyd:** Müqəddəs Kitabda "cüzam" bir neçə növ dəri xəstəliklərini ifadə edir. Bu xəstəliklər bəzən yoluxucu olurdu, bəzən olmazdı, amma bunlara yoluxan insanlar həmişə natəmiz sayılırdılar. Kahinlər, insanın cüzama yoluxub-yoluxmadığını ayırd etmək üçün xüsusi təlim alirdılar. İnsanın həqiqətən cüzamlı olduğu müəyyən edilsə, onda onun məbəddə ibadət etməsi qadağan edilirdi və şəhərdən kənarda yaşamağı tələb olunurdu. Cüzamlı insanlar kiminsə yaxınlaşdığını eşidəndə "natəmiz, natəmiz!" deyə qışqırırdılar ki, heç kim onlara yaxın gəlməsin. Onlara toxunan hər kəs natəmiz sayılirdı. Cüzamlı adam sağaldığını görsə, kahinin yanına gedə bilərdi və kahin onu təmiz elan etsə, o, icmaya qayıdıb cəmiyyətin adi üzvü ola bilərdi.

4. Bu adamlar İsanın sözlərinə riayət etdilərmi? (14-ci ayə)

   Onlar İsadan ayrılıb kahinin yanına gedəndə bədənlərində hələ hər hansı bir dəyişiklik görməmişdilər. Onların itaəti imanlarının və ya ən azı ümidlərinin olmasına necə işarə edirdi?

5. Biz Allahdan bir şey almaq istəyiriksə, iman və itaət burada hansı rolu oynayır?

6. On adam kahini görməyə gedəndə nə baş verdi? (14-cü ayə) Cəmiyyətdən kənarda, bəlkə də, illərlə səfil həyat yaşamış bu insanların hamısı üçün o günün necə gözəl bir gün olduğunu təsəvvür edin.

7. 15-16-cı ayələri oxuyun. On nəfər cüzamlı şəfa tapandan sonra, onlardan biri nə etdi?

   Onun həmd və şükür edərək İsanın yanına qaçıb üzüstə Onun ayaqlarına düşməsini təsəvvür edin. Bu davranışlar onun ürəyinə dair nəyi göstərir? Bu adamın həyəcanını, minnətdarlığını, sevincini, təvazökarlıq və tabeliyini, məhəbbətini və sitayişini necə ifadə etdiyini müzakirə edin.

8. 16-cı ayədə bu insan haqqında hansı qəribə məlumatı öyrənirik? (1-ci sualdakı qeydə bir daha baxın.)

9. 17-18-ci ayələri oxuyun. İsa bu ayələrdə hansı 3 sualı verdi?

   Sizcə, O bu sualları verəndə nə düşünür və nə hiss edirdi? O nəyə təəccüblənmişdi?

10. 19-cu ayədə İsa o adama nə dedi?

    Fiziki şəfadan savayı bu adam İsadan nə aldı? (19-cu ayə. Orijinal dilində (yunan dilində) belə deyilir: “Sənin imanın səni *xilas* etdi”.)

    Onun aldığı iki xeyir-duadan daha dəyərlisi hansı idi?

**Tətbiq və dua:** Bu hadisədə iştirak edən adamların hamısı şəfa tapdı. Allah böyük mərhəməti və lütfünə görə onlardan naşükürlüklərinə görə bunu geri almadı. Amma onların doqquzu ruhən təmizlənmədi. Görünür, ürəkləri təkcə özlərinə, öz ehtiyac və istəklərinə köklənmişdi. Yalnız bir nəfərin imanı həm ruhən, həm də fiziki şəfa tapması ilə nəticələndi.

Biz də çox vaxt o doqquz nəfərə oxşamırıqmı? Allahın yaxşı hədiyyələrini istəyirik, amma Özünü istəmirik. Bizim nəzərimiz hədiyyəni verənə deyil, hədiyyəyə yönəlir. Biz Allahdan xeyir-dua alanda buna layiq olduğumuzu hesab edir, xudbin həyatımızı yaşamaqda davam edirik. Axırda biz də ruhən sağalmırıq, halbuki ruhani sağlamlığa fiziki sağlamlıqdan daha çox ehtiyacımız var.

Romalılara 5:8-də deyilir:

> *"Lakin Allah bizə olan məhəbbətini bununla sübut edir ki, biz hələ günahkar ola-ola Məsih bizim uğrumuzda öldü".*

Allahın bizə verdiyi ən böyük hədiyyə haqqında bir neçə dəqiqə düşünün. Buna cavab olaraq nə edəcəksiniz? Siz də cüzamdan təmizləndiyinə görə İsaya təşəkkür edən o adam kimi Onun ayağına düşərək ibadət edəcəksinizmi? İndi qrupunuzla birlikdə dua etməyə vaxt ayırın. Allaha təşəkkür edin və təsvirolunmaz hədiyyəsinə görə İsaya həmd edin.

## 27. İsa kor gözləri açır

(Bu əhvalat həmçinin Matta 20:29-34 və Luka 18:35-43-də yer alır. Ancaq orada kor adamın adı bildirilmir və Matta iki nəfər kor olduğunu deyir. Bundan əlavə, Matta 9:27-31-də İsanın iki kor adama şəfa verməsi hekayəsi buna oxşasa da fərqli bir əhvalatdır. Bu dərsdə bu şəfa möcüzələrinin hər ikisinə baxılacaq. İsanın dövründə İsraildə korluq xeyli yayılmışdı və İsa, yəqin ki, bir çox korlara şəfa vermişdi.)

**Giriş müzakirəsi:** Sizdə elə olubmu ki, bir şey üçün bütün varlığınızla dua edirdiniz, amma insanlar sizi ruhdan salırdı? Yaxud bəlkə Şeytan qulağınıza pıçıldayıb deyirdi ki, bunun üçün dua etməməlisiniz. Siz nə etdiniz? Əgər belə iş başınıza gəlməyibsə, bu vəziyyətdə nə edəcəyinizi müzakirə edin.

**Mark 10:46-52-ni oxuyun.**.

1. 46-cı ayəni təkrar oxuyun. Bu ayədə nə baş verdiyini öz sözlərinizlə təsvir edin.

   Bartimay kim idi? Qədim İsraildə bir kor dilənçinin həyatını təsəvvürünüzə gətirin və Bartimayın həyatının necə ola biləcəyini təsvir edin.

2. 47-48-ci ayələri oxuyun. Bartimay kor olduğu üçün nə baş verdiyini görə bilmirdi, amma izdihamın səsini eşidirdi. O, İsanın oradan keçdiyini eşidəndə nə etdi?

   Onun rəhm diləyərək bağırması həm təvazökarlığını, həm də imanını necə göstərir?

**Qeyd:** İsa Nazaretdən idi və atası Yusif sayılırdı. Bəs onda Bartimay nə üçün Onu “Davudun Oğlu” deyə çağırırdı? Təqribən min il bundan əvvəl Allah padşah Davudun nəslindən Məsihin gələcəyini vəd etmişdi. İsanı “Davudun Oğlu” adlandırmaq, Onu vəd olunmuş Məsih kimi tanımaq idi. Şübhəsiz ki, Bartimay İsanın yaratdığı möcüzələr haqqında eşitmişdi və ona görə də İsanın vəd olunmuş Məsih olduğuna iman edirdi.

3. Bartimay insanlar onu məzəmmət edəndə necə cəsarət göstərdi? (48-ci ayə)

4. 49-cu ayəni təkrar oxuyun. İsa Bartimayın əzmkarlığına necə reaksiya verdi?

   Bu ayə sizi ehtiyaclarınızla İsa Məsihə müraciət etməyə necə ruhlandırır?

5. 50-ci ayədə kor adamın reaksiyasını təsvir edin.

6. 51-ci ayədə İsa hansı sualı verdi?

   Sizcə, O niyə bu sualı verdi? Bu adamın nə istədiyi aydın deyil idimi?

7. Bartimay necə cavab verdi?

   Sizcə, bəzən Allaha bizim üçün konkret nə etməsini istədiyimizi söyləməyimiz vacibdırmı? Sizcə, bu nə üçün vacib ola bilər?

8. 52-ci ayəni oxuyun. İsa kor adama nə dedi? İsa bunu deyəndə nə baş verdi?

   Bartimay şəfa tapmazdan əvvəl şəfa tapacağına imanı olduğunu necə göstərdi?

9. Bartimay şəfa tapandan sonra nə etdi?

   Luka 18:43-də deyilir: *"...o, Allahı izzətləndirərək İsanın ardınca getdi. Bunu görən bütün xalq Allaha həmdlər etdi".* Sizcə, Bartimay bu möcüzənin nəticəsində ürəyində İsaya qarşı nə hiss edirdi?

   Özünüzü onun yerinə qoyun. Siz nə hiss edərdiniz?

10. Bu möcüzə onu görən xalqa necə təsir etdi?

**Matta 9:27-31-i oxuyun.** (Bu, oxşar bir möcüzə əhvalatıdır.)

11. 28-ci ayədə İsa kor adamlara nə sual verdi və onların cavabı nə oldu?

    İsa 29-cu ayədə onlara nə dedi? Bu, İsanın Mark 10:52-də Bartimaya dediyinə necə bənzəyir?

**Tətbiq və dua:** Mark 10:46-52-ni təkrar oxuyun. Bu hekayədə Bartimayın İsanı çağırmaq tərzində təvazökarlıq, iman və əzmkarlıq görürük. İsanın cavabında biz dünyanın adam yerinə qoymadığı insanlara qarşı şəfqət və qayğı görürük. Və yekunda Allah izzətləndi!

Qrupda Rəbb qarşısında bir neçə dəqiqə sakitcə duraraq aşağıdakılar barədə düşünün:

- İsanın Mark 10:49-da Bartimayı çağırdığı kimi sizi də problemlərinizlə Onun yanına gəlməyə çağırdığına inanırsınızmı?
- İsa Bartimaya verdiyi sualı (*"Nə istəyirsən, sənin üçün edim?"*) sizə versəydi, cavabınız nə olardı? Allahın sizin üçün etməsini çox istədiyiniz bir şey varmı?
- İsa iki kor adama verdiyi sualı (*"Bunu etməyə qadir olduğuma inanırsınızmı?"*) sizə versəydi, cavabınız nə olardı?

Qrupunuzla birlikdə dua edin. Susdurulmağa razı olmayan o zavallı kor dilənçinin əzmkarlığı və Allahın şəfa verməyə qadir olduğuna inanan iki kor adamın imanı ilə istəklərinizi Allaha deyin. Onun sizin və ehtiyaclarınızın qayğısına qaldığına inanın.

## 28. Dirilmə və həyat İsadır (1-ci hissə)

**Giriş müzakirəsi:** Tanıdığınız bir kəs və ya siz özünüz nə vaxtsa nə üçünsə dua edib ümid etdiyiniz cavabı almamısınızsa, ondan bəhs edin. Siz (və ya o adam) buna necə reaksiya verdiniz?

**Zəmin:** İsanın dünyanın günahlarına görə Özünü qurban verəcəyi Pasxa bayramı yaxınlaşırdı. Yəhudi rəhbərlərinin əksəriyyəti artıq Ona qarşı olmuşdular və Onu öldürmək üçün fürsət axtarırdılar. Bu hadisə — Lazarın ölümdən diriltilməsi – İsanın İlahiliyinin son və ən güclü əlamətidir. Bu heyrətamiz möcüzə bəzi yəhudiləri İsanın vəd olunmuş Məsih olduğuna inandırdı. Lakin bu möcüzə yəhudi rəhbərlərinin çoxlarını İsanı məhv etməyə təşviq etdi. Bu yolla Allahın başlanğıcdan bəri günaha batmış bəşəriyyəti xilas etmək üçün Oğlunu qurban vermək planı yerinə yetiriləcək idi.

**Yəhya 11:1-16-nı oxuyun.**

1. 1-6-cı ayələri təkrar oxuyun. Bu ayələrdə Məryəm, Marta və Lazarın İsa ilə yaxın münasibətləri olduğu necə anlaşılır?
2. Lazarın bacıları İsaya nə xəbər göndərdilər? (3-cü ayə)

   İsa bunu eşidəndə nə dedi? (4-cü ayə)
3. 6-cı ayəni oxuyun. İsa Məryəm və Martadan təcili xəbər almasına baxmayaraq nə etdi?

   Sizcə, günlər keçdikcə və Lazarın xəstəliyi pisləşdikcə, İsanın gəlmədiyini görən bu bacılar nə düşünürdülər?

   Şəfa və ya başqa bir şey üçün dua edəndə cavabını tez almasaq, çox vaxt nə düşünürük?
4. 7-10-cu ayələri oxuyun. İsanın şagirdləri Onun yenidən Yəhudeyaya getməsinə görə niyə narahat idilər? (8-ci ayə)
5. 9-10-cu ayələrdə İsanın cavabına baxın. Sizcə, O, *"gündüz vaxtı gəzərsə"* və *"gecə vaxtı gəzərsə"* dedikdə nəyi nəzərdə tuturdu?

   Bunu düşünün: Yəhya 8:12-də İsa dedi:

   > *"Dünyanın nuru Mənəm. Mənim ardımca gələn heç vaxt qaranlıqda gəzməyəcək, həyat nuruna malik olacaq".*

Sizcə, *"gündüz vaxtı gəzmək"* İsanın ardınca getmək ilə eyni mənanı necə verə bilər?

Yəhya 8:28-29-də İsa bunu dedi:

*"...Özümdən bir şey etmirəm, ancaq Ata Mənə necə öyrədibsə, o cür danışıram. Məni Göndərən Mənimlədir. O Məni tək qoymadı, çünki Mən daim Onun xoşuna gələnləri edirəm".*

Bu ayələrə əsasən, İsa necə daim "gündüz vaxtı" gəzirdi?

6. Yəhya 11:11-16-nı oxuyun. İsa 11-ci ayədə Lazar haqqında nə dedi?

   Şagirdlər Onu necə yanlış anladılar? (12-13-cü ayələr)

   14-cü ayədə İsanın izahını oxuyun. Fikir verin ki, İsa Lazar haqqında xəbər almasa belə, hər şeyi bilirdi. O, Lazarın başına nə gəldiyini bilirdi və onun bacılarının və dostlarının necə kədərləndiklərini də bilirdi. Sonrakı ayələrdə onların kədərlərinin İsaya necə təsir etdiyini görəcəyik.

7. 15-ci ayəyə təkrar baxın. İsa nə üçün orada olmadığına görə şad olduğunu dedi? 4-cü ayəni bir daha oxuyun. Bu iki ayəni bir neçə dəqiqə müzakirə edin. İsa Lazarı sağaltmaq üçün tələsmədi, indi isə Lazar ölüb.

   İsa şagirdlərinin nəyə inanmasını istəyirdi? (15-ci ayə)

   Allahın Oğlu necə izzətləndiriləcəkdi? (4-cü ayə)

8. 16-cı ayəni təkrar oxuyun. Tomas özünü İsaya həsr etdiyini necə bəyan etdi?

**Tətbiq və dua:** Yəhya 11:9-10-cu ayələri bir daha oxuyun. İsa şagirdlərinə büdrəməmək üçün gecə vaxtı deyil, gündüz vaxtı gəzən adamdan danışdı. Yəhya 8:12 və 28-29-u təkrar oxuyun (5-ci suala baxın). Bu dərsdə İsanın sözləri və hərəkətləri barədə düşünün. Burada biz İsanın Atasının göstərişinə diqqətlə əməl etdiyini görürük. Əvvəl Lazar xəstə olanda O, Yəhudeyaya getmədi. Sonra isə əzaba və ölümə getsə belə, oraya getdi. İsa bilirdi ki, Atasını dinlədiyi və Ona itaət etdiyi təqdirdə həyatında Allahın iradəsindən kənar heç nə baş verə bilməz. O həmçinin bunu da bilirdi ki, Lazarın yanına gec gəlməklə bir xəstəyə şəfa verməkdən daha möhtəşəm bir şey edəcək.

Öz həyatınız haqqında düşünün. Siz büdrəməmək üçün “gündüz vaxtı” gəzirsiniz? Hər gün duaya və Allahın Kəlamını oxuyub düşünməyə vaxt ayıraraq Allahın sözünü dinləyirsinizmi? Onun sizə göstərdiyi hər şeyə əməl edirsinizmi?

Həm şəxsi həyatınızda, həm də qrup olaraq İsanın ardınca getməkdə hər gün necə böyümək istədiyinizi müzakirə edin. Sonra bunun üçün birlikdə dua edin.

## 29. Dirilmə və həyat İsadır (2-ci hissə)

**Giriş müzakirəsi:** Bu dərsin 1-ci hissəsində baş verən əhvalatı təkrar nəzərdən keçirin. Yadda saxladığınızı danışın, sonra Yəhya 11:1-16-nı oxuyun. İsa nə üçün Məryəm və Martadan o xəbəri alan kimi təcili onların yanına getmədi? İsa bütün işlərində həmişə "gündüz vaxtı gəzdiyi" kimi bu vəziyyətdə də bunu necə etdi?

**Yəhya 11:17-46-nı oxuyun.**

1. 17-19-cu ayələri təkrar oxuyun. İsa çatanda Lazar artıq nə qədər vaxt idi ki, ölmüşdü? (17-ci ayə)

   19-cu ayəyə əsasən, Məryəm və Martanın yanında kim var idi?

2. 20-22-ci ayələri oxuyun. Bu ayələrdə Martanın imanı necə aşkar oldu?

3. 23-27-ci ayələrdə Marta və İsa arasındakı söhbətin qalan hissəsini oxuyun. İsa 23-cü ayədə Martaya cavabında nə dedi?

   Marta İsanın nəyi nəzərdə tutduğunu düşündü? (24-cü ayə)

4. 25-26-cı ayələri təkrar oxuyun. İsa, *"Dirilmə və həyat MƏNƏM"* (böyük hərflər əlavə olunub) deyəndə nəyi nəzərdə tuturdu?

5. 21-22-ci ayələrə qayıdıb Martanın nə dediyini bir daha oxuyun. Marta iman edirdi ki, İsa Allahdan nə istəsə, Allah onu edəcək. İndi isə 25-26-cı ayələrə baxın: İsa Martadan nəyə iman etməsini istəyirdi. Bu, Martanın əvvəl iman etdiyindən necə fərqlənirdi?

6. Bu ayələrə əsasən, biz dirilmə və həyata necə nail oluruq?

   27-ci ayədə Marta necə cavab verdi?

7. 28-37-ci ayələri oxuyun. 32-cü ayəni nəzərdən keçirin. Məryəm İsanın gücünə iman etdiyini necə dilə gətirdi?

8. İsa oradakı insanların kədərini görəndə necə təsirləndi? (33-35-ci ayələr)

   Bunu düşünün: İsa onsuz da bilirdi ki, Lazar tezliklə diriləcək və onların kədərləri sevincə çevriləcək. Buna baxmayaraq, O, Lazarın ailəsi və dostları ilə birlikdə ağladı. Sizcə, niyə?

   Sizin fikrinizcə, İsa ağrı-acılarınıza görə necə hiss edir?

9. 38-44-cü ayələri oxuyun. İsa camaata daşı götürməyi deyəndə Marta nə dedi?

   Bəzi adamlar deyir ki, Müqəddəs Kitabdakı dirilmə əhvalatları həqiqi dirilmə deyildi, çünki o insanlar ölməmişdi, sadəcə özlərindən getmişdilər. Nə üçün Lazarın sadəcə özündən getmiş olması qeyri-mümkün idi?

10. Təsəvvür edin ki, siz Məryəm, Marta, ya da onlara təsəlli vermək üçün gələnlərdən birisiniz. Daşın yuvarlanaraq kənara çəkildiyini görürsünüz. İsanın dua etdiyini, ölmüş insanı çağırdığını eşidirsiniz. Sonra gözünüzün qarşısında bir az əvvəl çürüməyə başlamış adamın qəbirdən çıxdığını görürsünüz! Buna baxanda nə hiss edir və düşünürsünüz?

11. 42-ci ayəni oxuyun. İsa bu möcüzənin insanlara necə təsir etməsini istəyirdi?

12. Yəhya 11:4-ə, sonra 11:40-a təkrar baxın. Onlar inansaydılar nə görəcəkdilər?

    Onlar bunu necə gördülər?

    Bu möcüzədən İsanın kim olduğu barədə nə öyrənirsiniz?

13. 45-53-cü ayələri oxuyun. İnsanların bu möcüzəyə iki fərqli reaksiyaları nə oldu? (Xüsusilə 45, 46-47 və 53-cü ayələrə baxın.)

**Qeyd:** Bu heyrətamiz möcüzə İsanın İlahiliyinin son əlaməti idi. İsa bunu çarmıxa çəkilməsindən və Öz dirilməsi möcüzəsindən əvvəl etmişdi. Hətta İsaya nifrət edən fariseylər və dini rəhbərlər belə bunun həqiqətən baş verdiyini təkzib edə bilmədilər. Axı Yerusəlimdə çoxları Lazarı tanıyır və onun həqiqətən öldüyünü bilirdilər. İndi isə o burada, onların arasında gəzirdi! Bundan sonra dini rəhbərlər İsanı öldürməyi planlaşdırmağa başladılar və bununla da Allahın dünyanı xilas etmək planını həyata keçirdilər.

**Tətbiq və dua:** Yəhya 11:25-26-da İsa Martaya belə dedi:

> *"Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də, yaşayar, yaşayıb Mənə iman edən də heç vaxt ölməz. Buna inanırsanmı?"*

Şəxsən siz İsanın 26-ci ayədəki sualına nə cavab verərdiniz?

Əgər sizin cavabınız 27-ci ayədə Martanın cavabı kimidirsə, onda bir neçə dəqiqə sakitlikdə bu sual barədə düşünün: 25-26-cı ayələrdə deyilən sözlərə həqiqətən inanırsınızsa, bu, həyat tərzinizə necə təsir edir?

İndi bir neçə dəqiqə sakitlikdə bu sual barədə düşünün: bu ayələrdə deyilən sözlərə həqiqətən inanırsınızsa, bu, həm sizin ölümünüz, həm də İsaya iman edən sevdiklərinizin ölümü barədəki düşüncənizə necə təsir edir? Yuxarıdakı iki sual haqqında düşüncələrinizi qrupda müzakirə edin.

Yəhya 5:24-25-də belə deyilir:

> *"Doğrusunu, doğrusunu sizə deyirəm: Mənim sözümə qulaq asıb Məni Göndərənə inanan şəxs əbədi həyata malikdir və ona hökm çıxarılmayacaq, əksinə, ölümdən həyata keçib. Doğrusunu, doğrusunu sizə deyirəm: Allah Oğlunun səsini ölülərin eşitdiyi zaman gəlir və artıq gəlib; bunu eşidənlər yaşayacaq".*

İsanın ölümü və dirilməsi sayəsində nail olduğunuz əbədi həyat üçün bütün qrupunuzla birlikdə Allaha şükür etməyə vaxt ayırın.

Əgər siz hələ də İsanın kim olduğuna əmin deyilsinizsə, bu möcüzənin hekayəsini təklikdə bir daha oxuyun. İsanın 25-26-cı ayələrdə Özü haqqında söylədiyi və Martanın 27-ci ayədə iqrar etdiyi həqiqətə inanmanıza nə mane olur? Dua edib Allahdan həqiqəti sizə açmasını diləyin.

## 30. İsanın dirilməsi

Hər şeyi həmişəlik dəyişdirən möcüzə

(İsanın dirilməsi hekayəsi həmçinin Matta 28:1-15, Mark 16:1-8 və Yəhya 20:1-29-da yer alır.)

**Giriş müzakirəsi:** Siz çətin vaxtlardan keçəndə Allahın sizə verdiyi vədlər xatırlamaq və onlara inanmaq sizə asan olurmu? Sizcə, niyə bu bəzən bizim üçün çətindir?

**Giriş:** İsa Lazarı ölümdən dirildəndən az sonra yəhudi rəhbərlər paxıllıqdan və öz yüksək mövqelərini itirmək qorxusundan Onu məhv etmək planlarını həyata keçirməyə başladılar. Baxmayaraq ki, İsa yəhudi dini rəhbərlərinin cəhdləri ilə öldürüldü və Roma hökuməti tərəfində məhkum edilib çarmıxa çəkildi, İsanın ölümü hələ dünya yaranmazdan əvvəl Allahın planında idi. (Vəhy 13:8-ə baxın.) İsa bizim günahlarımızın qurbanı olaraq bizim əvəzimizə öləcəkdi.

Yeşaya peyğəmbər, İsa doğulmamışdan təqribən 700 il əvvəl İsrail xalqına (Məsihdən bəhs edərək) belə demişdi:

> *"Bizim üsyankarlığımıza görə onun bədəni deşildi, şər əməllərimiz naminə əzildi, bizim əmin-amanlığımız üçün o, cəza aldı, onun yaraları ilə biz şəfa tapdıq. Hamımız qoyun kimi yolu azmışdıq, hər birimiz öz yolumuzla gedirdik. Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu". (Yeşaya 53:5-6)*

Əgər siz İsanın çarmıxa çəkilməsi haqqında heç vaxt oxumamısınızsa, bu dərsə başlamazdan əvvəl Onun çarmıxa çəkilməsi barədə oxusanız, bu sizə dirilmənin əhəmiyyətini anlamaqda yardım edər. Bu hekayə Müjdələrin dördündə də yer alır: Matta 26-27, Mark 14-15, Luka 22-23, və Yəhya 18-19.

(*50 Həyat Dərsi* kitabında bu mövzuya dair sizə faydalı ola biləcək dörd dərs tapa bilərsiniz – 4, 5, 6, və 7-ci dərslər. Bu kitabı www.learnhisways.com saytından pulsuz yükləyə bilərsiniz.)

**Qeyd:** Bu dərsdəki əhvalat İsanın ölümündən üç gün sonra – bazar günü səhər tezdən baş verir. Gəlin baş verən o heyrətamiz hadisələr haqqında oxuyaq.

**Luka 24:1-12-ni oxuyun.**

**Qeyd:** İsanın ölümü Şənbə günündən əvvəlki gün baş verdi və Onun bədəni gün batmazdan əvvəl dəfn olunmalı idi. Buna görə də bədənini adətə görə hazırlamağa vaxt yox idi. (Luka 23:54-56) Bu səbəbdən qadınlar Şənbənin ertəsi günü (bazar günü) sübh tezdən oraya gəldilər ki, İsanın bədənini ətirlərlə hazırlasınlar. Onlar oraya gedərkən qəbirdə qeyri-adi bir şey görəcəklərini ağlına gətirməzdilər.

1. 1-3-cü ayələri təkrar oxuyun. (10-cu ayə bu qadınlardan bəzilərinin kim olduğunu bildirir.)

   2-ci ayəyə əsasən, onlar qəbirə çatanda nə gördülər?

   3-cü ayəyə əsasən, onlar orada nəyi görəcəklərini düşünmüşdülər, amma görmədilər?

2. 4-cü ayəyə baxın. Boş qəbiri görən qadınların çaşqınlığını təsəvvür edə bilərsiniz. Sizcə, onlar bir-birinə nə deyirdilər?

   Onlar gördüklərini anlamağa çalışarkən nə baş verdi?

3. 5-7-ci ayələri oxuyun. Qadınlar necə reaksiya verdilər? (5-ci ayə)

   Mələklər onlara nə sual verdilər? (5-ci ayə) Qadınlar axtardıqları Adamın diri olduğunu bilirdilərmi?

   Mələklər nə üçün İsanın qəbirdə olmadığını dedilər? (6-cı ayə) Bu baş verməmişdən əvvəl İsa ardıcıllarına nə baş verəcəyini söyləmişdi? (7-ci ayə)

4. Bütün Müjdələrdə İsanın şagirdlərinə ölüb diriləcəyini bir neçə dəfə söylədiyi qeyd olunur. Sizcə, nə üçün İsanın o sözləri şagirdlərin yadına düşməmişdi?

5. 8-12-ci ayələri oxuyun. Qadınlar İsanın onlara dediklərini xatırlayanda nə etdilər? (8-9-cu ayələr)

   11-ci ayəyə təkrar baxın. Həvarilər qadınların gətirdiyi xəbəri eşidəndə nə düşündülər? Sizcə, nə üçün onlar qadınlara inanmadılar?

**Qeyd:** O vaxt İsraildə qadının şahidliyi etibarlı sayılmazdı. Amma Allah tarixin ən vacib xəbərini – İsanın dirilməsi haqqında xəbəri çatdırmaq şərəfini qadınlara verdi!

6. Peter 12-ci ayədə qadınların gətirdiyi xəbəri eşidəndə nə etdi?

O nə gördü? Sizcə, bu ona İsanın bəlkə həqiqətən də dirildiyinə inanmağa kömək etdimi? (Yəhya 20:6-7-də yazılıb ki, Peter *"... düşüb-qalan kətan bezləri və İsanın başına qoyulmuş dəsmalı gördü. Dəsmal kətan bezlərin yanında deyil, başqa bir yerdə bükülü qalmışdı".*)

**Qeyd:** O günlərdə qəbiri soyanlar kətan bezləri götürüb aparardılar, çünki kətan dəyərli idi. Meyiti isə heç qiyməti olmadığına görə qəbirdə qoyardılar. Kimsə insanları İsanın dirilməsinə inandırmaq üçün bədənini oğurlasaydı belə, paltarlarını çıxarmazdı və üz dəsmalını qatlamağa vaxt sərf etməzdi.

**Yəhya 20:19-20-ni oxuyun.**

7. İsanın çarmıxa çəkilməsindən üç gün sonra şagirdləri harada idilər? Əgər İsanın ardıcılları Onun sözlərini yadda saxlasaydılar və Ona inansaydılar, sizcə, o gün nəyi başqa cür edərdilər?

8. İsa şagirdlərinə həqiqətən Özü olduğunu necə sübut etdi? (20-ci ayə)

   Sizcə, o an şagirdlər nə cür hisslər keçirdilər?

9. Həvarilərin İşləri 1:3-də İsa haqqında belə deyilir:

   > *"Ölüm əzabını çəkəndən sonra həvarilərə çoxlu inandırıcı dəlillərlə Özünü diri olaraq göstərdi. O, qırx gün ərzində onlara görünərək Allahın Padşahlığı barədə danışırdı".*

   Bu ayəyə əsasən, İsa şagirdlərinə həqiqətən diri olduğunu necə təsdiqlədi?

10. İsanın dirilməsi bizim üçün sadəcə olaraq iki min il əvvəl baş vermiş böyük bir möcüzədir, yoxsa bu gün də bizim üçün bir məna kəsb edir? Aşağıda verilmiş hər ayəni oxuyun və İsanın dirilməsinin sizin həyatınız üçün nə məna kəsb etdiyini müzakirə edin.

    - *"O Öz böyük mərhəmətinə görə yenidən doğulmamızı təmin etdi. İsa Məsihin ölülər arasından dirilməsi ilə bizi canlı ümidə, çürüməz, ləkəsiz, solmaz bir irsə qovuşdurdu. Bu irs sizin üçün göylərdə saxlanılır". (1 Peter 1:3-4)*
    - *"Əgər İsanı ölülər arasından Dirildənin Ruhu sizdə yaşayırsa, Məsihi ölülər arasından Diriildən, sizdə yaşayan Ruhu ilə sizin də fani bədənlərinizə həyat verəcək". (Romalılara 8:11)*

- *"İsa bizim təqsirlərimizə görə ölümə təslim edildi və bizim saleh sayılmağımız üçün dirildi". (Romalılara 4:25)*
- *"Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun". (Yəhya 3:16)*

**Tətbiq və dua:** İsanın möcüzələrinin hamısı heyrətamizdir. Onlar vasitəsilə biz Onun xeyirxahlığını və rəhmini, qüdrətini və səlahiyyətini görürük, Onu sevməyə, Ona həmd etməyə ilhamlanırıq. Amma yekunda həqiqətən vacib olan yeganə möcüzə İsanın dirilməsidir. Digər möcüzələrin hamısı müvəqqətidir. Bütün şəfa tapanlar əvvəl-axır öldülər. Artırılan yemək bitdi və hətta İsanın ölülərdən diriltdiyi insanların hamısı sonra öldü. Ancaq İsanın dirilməsi əbədidir! O qeyri-fani bədəndə dirildi və dirildikdən sonra əbədi yaşayacaq. O söz verib ki, Ona iman edən hər kəs də eyni şəkildə dirilib əbədi yaşayacaq.

Yuxarıda verilmiş 9-cu sualdakı ayələri bir daha sakitlikdə oxuyun və hər biri barədə bir neçə dəqiqə düşünün. Siz inanırsınızmı ki, Allah *sizin* həlak olmamağınız və əbədi həyata malik olmağınız yeganə Oğlunu verdi? *Siz* yaşayan ümidi almaq üçün yenidən doğulmusunuzmu? İsanı Dirildənin Ruhu *sizdə* yaşayırmı?

İsanın ölümü və dirilməsinin ən böyük möcüzəsi odur ki, İsa bunu Ona itaətsiz olan *bizlər üçün* etmişdir.

> *"Hamımız qoyun kimi yolu azmışdıq, hər birimiz öz yolumuzla gedirdik. Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu". (Yeşaya 53:6)*

Allah bizim bütün günahlarımızı Öz Oğlu İsa Məsihin üzərinə qoydu. Sonra O, İsanı diriltdi və Ona inananların hamısını da Onunla birlikdə dirildəcək.

Yəhya 11:25-26-nı təkrar oxuyun. Əgər əvvəllər Ona iman etməmisinizsə, indi Ona Xilaskar kimi iman etməyə hazırsınızmı?

İndi hamınız birlikdə uca məhəbbətinin möcüzəsinə görə Allaha şükür edin. İndi və əbədi olaraq Onunla birlikdə ola bilməniz üçün İsanı göndərdiyinə görə, İsanın həyatı, ölümü və dirilməsinə görə Allaha şükür edin.

*Çürüyən bədən çürüməzliyə*
*və ölümə düçar olan bədən*
*ölməzliyə büründükdə*
*“Ölüm yol edildi,*
*Onun üzərində qələbə çalındı!”*
*deyə yazılmış söz yerinə yetəcək.*
*“Ey ölüm, qələbən hanı?*
*Ey ölüm, neştərin hanı?”*
*Ölümün neştəri günahdır,*
*günah isə gücünü Qanundan alır.*
*Rəbbimiz İsa Məsih vasitəsilə*
*bizə qələbə bəxş edən*
*Allaha şükür olsun!*
*1 Korinflilərə 15:54-57*

## 31. İkinci möcüzəli balıq ovu

Bu dərsdə biz Peterin və İsanın digər şagirdlərinin balıq tutarkən yaşadıqları ikinci möcüzəyə baxacağıq. Birinci möcüzə İsanın xidmətinin başlanğıcında olmuşdu və ona 4-cü dərsdə baxmışdıq.

**Giriş müzakirəsi:** Luka 5:1-11-i oxuyun və 4-cü dərsdən xatırladıqlarınızı bir neçə dəqiqə müzakirə edin (Möcüzəli balıq ovu). Allah bu kəlam vasitəsilə sizə nə danışırdı?

**Giriş:** Burada nəql olunan əhvalat İsanın ölümündən və dirilməsindən sonra olmuşdu. Bu, İsanın Ata Allahın yanına qayıtmamışdan əvvəl qeydə alınmış son möcüzəsi idi.

**Yəhya 21:1-14-ü oxuyun.**

1. 1-3-cü ayələri təkrar oxuyun. (Tiberiya gölünün digər adı Qalileya dənizidir. Zavdayın oğulları, İsanın ən yaxın şagirdləri Yaqub və Yəhya idilər.) Bu ayələrdə nə baş verdiyini təsvir edin.

2. 4-cü dərsdə baxdığımız Luka 5:9-11-ə təkrar baxın. İsa 10-cu ayədə Şimona (Peterə) nə dedi?

   11-ci ayədə Şimon, Yaqub və Yəhya nə etdilər?

3. İndi Yəhya 21:3-ə təkrar baxın. İsanın ən yaxın ardıcılları üç il boyunca İsa ilə birlikdə hər yerə gedəndən sonra əvvəlki peşələri olan balıqçılığa niyə qayıtmışdılar?

**Qeyd:** Görünür, İsanın ölümündən sonra şagirdləri bir müddət nə edəcəklərini bilmirdilər. Onlar üç il boyunca hər gün İsanın yanında idilər, lakin Onun ölümündən və dirilməsindən sonra bu artıq belə deyildi. Dirilmiş İsa yeni bədənində həm şagirdlərə, həm də bir başqalarına 40 gün ərzində göründü, lakin hər gün onlarla birlikdə gəzmədi. İsanın rəhbərliyindən məhrum qalmış şagirdlər nə edəcəklərini bilmirdilər. Buna görə də əvvəlki peşələrinə qayıtdılar. Həvarilərin İşləri kitabında Əllinci gün bayramında Müqəddəs Ruhun gəlişindən sonra bunun necə dəyişdiyini oxuya bilərsiniz.

4. Yəhya 21:3-ə baxın. Birinci möcüzəli balıq ovunda, Luka 5:5-də baş vermiş əhvalatla bu əhvalatın arasındakı oxşarlığı təsvir edin.

5. Yəhya 21:4-5-ci ayələri oxuyun. Şagirdlər o səhər İsanı görəcəklərini gözləyirdilərmi?

İsa 5-ci ayədə onlardan nə soruşdu?

6. Sonra İsa onlara nə buyurdu? (6-cı ayə)

   Onlar İsanın buyruğunu yerinə yetirəndə nə baş verdiyini təsvir edin.

7. Şagirdlər bu möcüzəni ikinci dəfə görəndə, sizcə, nə düşündülər? Bu, İsanın üç il əvvəl onları ardınca getməyə çağırmasını necə yadlarına sala bilərdi? (Luka 5:10-11. 3-cü sualda verilmiş qeydə təkrar baxın.)

8. 7-8-ci ayələri oxuyun. Peter Onun İsa olduğunu anlayanda nə etdi?

   Sizcə, o nə üçün belə reaksiya verdi?

   Peterin Luka 5:8-dəki reaksiyasını buradakı reaksiyası ilə müqayisə edin. Sizcə, nə üçün o burada başqa cür reaksiya verdi? Aşağıdakı qeydi oxumamışdan əvvəl fikirlərinizi qrupla bölüşün.

**Qeyd:** Birinci balıq ovu möcüzəsi baş verəndə Peter hələ İsanın kim olduğunu bilmirdi. O möcüzə Peterə İsanın Allahdan olduğunu sübut etdi və Peter öz günahını dərk etdi. Amma indi Peter artıq üç il idi ki İsa ilə birlikdə idi. İsanın köməksiz və ümidsiz insanlara rəhmini görmüşdü. Fahişələrə və digər günaha batmış insanlara günahlarının bağışlandığını söylədiyini eşitmişdi. Bir-birini sevməyi öyrətdiyinin və bu məhəbbəti Öz əməlləri ilə göstərdiyinin şahidi olmuşdu. İndi isə Peter balıqla dolu olan, yavaş hərəkət edən qayığın içində sahilə çatmaq üçün səbirsiz idi. Görünür ki, o, İsanın yanında olmağa can atırdı və İsanın onu sevdiyinə və qəbul etməsinə əmin idi.

9. İndi Yəhya 21:15-25-i oxuyun. İsa Şimon Peterə hansı sualı üç dəfə verdi?

   Sizcə, nə üçün İsa ona eyni sualı üç dəfə verdi? Peterin İsanı tanımasını neçə dəfə inkar etdiyi barədə düşünün. (Yəhya 18:15-18 və 25-27)

10. 15-17-ci ayələrdə Peter hər dəfə İsanın sualına cavab verəndən sonra İsa ona nə etməyi tapşırdı?

    Sizcə, bu Peterə necə əminlik verdi ki, İsa hələ də Peterin Onun ardınca getməsini və Ona xidmət etməsini istəyir? Sizcə, bu Peteri ruhlandırdımı?

11. 18-19-cu ayələri təkrar oxuyun. İsa Peterin axırda Onu necə izzətləndirəcəyi barədə nə dedi?

    19-cu ayədə İsanın Peterə son sözləri nə oldu?

12. Siz Peterin yerində olsaydınız, özünüzü necə hiss edərdiniz? Qüruru sınmış? Şərəfləndirilmiş? Qorxmuş? Sevilən? Sevincli? Bəlkə də, elə bunların hamısı?

**Tətbiq və dua:** İsa həbs olunmamışdan əvvəl Peter cəsarətlə bəyan etmişdi ki, hamı İsanı inkar etsə belə, o əsla Onu inkar etməyəcək və hətta həyatı bahasına olsa belə, o, İsaya sadiq qalacaq. Lakin sınaq gələndə Peter yıxıldı – İsanı üç dəfə inkar etdi. Bundan sonra öz zəifliyini dərk edən Peterin qüruru sındı.

Nəyin bahasına olursa-olsun, İsanın ardınca gedəcəyimizi cəsarətlə bəyan etmək asandır. Amma sınağa düşəndə əslində nə qədər zəif və etibarsız olduğumuzu dərk edirik. Hamımız Rəbbə itaətsizlik edib yıxılmışıq – İsaya şəhadət etmək, həyatımızda nələr etdiyi haqqında insanlara danışmaq fürsətini dəfələrlə əldən buraxmışıq. Peterin İsa ilə son söhbəti bizi çox ruhlandıra bilər. İsa böyük mərhəməti ilə Peteri yenidən ardınca gəlməyə çağırdı. Biz yıxılanda da İsa bizə eyni sözü deyir: "Gəl, bir daha çarmıxını götür və ardımca gəl!"

İndi Rəbbin önündə sükut edin. Onu necə inkar etdiyinizi sizə göstərməsini diləyin. Əgər Allah sizə nəsə göstərsə, bunun üçün əfv diləyin və Allahın sizi bağışlamasını qəbul edin. Allaha böyük rəhminə görə təşəkkür edin və hər gün Onun üçün yaşamaq naminə lütf və güc istəyin.

## 32. Cəmiyyəti təqib edən adam dönüb həvari olur

Dəyişən həyat möcüzəsi

*"Deməli, kim Məsihdədirsə, yeni yaradılışdır, köhnə şeylər keçib-getdi, təzə şeylər gəldi". (2 Korinflilərə 5:17)*

(Bu hekayə Həvarilərin İşləri kitabında üç yerdə nəql olunur: 9:1-22; 22:1-16 və 26:9-18. Bu dərsdə biz bunların hər üçünə baxacağıq.)

**Giriş müzakirəsi:** Əgər siz Allahın xilas ənamını almısınızsa və İsanın ardıcılı olmusunuzsa, İsaya gələndən sonra Onun həyatınızı necə dəyişdiyi barədə bir neçə dəqiqə qrupda bölüşün.

**Giriş:** Xəstə bir insana şəfa vermək və ya ölmüş bir insanı diriltmək gözəl və heyrətamiz möcüzələrdir, amma möcüzələrin ən böyüyü, yəqin ki, günahda ruhən ölü olan insanın ruhən əbədi həyata doğulması və Allahın Ruhu ilə dolmasıdır. Bunun baş verdiyi andan etibarən insan yeni həyata başlayır, xudbinlikdən, günahdan tədricən xilas olub İsanın surətinə dəyişdirilir. Bu möcüzə yalnız bu həyat üçün deyil, bütün əbədiyyət üçündür!

Əhdi-Cədiddə biz İsa haqqında xoş xəbərə inanan və günahlarından üz döndərib İsanın ardınca gedən bir çox insanların hekayələrini oxuyuruq. Bunların arasında, sonradan həvari Paul olaraq tanınan tarsuslu Şaul xüsusi yer tutur. Onun hekayəsi Həvarilərin İşləri kitabında nəql olunur. Bu dərsdə biz bu adamın imana gəlməsi ilə nəticələnən möcüzəyə və bu möcüzənin onu necə həmişəlik dəyişdirdiyinə baxacağıq.

**Həvarilərin İşləri 7:57-8:3-ü oxuyun.** (Burada ilk məsihçi şəhid olan Stefanın yəhudi başçıları tərəfindən daşlanması nəql olunur.)

1. Həvarilərin İşləri 8:1-ə təkrar baxın. Stefanın ölümündən dərhal sonra nə baş verdi?

2. Həvarilərin İşləri 7:57 və 8:1,3-dən Şaul barədə nə öyrənirik? (Həmçinin Həvarilərin İşləri 22:20-yə baxın.)

**Həvarilərin İşləri 9:1-22-ni oxuyun.**

3. 1 və 2-ci ayələri təkrar oxuyun. Şaulun İsanın ardıcıllarına qarşı münasibəti necə idi?

   2-ci ayəyə əsasən, o haraya gedirdi və nə etmək istəyirdi?

Bu ayələrdə Şaul haqqında öyrəndiklərimizə əsasən, sizcə, Şaulun nə vaxtsa İsanın ardıcılı olacağı kiminsə ağlına gələ bilərdimi?

4. Həvarilərin İşləri 9:3-6-nı təkrar oxuyun. Şaul Dəməşqə yaxınlaşanda başına nə gəldiyini təsvir edin.

   Onunla kim danışdı? O nə dedi?

   Şaul başlanğıcda Onun kim olduğunu bilirdimi? (5-ci ayə)

5. 8-ci ayədə Şaulun halını təsvir edin. Bu vaxta qədər o güclü rəhbər idi. İndi onun özünü nə qədər aciz hiss etdiyini təsəvvür edin.

**Qeyd:** Şaul, Dəməşqə gedən yolda İsa ilə qarşılaşmazdan əvvəl gözləri ətrafındakı fiziki dünyaya açıq, ruhani həqiqətə isə bağlı idi. İndi isə fiziki gözləri bağlı idi, ruhani gözləri isə açılmağa başladı!

6. Şaul Dəməşqə çatanda nə etdi? (9-cu ayə)

   Sizcə, o, bu üç gün ərzində nə barədə düşünürdü?

7. Həvarilərin İşləri 26:9-11-i oxuyun. Şaulun İsanın ardıcıllarını hansı yollarla təqib etdiyini deyin.

8. Paulun həqiqət saydığı etiqada nə qədər ciddi yanaşdığına fikir verin. Həyatını həsr etdiyi hər şeyin yanlış olduğunu birdən-birə öyrənən Şaulun o anda nə keçirdiyini bir neçə dəqiqə müzakirə edin. Axı o, bu etiqada şövqlə qulluq edirdi və bununla Allahı razı saldığını düşünürdü!

   Buna bənzər təcrübəsi olan birini tanıyırsınızmı?

9. Həvarilərin İşləri 9:10-19-u təkrar oxuyun. Xananya kim idi? (Həmçinin Həvarilərin İşləri 22:12-ni oxuyun)

   Allah ona nə etməyi tapşırdı? (Həvarilərin İşləri 9:10-12)

10. Həvarilərin İşləri 9:13-14-ə əsasən, Xananya Rəbbə necə cavab verdi?

**Qeyd:** Dəməşq Yerusəlimdən 220 kilometr uzaqlıqda idi. Buna baxmayaraq, Şaulun xəbəri Dəməşqdəki imanlılar arasında yayılmışdı. Görünür, onlar Şaulun nə məqsədlə gəldiyini əvvəlcədən eşitmişdilər.

   Rəbb Xananyaya dediklərini sizə desəydi, Ona necə cavab verərdiniz?

11. Həvarilərin İşləri 9:17-19-a baxın. Xananya nə etdi? Şaulun başına nə gəldi və sonra o nə etdi?
12. Həvarilərin İşləri 26:16-18-i oxuyun. Paul bu ayələrdə necə imana gəldiyini danışanda, Dəməşq yolunda İsanın ona nə dediyini daha ətraflı anlatdı. İsa Şaulu nə etməyə çağırdığını dedi?
13. Həvarilərin İşləri 9:19-22-ni oxuyun. Şaul vəftiz olunandan dərhal sonra nə etdi?

    Bu onun Məsihdə həqiqətən yeni yaradılış olduğunu necə göstərdi?

**Tətbiq və dua:** Bu dərsin başında verilmiş ayəni oxuyun. (2 Korinflilərə 5:17) Bir adam İsaya Rəbb və Xilaskar olaraq iman edəndə onun bütün günahları yuyulur və o, yeni həyata doğulur. Şaulun həyatı haqqında elə indicə öyrəndikləriniz barədə düşünün. Onun həyatı sizəAllahın keçmişindən asılı olmayaraq hər kəsi dəyişdirib yeni insana çevirməyə qadir olduğuna inanmağınıza necə yardım edir? (Həmçinin 1 Timoteyə 1:15-16-ya baxın.)

Əgər siz Allahdan yeni həyat ənamını hələ almamısınızsa, onu indi qəbul etmək istəyirsinizmi? İstəyirsinizsə, indi qrupunuzda dua edin, Allahdan günahlarınızın bağışlamasını və Şaulu yenilədiyi kimi sizi də yeniləməsini diləyin.

Əgər artıq İsanın ardıcılısınızsa, Şaulun Allahdan xilas ənamını alandan dərhal sonra nə etdiyi barədə düşünün. (Həvarilərin İşləri 9:20-22) Siz bu xoş xəbəri kiminlə bölüşə bilərsiniz? İndi Allaha həyatınızda etdiklərinə görə təşəkkür etmək və Müjdəni bölüşmək istədiyiniz insanlara görə dua etmək üçün vaxt ayırın. Sonra bu həftə mütləq bunu edin!

İsa ilə görüşəndən sonra Şaulun həyatının necə dəyişdiyini görməyinizə yardım edəcək bəzi ayələr aşağıda verilmişdir:

- 2 Korinflilərə 11:22-29
- Filipililərə 3:3-11
- 2 Korinflilərə 4:7-122
- Qalatiyalılara 2:20
- Qalatiyalılara 4:14
- 2 Timoteyə 4:6-8

## Tərcüməçilər üçün qaydalar

***Bu kitabı başqa bir dilə tərcümə etmək istəyirsinizmi? Bunun üçün bunları etməlisiniz:***

1. www.learnhisways.com saytına girib bizimlə əlaqə qurun, yoxsa email vasitəsilə bizə yaza bilərsiniz: learnhisways@gmail.com. Kitabı hansı dilə tərcümə etmək istədiyinizi bizə bildirin. Sizinlə əlaqə qurmağımız üçün bizə e-poçt ünvanınızı yazın. Kitabın o dilə tərcüməsi artıq başlanmış ola bilər. Bu təqdirdə başqalarının işini təkrarlanmayasınız deyə sizə xəbər verəcəyik.

2. Tərcümə orijinal mətndən, yəni ingiliscədən yerinə yetirilməlidir. Bu kitabın ingiliscə versiyasını yuxarıdakı saytda tapmaq olar, ya da bizdən email vasitəsilə ala bilərsiniz.

3. Tərcüməçi kitabın ingiliscə versiyasının sonunda yer alan "Tərcüməçilər üçün qaydalar"ı oxumalıdır. Kitabın ingiliscə versiyası həmçinin bu saytdan yüklənə bilər:
www.learnhisways.com

4. Kitab qaydalara görə tərcümə olunub yoxlandıqdan sonra vebsayt yoxsa e-poçt vasitəsilə bizimlə əlaqə qurun. Ola bilər ki, sizin tərcümənizi başqalarının pulsuz yükləməsi üçün sayta yerləşdirək.